www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 mart 2015-ci il Cümə № 56 (6084) Qiyməti 40 qəpik

**Xəbər**

## Əsgərimiz ad günündə şəhid oldu

yazısı səh.13-də

**Gündəm**

### Milli Şuranın mitinqinə icazə verildi - müəmmanın sonu



Aksiya ilə bağlı iki gün provokativ proses müşahidə olundu; BŞBPİ-nin rəis müavini təşkilatçılara xəbərdarlıq etdi

yazısı səh.9-da

### Rəsul Cəfərovun məhkəməsi Novruzdan sonraya qaldı

yazısı səh.7-də

### Ermənistan dramı: ölkə rubl zonasına keçir, ordusu da ixtisara düşə bilər

yazısı səh.11-də

### Deputatdan xarici mətbuatdakı tənqidlərlə bağlı ilginc açıqlamalar

yazısı səh.12-də

### Sabirabadda intihar edən şəhid qardaşının həyat hekayəsi...

yazısı səh.7-də

### 38 milyon manatı mənimsəyən məhbus bankirin oğlu niyə azadlığa buraxılıb?

yazısı səh.6-da

### Qubad İbadoğlu hökumətə nazirliklərin ixtisarı təklifini verib

yazısı səh.12-də

### Gələcək Avropa ordusunun ürəyi - Türkiyə əsgəri...

yazısı səh.5-də

### Şəhid ailələri və Qarabağ əlilləri "qan pulu"nu ala bilmir

yazısı səh.13-də

### Tərtərdə həbs edilənlərinlə bağlı yeni təfərrüatlar

yazısı səh.8-də

### "Qul bazarı"ndakı müəllimlər danışdı

yazısı səh.15-də

## "Tupoy Qaqo"dan Sərkisyana Azərbaycan gözdağı

# ERMƏNİ İDMANÇILARIN BAKIYA GƏLMƏKDƏN İMTİNASININ İKİ MÜHÜM SƏBƏBİ

EMOK-un rəhbəri maliyyələşdirdiyi federasiyaları Avropa Oyunlarına göndərməməklə onu aşağılayan prezident Sərkisyanı cəzalandırır; amma Azərbaycanda döyülməkdən qorxan ermənilərin başqa bir niyyəti də ola bilər; işğalçı mahiyyəti ilə dünyadan izolyasiya olunan Ermənistan idmançılarının üzünə beynəlxalq arenalar da bağlanır...




yazısı səh.10-da

## Güllə yarasından ölən iş adamı ilə bağlı sensasion məlumatlar

Füzuli Qasımov Ziya Məmmədovu üstələyən şərik tapandan sonra müəmmalı şəkildə ölüb; iş adamının ətrafı onun intihar xəbərini qəbul etmir; goranboylu sahibkarın bahalı maşınları, paytaxtın bir neçə yerində evi olub; pulsuzluqdan özünə qəsd versiyası ortadan qalxır

yazısı səh.3-də



*Hacı Qalib Salahzadə:*

### "Ağılsız adam gedib bankdan pul götürər, maşın alar..."

yazısı səh.6-da



*Hadı Rəcəbli:*

### "Axı pis bir şey deməmişəm..."

yazısı səh.4-də



### "AMAY Abdulla"nın obyekti yandı

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015



# Putin Sərkisyana zəng etdi

**Rusiya prezidenti Vladimir Putin Ermənistan prezidenti Serj Sərkisyana zəng edib. Virtualaz.org saytı xəbər verir ki, bu haqda Kremlin mətbuat xidməti məlumat yayıb. "Telefon danışığı zamanı qarşıdakı şəxsi təmasların planı razılaşdırılıb, o cümlədən soyqırımın 100 illiyinə həsr olunmuş tədbirlərdə, Böyük Vətən müharibəsində qələbənin 70 illiyinin bayram olunmasında birgə iştirak barədə danışılıb"- deyə Kreml bildirir.**

Tərəflər həmçinin Rusiya ilə Ermənistan arasında strateji tərəfdaşlıq münasibətləri və Avrasiya İttifaqı çərçivəsində inteqrasiya prosesləri haqda müzakirə aparıblar.

Vladimir Putin təxminən bir həftədir ictimaiyyət qarşısında görünmür və Astanaya səfərini təxirə salıb. Rusiya mətbuatında onun xəstələndiyi haqda məlumatlar yayılıb, ancaq Putinin mətbuat katibi bunları şayiə adlandırır, prezidentin səhhətinin tam qaydasında olduğunu bildirir.

# Erməni əsgər anaları yenidən ayağa qalxdı

**Martın 12-də İrəvanda oğulları Ermənistan ordusunda həlak olmuş erməni analar Prezident Adminstrasiyasının önünə toplaşaraq etiraz mitinqi keçiriblər. ANS PRESS-in məlumatına görə, polis onların qarşısını alıb, erməni analardan yalnız birinə - Göhar Sərkisyana Ermənistan prezidenti yanında məktubların və vətəndaşların qəbulu şöbəsinə getməyə icazə verilib. Gohar Sərkisyan bir neçə ay əvvəl göndərdiyi məktuba cavab almaq istəyib.**

Yarım saatlıq görüşdən sonra Gohar Sərkisyan bildirib ki, şöbə müdiri Aida Asatryan bu barədə ölkə başçısı Serj Sərkisyana məlumat verib. Aida Asatryan əsgər analarının bütün məktublarını ona göstərib və bildirib ki, şöbə müdiri kimi vəzifəsini səliqə ilə yerinə yetirir. Sadəcə, prezident özü bu məktublara cavab vermir.

Əsgər anaları Sərkisyanı yalançılıqda günahlandırırlar. Çünki bir neçə il qabaq əsgər anaları ilə görüşən Serj Sərkisyan ölümlər üzrə ədalətli istintaq aparılacağını demişdi.

# Luqanskda azərbaycanlı iş adamı öldürüldü

**Ukraynanın Luqansk vilayətinin separatçıların nəzarətində olan Krasnıy Luç şəhərində azərbaycanlı iş adamı öldürülüb. Bu barədə APA-ya Luqansk vilayəti Azərbaycanlılar Konqresinin sədri Rasim Uğurluyev məlumat verib. O bildirib ki, qətlə yetirilən şəxs Ukrayna vətəndaşı, əslən Azərbaycanın Gəncə şəhərindən olan 1971-ci il təvəllüdlü Rövşən Yusif oğlu Şirinovdur.**

Martın 11-də axşam saatlarında R. Şirinovun separatçı "Luqansk Xalq Respublikası"nın nəzarətində olan Krasnıy Luç şəhərinin mərkəzindəki evinə 4 maskalı şəxs hücum edib. Maskalılar iş adamının və onun həyat yoldaşının əl-qolunu bağlayıblar. Hadisə zamanı R. Şirinovun 1 yaşlı oğlu da evdə olub. Quldurlar mənzildən 40 min dollara yaxın pulu götürərək iş adamını da özləri ilə aparıblar.

Səhəri gün şəhər kənarında R. Şirinovun meyiti tapılıb. O, başından aldığı güllə yarası nəticəsində ölüb.

Qondarma respublikanın "milisi" hadisəni törədənlərin axtarışına başlayıb və iş adamının yaxınlarına cinayətkarların tapılacağına dair söz verib. Rövşən Şirinovun cənazəsi dəfn olunmaq üçün martn 13-də Azərbaycana gətiriləcək.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Şamaxı Rəsədxanası qorxunc proqnoza aydınlıq gətirdi



**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Şamaxı Astrofizika Rəsədxanası xarici ölkə astroloqlarının martın 17-də Mars və Uranın bir-birinə yaxınlaşması və bunun nəticəsində kütləvi ölümlərin, fəlakətlərin baş verə biləcəyi barədə proqnozlarına aydınlıq gətirib.**

Şamaxı Astrofizika Rəsədxanasının direktor müavini Xıdır Mikayılov "Trend"-ə bildirib ki, 2012-ci ildə həmin ilin dekabr ayında bütün Yer kürəsinin qaranlığa qərq olacağı və "qiyamət günü"nün baş verəcəyi ilə bağlı proqnozlar verilmişdi: "Həmin proqnozlar özünü doğrultmadığı kimi, bu proqnozun da heç bir əsası yoxdur".

Direktor müavininin sözlərinə görə, Mars və Uranın toqquşması mümkünsüzdür. Çünki onlar bir-birindən çox uzaq məsafədə yerləşirlər: "Onların hər birinin öz orbiti var. Həmin orbit boyunca da dövr edirlər. Marsın və Uranın bir-biri ilə toqquşması üçün onların öz orbitlərindən çıxması lazımdır. Günəşin də cazibə sahəsi buna imkan vermir. Bu sistem çox dayanıqlı sistemdir və heç vaxt da dağıla bilməz".

Qeyd edək ki, türk astroloq Su Karakuşun sözlərinə görə, martın 17-də Mars və Uranın bir-birinə yaxınlaşması nəticəsində kütləvi ölüm hadisəsi və ya fəlakət baş verə bilər.

## Gecikdirilmiş kreditlərin ödənmə müddəti uzadıldı

**Azərbaycan Mərkəzi Bankı (AMB) restrukturizasiya olunmuş aktivlərin təsnifatını dəyişib.**

"Trend"in məlumatına görə, AMB-nin sədri Elman Rüstəmov "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydaları"na müvafiq dəyişiklikləri təsdiq edib.

Dəyişikliyə əsasən, 2015-ci il fevralın 23-dək restrukturizasiya olunmuş aktivlər standart aktivlər kimi, 2015-ci il fevralın 23-dən restrukturizasiya olunmuş aktivlər isə qənaətbəxş aktivlər kimi təsnifləşdirilə bilməz.

Restrukturizasiya olunmuş aktiv - iqtisadi və (və ya) hüquqi şəraitin dəyişməsi, habelə borclunun maliyyə çətinliyi yaranması səbəbindən borc öhdəliyinin icrasını təmin etmək məqsədi ilə müqavilə şərtləri dəyişdirilmiş və ya yeni öhdəlik kimi rəsmiləşdirilmiş borc öhdəliyidir.

Dəyişikliklər martın 7-dən qüvvəyə minib. Azərbaycanda 45 bank fəaliyyət göstərir.

## Asim Mollazadə Uruqvaya səfər edib

**Argentina səfərini yekunlaşdıran Demokratik İslahatlar Partiyasının (DİP) sədri, deputat Asim Mollazadə Azərbaycan parlament nümayəndə heyətinin üzvləri ilə birlikdə Uruqvaya gedib. Səfər zamanı deputatlar Uruqvay parlamentinin spikeri Alexandro Sançez Pereira, Senatın sədri və üzvləri, Uruqvayın vitse-prezidenti Raul Sendic və Uruqvayın xarici işlər naziri Luis Almaqro ilə görüşüblər.**

DİP mətbuat xidmətinin məlumatına görə, bu görüşlərdə Azərbaycan-Uruqvay əlaqələri, parlamentlərarası münasibətlər, müxtəlif sahələrdə əməkdaşlığın inkişafı, iki ölkə arasında dostluğun möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycan parlament nümayəndə heyəti ikitərəfli enerji əməkdaşlığının həyata keçirilməsi, müvafiq müqavilələrin bağlanması imkanlarını Uruqvayın dövlət neft şirkəti olan ANCAP-ın vitse-prezidenti German Rietlə müzakirə ediblər. ANCAP-la enerji sahəsində əməkdaşlıq imkanlarını nəzərdən keçirmək üçün Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) nümayəndələri ilə görüşlərin keçirilməsi məqsədəuyğun hesab edilib.

Uruqvay mediası azərbaycanlı parlamentarilərin səfəri barədə geniş materiallar dərc edib.

❑ **Vüqar MURAD**

# Nemtsovun qızı Rusiyadan getdi



**Qətlə yetirilmiş müxalif siyasətçi Boris Nemtsovun qızı Janna Nemtsova BBC-yə müsahibəsində bu cinayət üçün siyasi məsuliyyəti Rusiya prezidenti Vladimir Putinin üzərinə qoyub. "Atam Putinin ən əsas tənqidçisi olub. O, Rusiya müxalifətinin ən güclü lideri olub. O, Putinlə mübarizə aparıb, başqa heç kəslə yox"- Nemtsovun qızı deyib.**

Janna Nemtsova müxbirin ona ünvanladığı "atanızın ölümündə məsuliyyəti Vladimir Putinin üzərinə qoyursunuzmu" dəqiqləşdirici sualına belə cavab verib: "Bəli, siyasi mənada".

Virtualaz.org saytı xəbər verir ki, J.Nemtsova atası Borisin dəfnindən dərhal sonra xaricə yollanıb. Onun BBC-yə müsahibəsi İtaliyada yazılıb.

"Onlar mənim atamı öldürüb, mən susa bilmərəm" - deyən Nemtsova onu da əlavə edib ki, Rusiyaya qayıtmağa qorxmur.

Boris Nemtsov 27 fevral gecəsi Kremlin lap yaxınlığında Böyük Moskvoretsk körpüsündə öldürülüb. Qətlə aidiyyəti olmaqda şübhəli bilinən 5 nəfər həbs olunub. İstintaq üzrə Nemtsovun ehtimal olunan qatili Çeçenistan DİN "Sever" batalyonu komandirinin müavini Zaur Dadayev hesab edilir. Daha əvvəl istintaq nümayəndələri Dadayevin artıq etiraf etdiyini bəyan ediblər, lakin Dadayevin özü hüquq müdafiəçilərinə müxalifətçini öldürmədiyini bildirib.

# Məktəblilərin yaz tətili günləri dəyişdi

**Azərbaycanda məktəblilərin yaz tətili günlərində dəyişiklik edilib. Təhsil Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, Nazirlər Kabinetinin 2011-ci il, 13 yanvar tarixli, 5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnanməsi"ndə məktəblilərin yaz tətili günləri 17-24 mart tarixlərində təsbit olunub.**

Bununla belə, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq, 21-22 mart tarixlərinin istirahət günlərinə düşməsi ilə əlaqədar bu il 5 günlük iş həftəsi ilə işləyən ümumtəhsil məktəblərində dərslər martın 29-da başlayacaq.

6 günlük iş həftəsi ilə işləyən ümumtəhsil məktəblərində isə dərslərə martın 26-da start veriləcək. Bununla yanaşı, Nazirlər Kabinetinin müvafiq qərarı ilə mart ayının 27-si və 29-nun yeri dəyişdirildiyinə görə, həmin məktəblərdə martın 27-si qeyri-iş, 28 və 29-u isə iş günü hesab olunur.

## Nazir: "Daxili Qoşunlar bütün qüvvə və səylərini səfərbər edəcək"

**Martın 12-də Daxili Qoşunların Baş İdarəsində bu qurumun yaranmasının 23-cü ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib. Mərasimdə daxili işlər naziri, general-polkovnik Ramil Usubov, Azərbaycan Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi, Prezident Administrasiyası rəhbərinin müavini, general-leytenant Vahid Əliyev iştirak edib.**

Ramil Usubov şəxsi heyəti salamlayaraq, əlamətdar hadisə münasibətilə onları təbrik edib, Azərbaycan prezidenti İlham Əliyevin bayram münasibətilə təbriklərini və xoş arzularını şəxsi heyətə çatdırıb. Nazir Daxili Qoşunların şəxsi heyətinin ərazi bütövlüyümüz və suverenliyimizin, dövlətçiliyimizin, milli mənafelərimizin keşiyində hər zaman ayıq-sayıq dayandığını, ölkəmizdə daxili sabitliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunmasında əsas qüvvələrdən biri olduğunu xüsusi qeyd edib. Ötən müddətdə paytaxtda keçirilmiş beynəlxalq idman yarışları və digər kütləvi tədbirlərdə Daxili Qoşunların hərbi qulluqçularının polis əməkdaşları və digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai təhlükəsizliyin təmini üzrə qarşıya qoyulmuş tapşırıqları uğurla icra etdiklərini xatırladan R. Usubov bu ilin yayında ölkəmizdə keçiriləcək 1-ci Avropa Oyunları zamanı da şəxsi heyətin öz missiyasını layiqincə yerinə yetirməsi üçün bütün qüvvə və səylərini səfərbər edəcəyinə əminliyini bildirib.

Daha sonra Daxili Qoşunların yaranmasının növbəti ildönümü münasibətilə xidmətdə fərqlənmiş bir qrup hərbi qulluqçuya dövlət təltifləri və yeni hərbi rütbələrin poqonları təqdim edilib.

## Türkiyədə donuz qripi təhlükəsi ciddiləşir- 13 nəfər!

**Türkiyənin İstanbul şəhərində inkişaf tibb laboratoriyaları bu ilin ilk üç ayında qrip şikayəti ilə müraciət edən xəstələrin 13-ündə donuz qripi aşkarlandığını açıqlayıb. Bildirilir ki, müraciət edən 164 xəstədən 13-ündə donuz qripi virusu aşkarlanıb.**

İnfeksiya xəstəlikləri və klinik mikrobiologiya mütəxəssisi Paşa Göktaş bildirib ki, ölkədə donuz qripi epidemiya halında olmasa da, getdikcə artır. O qeyd edib ki, qış və yaz aylarında donuz qripi artıb. O, vəziyyətin nəzarətdə olduğunu da vurğulayıb. Həmçinin bildirib ki, yüksək hərarət olduğu halda, mütləq həkimə müraciət etmək lazımdır.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015


Karxanada iş dayandırılmışdı


Füzuli Qasımov: “Həbsdə olanda təklif etdilər ki, müəssisənin 50 faizini onlara - yəni Ziya Məmmədova verim”



# Güllə yarasından ölən iş adamı ilə bağlı sensasion məlumatlar

## Füzuli Qasımov Ziya Məmmədovu üstələyən şərik tapandan sonra müəmmalı şəkildə ölüb; iş adamının ətrafı onun intihar xəbərini qəbul etmir; goranboylu sahibkarın bahalı maşınları, paytaxtın bir neçə yerində evi olub; pulsuzluqdan özünə qəsd versiyası ortadan qalxır

**İş adamı Füzuli Qasımovun müəmmalı ölümü çoxsaylı suallar yaradıb. Baş Prokurorluq F.Qasımovun ölümündən dərhal sonra özünüöldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlandığını bəyan edib. Amma F.Qasımovun yaxınları onun intihar etməsi iddiasını rədd edir, intihar versiyasını yaxına buraxmırlar. Bu ölümü təsadüf saymayanlar çoxdur...**

### İş adamı Bakının milyonçular məhəlləsində yaşayıb

F.Qasımovun ölümünə qədər yaşadığı Yasamal rayonu, Zahid Xəlilov küçəsi 145 ünvanındakı mənzilinə yollandıq. Bu ərazi Yasamalda milyonçuların yaşadığı məhəllə kimi tanınır. Məşhur “Tri Karona” yaşayış kompleksinin qarşısında “Lake Palace” hotelinin yanında yerləşən məhəllədə F.Qasımovu tanımayan yoxdur. Öyrəndik ki, F.Qasımov anadan olduğu Goranboy rayonunun Kürdmaşı kəndində torpağa tapşırılacaq. Mənzilində yalnız xanımlardan ibarət yaxınları vardı, onlar məsələ ilə bağlı F.Qasımovun atası Şubay Qasımova müraciət etməyimizi məsləhət bildilər. Ş.Qasımov Goranboya oğlunun dəfninə yollandığından onun fikirlərini öyrənə bilmədik...

### Füzuli Qasımovu tanıyanlar nə deyir?

F.Qasımovun ölümü ilə bağlı yayılan məlumatlarda onun depressiyada olduğu, ölümündən əvvəl yarım milyon manat pul axtardığı bildirilirdi. Qeyd olunurdu ki, F.Qasımovun silah gəzdirməyə xüsusi icazəsi olub. Özünü də həmin silahla vurub. Onu tanıyan şəxslər isə bunun əksini deyirlər.

### Yarım milyon, yoxsa 70 min manat?

“Füzuli Qasımov həyatsevər insan idi. Ölümündən 1 gün əvvəl banklara getmişdi. Ona 70 min manat pul lazım idi. Əlində 300 minlik evin sənədləri vardı. Bankları gəzmişdi, ona pul verəcəkdilər. Yəni sənədləri girov qoyub pul götürəcəkdi. Onun oğlu Londonda təhsil alır, oğluna pul göndərəcəkdi. Martın 10-da pul tapıb, göndərib də. Bu dəqiqə iş adamlarının heç birinin əlində nağd pul yoxdur. Hamının pulu dövriyyədədir, Füzulinin də pulları dövriyyədə idi. Onun 1 milyon 400 min manat alacağı vardı. Yəni Füzuli 500 min manata görə özünü vurmazdı. Boş söhbətdir” - F.Qasımovun adının çəkilməsini istəməyən tanışı bildirib.

### “Füzulinin pula görə özünü vurması düz söhbət deyil”

**Digər bir tanışı isə F.Qasımovun ölümü ilə bağlı bunları deyib:** “Füzuli Qasımov sırf iş adamı, sahibkar idi. Ürəyiaçıq, əliaçıq bir insan idi. Onun dələduzluqla, əyri işlərlə arası yox idi. Goranboydakı obyektinin yarısını əlindən almışdılar. İşinə mane olurdular, işi məhkəmələrdə idi. Obyektin qalan hissəsini də işlətməsinə imkan vermirdilər. Sənədləri də əlində idi. O, hakimiyyətdə çox böyük nüfuzu olan şəxsin yaxın qohumları ilə əlaqə yaradıb biznesinin ona aid hissəsini şərik işlətmək haqda razılıq əldə etmişdi. Ziya Məmmədov həmin şəxsin biznesinə girişməzdi. Belə bir vəziyyətdə, işlərinin düzələcəyi bir vaxtda Füzuli Qasımovun özünü öldürməsinə inanmaq çətindir. O, 2-3 il idi ki, əlaqə, güclü bir arxa axtarırdı ki, işini davam etdirsin. Tapandan sonra özünü niyə vurmalı idi? İş düzələn yerdə Füzuli özünü vurardı? Əlbəttə ki, vurmazdı! Ona pul lazım olsaydı, Bakıdakı evlərindən birini satardı, 2 ay əvvəl 140 min manata aldığı "Range Rover"i, 2014-ün son aylarında buraxılan “yeşka”nı, 5.7 motor “Lexus”u satardı. Bu adam Yasamalda, “Tri Karona” kompleksinin qarşısındakı gölün kənarında, qorunan həyətdə yaşayırdı. Oradakı mənzillərin qiyməti azı 200-300 min olar. Ötən ilin axırında Gəncədə 600 min manata bir obyektini də satmışdı. Yəni Füzulinin pula görə özünü vurması düz söhbət deyil. İşlə bağlı hansı biznesmenin problemi yoxdur? O, deyib-gülən adam idi, özünü öldürməsi ağlasığmazdır. İndi elə bir iş adamı yoxdur ki, problemin içində olmasın. Onda Bakıda iş adamı qalmaz, hamı özünü vurar. Qumarbaz deyildi, narkotikdən istifadə etmirdi. Ailəsi, 2 övladı vardı, oğlu Londonda oxuyur, qızının da 3 yaşı var. Bu adam özünü, ətrafını dolandıran adam idi. Goranboyda imkansızlara da kömək edirdi. Döyüşçü uşaqlara da əl tuturdu. O, Goranboyda döyüşmüş, erməniyə qan udduran oğullardan idi. Onun gips kombinatı da ermənidən aldığı torpaqda idi. Silahı da yox idi. Onda silah görən olmayıb".

### Füzuli Qasımovla nazirin ailə holdinqi niyə çəkişirdi?

2012-ci ilin martında F.Qasımov “Yeni Müsavat”a müraciət edərək üzləşdiyi haqsızlıqlarla bağlı yazı hazırlamağımızı xahiş etmiş, əməkdaşlarımızı Goranboya dəvət etmişdi. İstəyi bu idi ki, nəqliyyat naziri Ziya Məmmədovun ona qarşı qanunsuzluqları ictimailəşsin, məsələ ölkə rəhbərliyinin diqqətinə çatdırılsın. O dövrdə iş adamının dəvətini qəbul edib Goranboya getmişdik və “Yeni Müsavat”ın 2012-ci il aprelin 1-dəki sayında “Nəqliyyat naziri Qarabağ veteranının əmlakını əlindən alır” sərlövhəli yazı dərc etmişdik *(Təqdim etdiyimiz fotolar da həmin vaxt çəkilmişdi, lakin sırf texniki səbəblərdən çapa getməmişdi).*




Gültəkin Hacıbəylidən alınan “Gülüstan” karxanası

### “Torpaqları erməniyə vermədik, buradakı iş yerimizi Ziya Məmmədova da verməyəcəyik”

**Həmin yazını qısa ixtisarla təqdim edirik:** “Biz bu torpaqları erməniyə vermədik, buradakı iş yerimizi Ziya Məmmədova da verməyəcəyik. Bizim çörəyimizi əlimizdən alınır. Biz heç nədən qorxmuruq, çəkinmirik. Prezidentimiz İlham Əliyevə güvənirik. Biz dövlətimizdən ötəri canımızı qoymuşuq” - bu sözləri redaksiyamızla əlaqə saxlayan Qarabağ veteranı, sahibkar Füzuli Qasımov dedi.

**Bildirdi ki, Ziya Məmmədov Goranboyun Yuxarı Ağcakənd kəndindəki sahibkarların əmlakını ələ keçirmək istəyir:** “Əsas məsələ budur. Biz bu torpaqları ermənidən almışıq. İndi də Ziya Məmmədov, onun oğlu Anar Məmmədov və ətrafları bu torpaqları əlimizdən almaq istəyir. Gəlin, burada yerində başımıza gətirilən müsibətləri araşdırın”. Ötən gün Yuxarı Ağcakənddə olub yaranmış problemi araşdırdıq. Öyrəndik ki, kəndin ətrafında xeyli gips karxanaları yerləşir. 2000-ci ildə I Özəlləşdirmə Proqramı çərçivəsində Goranboy rayonunun Yuxarı Ağcakənd kəndində yerləşən gips karxanalarının bir çoxu özəlləşdirilib.

### “Biz ermənilərlə üz-üzə gələndə Ziya Məmmədovun oğlu Anar Məmmədov harda idi?”

**Özəlləşmədə F.Qasımov da iştirak edərək gips karxanalardan birini özəlləşdirib:** “Sovet vaxtı "Goranboy Gips" ASC Yuxarı Ağcakənd Gips Kombinatı adlanırdı. Kombinatın rəhbərliyi və işçilərinin 90 faizi ermənilər idi. Qarabağ müharibəsi başlayandan sonra Goranboyda könüllü özünümüdafiə batalyonu yarandı. Ermənilər kombinatı qoyub qaçdılar. Bizlər dədə-babamızdan qalan silahlarla torpaqlarımızı ermənilərdən müdafiə etdik. Həmin karxanalar düşmən sərhədinin 1 kilometrliyində yerləşir. 1995-ci ilə kimi döyüşdük. Biz olmasaydıq indi Ziya Məmmədovun bizdən almaq istədiyi torpaqlar erməninin tapdağı altında idi. Bilmək istəyirəm ki, biz ermənilərlə üz-üzə gələndə Ziya Məmmədovun oğlu Anar Məmmədov harda idi?"

### “Qurğu qurub məni həbs etdirdilər...”

**Sahibkar deyir ki, “Goranboy Gips” ASC-nin özəlləşdirilməsi 2003-cü ildə başa çatıb. ASC-nin 58,4 faiz səhm paketi ona, 32,5 faizi isə qardaşına məxsus olub. Yerdə qalan hissə isə əmək kollektivinə məxsus olub:** “Bu karxana 1992-ci ilin iyun ayında erməni işğalından azad olunan torpaqlarda yerləşir. Hazırda müəssisədə 85 nəfər işləyir. Burada işləyənlərin böyük əksəriyyəti bu torpaqların ermənilərdən azad olunmasında iştirak edən Qarabağ veteranlarıdır. 2006-cı ildə nəqliyyat naziri Ziya Məmmədovun adamları mənə ölkə rəhbərliyinin adından təzyiqlər etdilər ki, karxananı onlara verim. Vermədim. Bundan sonra qurğu qurub məni həbs etdirdilər. Həbsdə olanda təklif etdilər ki, müəssisənin 50 faizini onlara - yəni Ziya Məmmədova verim. Dedilər ki, bu bizim yazılmamış qanunumuzdur. Məcbur olub "Goranboy Gips" ASC-nin səhmlərinin 50 faizini onlara etibarnamə ilə verdim. İndi də bütün səhmlərimi əlimdən almaq istəyirlər".

### “Xanlıq-bəylik yaradıb öz işlərini qurmaq istəyənlərə qarşıyıq...”

Ziya Məmmədovun əl qoymaq istədiyi gips karxanası Goranboyun mərkəzindən 45 kilometr aralıda yerləşir. Qeyd etdiyimiz kimi, karxana ilə təmas xətti arasında 1 kilometr məsafə var. Yol boyu müharibə zamanı dağıdılmış evlər, uçuq-sökük tikililər gözə dəyir. Karxanaya gedən yol dağların arasından keçir və dağılmış vəziyyətdədir. Bizi karxanaya aparan sürücü Aşağı Ağcakənddəki yeni tikilən evləri nişan verib deyir ki, orada qaçqınlar məskunlaşıb. Yuxarı Ağcakəndin girişdəki ilk gips karxanasını göstərən sürücü “Bura da deputat xanımın idi. Gültəkin Hacıyeva 15-20 nəfərə burada çörək verirdi. Deputatlığı bitən kimi Ziya Məmmədovun adamları tutub karxananı əlindən aldılar. Adamların da çörəyi kəsildi. Karxana da o vaxtdan böyrü üstə qalıb”.

**“Goranboy Gips” ASC-nin fəaliyyətdə olduğu ərazidəki gips karxanası 2006-cı ildə iki mərhələdə Füzuli Qasımovdan alınaraq “ZQAN holdinqə” *(hazırda “Garant holding” adlanır - E.M.)* daxil olan “Azbentonit” MMC-yə verilib:** “ZQAN-ın tərkibindəki "Azbentonit" MMC-yə dövlət zəmanəti ilə 52 milyon manat kredit ayrılıb. Yarandığı gündən “Azbentonit” MMC xammal olmadığına görə fəaliyyət göstərə bilmirdi. Buradakı gips mədənlərini ələ keçirib özlərinə məxsus zavodu xammalla təmin etməyə nail olmaq istəyirlər. Digər tərəfdən də Ziya Məmmədov “Azbentonit”i yaratmaqla ölkədə gips məhsulları istehsalını monopoliyaya almaq istəyir. Onların bu planları isə bizim kimi fərdi sahibkarların sıradan çıxarılmasından keçir. Məhkəmələrə müraciət edirlər ki, guya bizlər - yəni xırda sahibkarlar torpaqlardan səmərəsiz istifadə edir. Bu adla müəssisələri əlimizdən alırlar. İndi isə zor gücünə nəyim var əlimdən almaq istəyirlər. Məndən əvvəl sabiq deputat Gültəkin Hacıyevanın buradakı “Gülüstan” MMC adlı gips mədənini əlindən aldılar. Başqa mədən sahiblərinə də təzyiqlər başlayıb"- deyə F.Qasımov bildirdi.

**Sahibkar deyir ki, Azərbaycan torpaqları uğrunda can qoyan insanların çörəyinin əlindən alınmasında Goranboyun icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev də nəqliyyat nazirinə hər cür dəstək verir:** “Başçı administrativ resurslardan istifadə edib müəssisəmizin fəaliyyətinə mane olur. Biz burada müharibə şəraitindəyik. Əmək kollektivinin əsas işçi qüvvəsi bu torpaqları ermənidən alanlardır. Biz bu torpaqları erməniyə vermədik, buradakı iş yerimizi Ziya Məmmədova da verməyəcəyik. Bizim çörəyimiz əlimizdən alınır. Biz heç nədən qorxmuruq, çəkinmirik. Prezidentimiz İlham Əliyevə güvənirik. Biz dövlətimizdən ötəri canımızı qoymuşuq. Hansısa nazir bizim çörəyimizi əlimizdən ala bilməz. Burada xanlıq-bəylik yaradıb öz işlərini qurmaq istəyənlərə qarşıyıq. Dövlətimizdən, hörmətli prezidentimizdən kömək istəyirik”.

Yada salaq ki, F.Qasımovun ölümü ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin yaydığı məlumatda 1970-ci il təvəllüdlü Füzuli Şubay oğlu Qasımovun meyitinin martın 11-də, səhər saat 11 radələrində paytaxtın Yasamal rayonu ərazisində icarəyə götürdüyü ofisdəki iş otağında aşkar edildiyi bildirilir. Qeyd olunur ki, odlu silahdan ürək nahiyəsinə açılmış bir atəş nəticəsində ölməsi ilə əlaqədar Yasamal rayon prokuroru, prokurorluğun əməkdaşları, prokuror-kriminalist, məhkəmə-tibbi ekspertin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib. Hadisə zamanı qapı içəridən bağlı vəziyyətdə olub. Şirkətin digər əməkdaşları isə iş otaqlarında olublar. Faktla bağlı Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci *(özünü öldürmə həddinə çatdırma)* maddəsi ilə cinayət işi başlanıb. İş üzrə müvafiq ekspertizalar təyin edilib, hadisənin motivləri və başvermə səbəbləri istintaq yolu ilə araşdırılır.

**Mövzuya qayıdacağıq.**

**❑ E.MƏMMƏDƏLİYEV**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015

**Martın 12-də Bakı Ağır Cinayətlər Məhkəməsində həbsdəki müsavatçı qardaşlar Fərəc və Sirac Kərimlinin məhkəməsi keçirildi. Hər iki prosesdə Müsavat başqanı Arif Hacılı başda olmaqla, partiya rəhbərliyi və fəalları iştirak edirdilər.**

# Prokuror Sirac Kərimliyə 8 il iş istədi

## Başqan müavininin məhkəməsində qalmaqal; Fərəc Kərimli: "Bütün ittihamları saxta hesab edirəm"




S.Kərimlinin məhkəməsində hakim prosesdə DİN-ə təhlükəsizlik kameraları ilə bağlı göndərdikləri sorğuya cavab gəldiyini dedi.DİN-in cavabında qeyd olunub ki, iyul ayından indiyə qədər uzun müddət keçdiyinə görə, görüntünün qalması imkansızdır.

**Daha sonra hakim ikinci sorğuya da cavab gəldiyini açıqladı:** "Növbəti sorğumuz təcili tibbi yardım maşınının S.Kərimli həbs edilərkən gəlməsi ilə bağlıdır. Sorğuya cavabda maşının gəlməsi təsdiqlənib. Təqsirləndirilən şəxs müayinə olunub. O, həbs edildiyi gün üzərinə baxış keçirilərkən özünü pis hiss edib".

Müdafiə tərəfinin vəkili Nemət Kərimli cinayət işinin başlamasına səbəb olan, əməliyyat müddətinin başlama və bitmə zamanının, eləcə də təqsirləndirilən şəxsin evində aparılan axtarış müddətinin protokoldan oxunmasını xahiş etdi. Məlum oldu ki, şahidlərin ifadələri ilə protokolda yazılanlar arasında çoxlu sayda ziddiyyətli məqamlar var. Əsas da S.Kərimlinin həbs edilməsi və evində axtarış aparılması müddəti ilə bağlı.

Ə.Quliyev məhkəmə istintaqının başa çatdığını elan etdi.

**Söz dövlət ittihamçısına verildi. O, çıxışında təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihamların sübuta yetirildiyini bildirdi.** "Hər şey düzgün və obyektiv aparıldı" deyən prokuror Sirac Kərimlinin cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə, 8 il müddətinə azadlıqdan məhrum edilməsini istədi.

Prokurorun çıxışı zalda etirazla qarşılandı.

Hakim növbəti prosesin 16 mart saat 15:30-da olacağını elan etdi. Vəkilin çıxışı və təqsirləndirilən şəxsin son sözü olacaq.

**S.Kərimlinin atası Raqif Kərimli oğluna istənilən cəza ilə bağlı musavat.com-a mövqeyini açıqladı:** "Prokuror əvvəldən hər şeyə hazır idi. Əslində işin istintaqı aparılmayıb. Ata olaraq, övladlarımın həbsi ilə bağlı Baş Prokurorluğa müraciət etmişəm. Hələ də cavab verilməyib. Kameralara baxışın gec olduğunu deyirlər. Amma Sirac həbs edildiyi günlərdə bununla bağlı müraciət etdim. Amma baxılmadı. Azərbaycan dilindən ədalət sözünü çıxarmaq lazımdır. Başqa heç nə gözləmirdim".

Vəkil Nemət Kərimli də prosesdə ciddi qanun pozuntularının olduğunu dedi.

Saat 15:00-da Müsavat başqanının müavini Fərəc Kərimlinin ilkin məhkəmə hazırlıq iclası başladı. Proses qalmaqallı keçdi. Əsas narazılıq başqan müavininə dəstək olmaq üçün gələnlərin zala buraxılmaması idi. Hakim Şəkər Məmmədova proses başlayan kimi qapının bağlanılmasını və heç kəsin zala buraxılmamasını tələb etdi. Halbuki zal boş idi. Bu, təqsirləndirilən şəxsin və müdafiə tərəfinin etirazına səbəb oldu. Vəkil Nemət Kərimli prosesdə fasilə verilməsini tələb etdi. Hakim onun üstünə qışqırdı və yerində oturmasını tələb etdi. Hakimin vəkilin üstünə qışqırması Müsavat başqanı Arif Hacılının hiddətinə səbəb oldu. O, məhkəmə heyətindən etikanı gözləməyi tələb etdi: "Nə hay-küy salmısınız? Bu ixtiyarı sizə kim verib? Məhbusun valideynləri içəri buraxılmalıdır. Bu işin siyasi olmadığını deyirsiniz. O zaman digər prosesə gələnlər nə üçün yoxlanılmadan buraxıldığı halda, bu prosesə gələnlərin zala daxil olmalarına maneçilik törədirsiniz? Vəkilin üstünə qışqıra bilməzsiniz. Qanuna əməl edin".

**Hakim A.Hacılı barəsində tədbir görüləcəyini bildirdi. Arif Hacılı çıxışına davam etdi:** "Belə məhkəmələr çox görmüşük. Siz narahat olmayın. Bacarırsınız qanunla hərəkət edin. Prosesə gələnlər bütünlüklə zala buraxılandan sonra məhkəmə başlaya bilər".

**Fərəc Kərimli məhkəmə heyətinə etiraz etdi:** "Siz elə ilk prosesdən qərəzli olduğunuzu nümayiş etdirirsiniz. Hüququmdan istifadə edərək, məhkəmə tərkibinə etiraz edirəm".





Bundan sonra hakim iştirakçıların zala buraxılması üçün fasilə elan etdi.

**Fasilə zamanı F.Kərimli ciddi qəzet problemi ilə üzləşdiklərini bildirdi:** "Digər məhbusların hər birinə həftə ərzində qəzet verilir. Yalnız mənə və qardaşıma verilmir. Həftədə bəzən bir dəfə verirlər. O da köhnə qəzetlər olur".

**5 dəqiqəlik fasilədən sonra proses davam etdi. Hakimin məhkəmə heyətinin tərkibindən razı olub-olmaması ilə bağlı F.Kərimliyə verdiyi suala o, belə cavab verdi:** "Heç nə dəyişməyəcək. Kimin hakim olmasının heç bir önəmi yoxdur. Həbsim siyasi fəaliyyətimlə əlaqədardır. Cibimdən narkotik çıxmayıb. Narkotiklərə Qarşı Mübarizə İdarəsində cibimə atdılar. Əlimi belə vurmadım. Öz əlləri ilə çıxardılar. Ekspertiza təyin edilsə, əl izlərinin kimə məxsus olduğu sübut olunacaq. Bütün ittihamları saxta hesab edirəm".

Vəkil Nemət Kərimlinin həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatətinə prokuror etiraz etdi.

10 dəqiqəlik müşavirədən sonra vəsatət təmin edilmədi. Prokuror işin məhkəmə baxışına göndərilməsi üçün kifayət qədər əsasların olduğunu bildirdi. Müşavirəyə gedən məhkəmə heyəti qayıtdıqdan sonra işin məhkəməyə göndərilməsi ilə bağlı qərar qəbul etdi.

**Növbəti proses 18 mart saat 11:00-da olacaq.**

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# "Axı pis bir şey deməmişəm..."

## Hadı Rəcəbli: "Müəllimi mənim qədər istəyən varmı?"

**Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəblinin "Trend"ə müsahibəsi ciddi rezonans doğurub. Deputatın xüsusən də "əgər bu gün müəllim 150-200 manat maaş alır və dolana bilmirsə, o, işdən sonra da başqa nə iləsə məşğul olmalıdır. Lənkəranın Veravul kəndində Balabəy müəllim adlı bir şəxs var. O, günün birinci yarısı müəllimlik edir, nahardan sonra isə gedib daş hörür, ustalıq edir. Qazandığı pulla da ailəsini saxlayır. O, bunu heç də ayıb hesab etmir. Bunun nəyi pisdir ki?" sözləri cəmiyyətin tanınmış nümayəndələri, xüsusən də müəllimlərin etirazına səbəb olub.**

***H.Rəcəbli "Yeni Müsavat"a müsahibəsində fikirlərinin yanlış anlaşıldığını və kontekstdən çıxarıldığını bildirdi. Müsahibimiz öncə Azərbaycan müəllimləri barədə fikirlərini açıqladı.***

- Mənim anam Firuzə Bəylərova əməkdar müəllimə olub. Səhər məktəbdə dərs deyərdi. Günorta dərzilik edərdi, uşaqlarına əlavə pul qazanardı. Özü də mən bütün müəllimlərə deməmişəm ki... Bir misal gətirmişəm cəmi. Qeyd etmişəm ki, bir müəllim var və o, qazandığı pulla ailəsini necə saxlayır. 4 qardaşıq, dördümüzün də arvadı müəllimədir. Yoldaşım, iki bacım, qızlarımın ikisi, gəlinlərimin ikisi müəllimədir. Özüm də professoram, dərs deyirəm İdarəçilik Akademiyasında. Bu nə söhbətdir? Müəllim, müəllim... Müəllimi mənim qədər istəyən var? Gör Milli Məclisdə müəllim haqda məndən çox danışan varmı? Müəllimlərin maaşlarının artırılması üçün gör nə qədər söz demişəm? Bu, Allahsızlıqdır. Axı mənim müsahibəm qətiyyən müəllimlərə həsr olunmayıb. Sizin bəzi həmkarlarınız bilərəkdən mənim dediklərimi kontekstdən çıxarıblar və məni müəllimlərə qarşı qoyublar. O müsahibədə mən cəmi bir cümlə ilə demişəm ki, tanıdığım bir müəllim ustalıqla məşğul olub. Mən bu fikirlərlə demək istəmişəm ki, insanlar əməkdən utanmalı deyillər, çalışmağa daha da həvəsli olmalıdırlar. Burda pis nə var axı? İndi nə istəyirsiz yazın, amma reallıq mən deyənlərdən ibarətdir.

***- Bunun sizə qarşı bir təxribat olduğunu düşünürsüz?***

- Bəli, martın 15-də olacaq yalançı mitinqlə bağlı edilmiş bir təxribatdır. Müəllimləri qıcıqlandırmaqdır. Mən bunu çox pis qiymətləndirirəm. Hadı müəllimi müəllimlərə qarşı qoymaq olmaz. Hadı müəllim təpədən-dırnağa müəllimdir. Özü də mən 15 yaşından çörək qazanıram. 15 yaşından fəhlə işləmişəm. Mən göydən düşən məmur deyiləm.

***- Maraqlıdır ki, hər dəfə bu cür qalmaqallı açıqlamalarla bağlı sizin adınız hallanır. Bunun xüsusi bir səbəbi varmı?***



**"Onlar məni tanıyırlar, illərdir bu dövlətə xidmət edirəm"**

- Mən neynim? Çünki mən bu sahə ilə məşğul olan adamam. Dövlətçiliyin mövqeyində dayanan adamam. Mən neynim axı? Niyə belə edirlər mənə qarşı? Bəlkə pis adamam? Sən denən mənə... Milli Məclisdə ən çox adam qəbul edən deputat mənəm. 70 nəfər qəbul edirəm. Milli Məclisə gələn şikayətlərin 50 faizi mənə gəlir. Mən bu kontingentlə işləyən adamam. Ola bilər ki, burda qıcıq elementləri olsun. Adamların başqa qayğıları mənim üstümə yönəlsin. Bunlar da ola bilər, mən qınamıram, neynim? Bu da mənim missiyamdır.

***- Belə baxanda siz müəllimlərin daha yaxşı yaşaması üçün işdən sonra çalışmasını təklif etmisiz və...***

- Sən də elə yaz da. Axı pis bir şey deməmişəm. Bir nəfəri misal gətirmişəm. Bir nəfərin yaxşı işini demişəm ki, sağ olsun, onun işdən sonra əməklə məşğul olmasını pis qiymətləndirmirəm. Onu götürüb belə təqdim edirlər ki, guya Hadı müəllim deyir ki, işdən sonra get fəhlə işlə. Belə şeyi yazarlar? Belə deməmişəm axı...

***- Bunu ilk olaraq yayan media orqanına təkzib məktubu yollamaq və ya məhkəməyə müraciət etməyi düşünürsüzmü?***

- Hər şeyi dedim də. Nə təkzib? Oxuyanlar biləcəklər gerçəyi. Bu gün cəmiyyəti qıcıqlandırmaq üçün mənim adımdan istifadə ediblər.

***- "Yuxarı"lardan, Prezident Administrasiyasından bu açıqlamaya görə irad bildirmədilər?***

- Yox, mənim qızım, "yuxarılar" məni tanıyırlar. Özü də "yuxarı"lar oxuyurlar axı nə yazılıb. Amma camaat oxumur axı. Bir başlığı oxuyur və bitdi. Amma "yuxarı"lar bu məlumatın içini də oxuyur. Mənə deyiləsi heç nə yoxdur axı bu vəziyyətdə. Onlar məni tanıyırlar, illərdir mən bu dövlətə xidmət edirəm. Başımı salmışam aşağı, işimlə məşğulam. Milli Məclisə şikayət ərizəsinin 70 faizi bizə gəlir. Gələnlərin 65 faizini mən qəbul edirəm. 11 komitə var, elə deyilmi? Camaatla üzbəüzdə qalan mənəm. İndi bu şeylər də mənə yönəlir də, mən neynim?

❑ **Sevinc TELMANQIZI**



# Gələcək Avropa ordusunun ürəyi - Türkiyə əsgəri...

Ankaranın təklifi reallaşsa, hamı uduşda olacaq; qardaş ölkənin regionda və dünyada çəkisi artacaq; vahid ordunun həmtəsisçisinə çevrilmək Qarabağ məsələsində, saxta soyqırım iddialarının unudulmasında, Rusiya təhlükəsinin cilovlanmasında da mühüm rol oynayar, Azərbaycanın Qərbə inteqrasiyası sürətlənər...

**Rusiyanın Ukraynada apardığı hibrid müharibə Qərbi sanksiyalar siyasətini sərtləşdirmək zorunda qoyub. Lakin hələ ki rəsmi Moskva "Yaxın xaric" ölkələrinə qarşı aqressiv davranışlarını azaltmağa meylli görünmür. Əksinə, hətta Baltikyanı NATO ölkələrini belə, ara-sıra hədələyir, onların hava məkanını vaxtaşırı nümayişkaranə şəkildə pozmaqla Avropaya, Qərbə "əzələ nümayiş" etdirir.**

Bu və bənzər səbəblərdən həmsərhəd Avropa ölkələrində mümkün Rusiya müdaxiləsi barədə son zamanlar tez-tez danışırlar; belə bir təhlükənin vaxtında önlənməsi üçün NATO ilə yanaşı, başqa çevik mexanizmlər axtarılmaqdadır.

Həmin mexanizmlərdən biri də Vahid Avropa Ordusunun (VAO) qurulması ola bilər. Bu ideyanı Avropa Birliyinin (AB) aparıcı ölkəsi olan Almaniyanın kansleri Angela Merkel, ölkənin müdafiə və xarici işlər nazirləri, habelə Avropa Komissiyasının sədri Yan-Klod Yunker ciddi dəstəkləyirlər. Ehtimal edilir ki, AB-nin öz silahlı qüvvələrinin olması Rusiyaya Avropanın öz dəyərlərini daha ciddi qorumaq əzmində olduğunu nümayiş etdirərdi.

Qeyd edək ki, vahid Avropa ordusu ideyası Rusiya Krımı ilhaq eləməmişdən xeyli öncə də mövcud olub. O vaxt qardaş Türkiyə belə bir ordunun qurulmasında əsas rolu oynamağa hazır olduğunu bəyan eləmişdi. Lakin o zaman ideya yalnız ideya olaraq qaldı. İndi isə situasiya başqadır - Avropada yeni "soyuq", hətta qaynar müharibə yelləri əsir.

***

Bu arada Türkiyənin AB ilə əlaqələr naziri Volkan Bozkır Avropaya ilginc təklifdə bulunub. Nazir deyib ki, Türkiyə Avropa Birliyinə daxil olarsa, birliyi 60 minlik ordu ilə təmin etməyə hazırdır. Onun sözlərinə görə, Avropa Birliyi indiyədək öz ordusuna malik olmadığı üçün yumşaq güc qismində özünü göstərməli olub.

Türkiyəli nazir haqlıdır. Çünki istənilən güclü siyasətin arxasında güclü ordu faktoru dayanır. Bu şərt diktə edir ki, Avropa ABŞ kimi real qlobal güc mərkəzi olmaq istəyirsə, hətta Amerikanın özündən, onun öz üzərindəki gizli hegemonluğundan qurtulmaq arzusundadırsa, o halda mütləq vahid valyuta (avro) kimi vahid silahlı qüvvələrə də malik olmalıdır.

Lakin NATO-nun mövcudluğu VAO ideyasına ölçülü-biçili yanaşmanı zəruri edir - o anlamda ki, yeni hərbi qurum bu alyansla paralellik təşkil eləməsin. Təsadüfi deyil ki, NATO baş katibi Yens Stoltenberq VAO ilə bağlı təklifləri şərh edərkən bildirib ki, vahid ordu NATO-nu əvəzləməməlidir. **"Mən Avropanı ona səsləyirəm ki, nə edəcəklərsə-etsinlər, təki bu, bizim alyans daxilində etdiklərimizi tamamlamağa xidmət eləsin, əvəzləməyə yox"** - deyib baş katib.

Yəqin ki, belə də olacaq - VAO NATO-ya alternativ olmayacaq. Əslində on illər ərzində xeyli dərəcədə strukturlaşmış və təkcə AB üzvlərindən ibarət olmayan *(məsələn, NATO üzvləri olan Türkiyə və ABŞ Avropa Birliyinin üzvü deyillər)* NATO qat-qat güclü hərbi alyansdır.

Türkiyənin təklifi isə VAO ideyasına real nəfəs verəcək bir təklifdir. Unutmaq lazım deyil ki, Türkiyə regionun ən güclü, dünyanın 4-cü ordusuna malikdir. Onun xüsusilə də quru *(piyada)* və çevik qüvvələrini, türk əsgərinin şücaəti, döyüş göstəriciləri və təcrübəsini Qərb hərbi analitikləri həmişə yüksək qiymətləndiriblər. Belə bir dövlətin Avropa ordusunun həmtəsisçisi olması şübhəsiz, yeni quruma yalnız başucalığı gətirər, onun döyüş və müdafiə qabiliyyətini, Rusiyaya qarşı çəkindirici əhəmiyyətini birə-beş artırardı.

Yeri gəlmişkən, nazir Bozkırın təklifi Qərbin, ABŞ-ın Türkiyəni Rusiyadan uzaqlaşdırmaq planlarına da uyğun gəlir. Çünki Türkiyə AB-nin tamhüquqlu üzvü və VAO-nun yaradıcılarından biri olandan sonra istər-istəməz Kremlə qarşı ortaq qərarlara dəstək verməli olacaq ki, bu da Moskvanı sanksiyalara qarşı daha həssas edəcək.

Türkiyənin və Azərbaycanın götürə biləcəyi başqa ciddi mənfəətlər də var. Məsələn, qardaş ölkənin Avropa ordusunun özəyini təşkil eləməsi Qarabağ məsələsinin həllinə, uydurma erməni soyqırımı iddialarının kəsərsiz hala gətirilməsinə çox mühüm təsir göstərə bilər. Bölgədə Ankaranın rolunu və çəkisini birə-iki artırar. Eyni zamanda konflikt zonalarında sülhməramlı əməliyyatlarda Türkiyənin legitim köməyini təmin etmiş olar.

AB isə ən böyük uduşda olardı. Həm də o səbəbə ki, o halda Azərbaycanın Avropaya inteqrasiyası da xeyli sürətlənərdi. Çünki Türkiyə harda, Azərbaycan da orda. Əslində zamanında Türkiyənin AB-yə üzvlüyünə süni əngəllər, erməni kartı ilə bəhanələr yaradılmasaydı, bəlkə indi Ukrayna ətrafında vəziyyət də belə dramatik xarakter almazdı. Çünki qlobal siyasi güc mərkəzlərindən biri kimi Avropanın Rusiyaya təsiri qat-qat böyük olardı.

**Şərin yarısından qayıtmaq da xeyirdir deyirlər.**

❑ **Siyasət şöbəsi**



# Türkiyədə jandarm DİN-ə tabe olacaq

**Əhalinin təhlükəsizliyini təmin etməyə yönələn və Türkiyə parlamenti tərəfindən qəbul edilən islahatlar paketinin bəzi müddəalarına əsasən, jandarm daxili qoşunların tabeliyindən çıxarılır. Bu barədə "Trend" "Hürriyet" qəzetinə istinadən xəbər verir.**

Qəbul edilmiş islahatlar paketinə əsasən, Türkiyə jandarmı Daxili İşlər Nazirliyinə tabe olacaq.

Türkiyə prezidenti ratifikasiya etdikdən sonra islahatlar paketinin müddəaları qüvvəyə minəcək.

# Cəhənnəm yolçuları...



**Hüseynbala SƏLİMOV**

**Astanada toplaşan üç Avrasiya İttifaqı lideri Ermənistan liderini öz toplantılarına dəvət etməyi lazım bilmədilər. Güman edirik bu haqda erməni cəmiyyəti düşünsə bunun yalnız faydası ola bilər...**

Ermənistanın bu ittifaqa qəbulu da aşağılayıcı atmosferdə keçmişdi. Nədən belə olur? Rusiya Ermənistanı ciddi dövlət kimi qəbul etmir, ondan o dərəcədə "arxayın"dır ki, hətta məsələlərə münasibətini öyrənməyi lüzum bilmir...

Burada yadıma maraqlı bir detal düşür. Bəli, bütün dünyada Abxaziya və Cənubi Osetiya az qala Gürcüstanın "bacarmadığı" bir "ölkələr" kimi təqdim olunur. Amma V.Putin bu bölgələrin liderlərini hətta ayrılıqda qəbul etməyi belə vacib saymır, onları birlikdə qəbul edir...

Belə getsə Ermənistan da bu hala, bu duruma gələcək. Ölkə hətta Avrasiya İttifaqı üçün maraqlı görünmür, çünki nə istehsal gücü var, nə də ki, istehlak... Belə ölkə kimin nəyinə lazımdır?

Amma Ermənistan bu vəziyyətdən çıxa bilərdi. Bunun yolunu Azərbaycan dəfələrlə ona göstərib. Amma Ermənistan eşitmir. Ermənistan təbii ki, bölgədə Rusiyanın, ruslar özləri dediyi kimi, "peşka"sıdır. Fəqət, həmişə düşünmüşük bu ölkə təkcə Rusiyanın maraqlarının passiv ifadəçisi deyil-bunlar da həqiqətən də türklərə qarşı böyük nifrət var, bunlar həqiqətən də özlərinin bu vaxta qədər yaratdıqları miflərin kor əsirinə çevriliblər...

Onların bu nifrəti hətta bu oyunlara təkan verən M.Qorbaçovu da təəccübləndirmişdi. Zəlzələyə görə Ermənistana baş çəkən Qorbaçov heyrətlə deyirdi ki, bu, nə deməkdir, dağıntılar arasından güclə xilas edilənlər belə bir şey soruşur: Qarabağı Ermənistana verdilərmi?

Həmişə belə hesab etmişik bu millətin etno-psixologiyası yerində deyil. Düzdür, hətta böyük psixoloqlar, o cümlədən də elə Z.Freyd və E.Fromm psixoloji patalogiyaların cəmiyyətlərə şamil olunmasının çətinliklərini qeyd ediblər, di gəl, onlar da etiraf edirdilər ki, cəmiyyətlər də sağlam olmaya bilər...

Biz bunun bariz nümunəsini Ermənistan cəmiyyətinin timsalında görürük. İndi qondarma erməni genosidinin guya ki, 100 illiyini bəhanə edib bir məzhəkə qurmaq istəyirlər. Səhv etmiriksə, bu qondarma tarix də aprel ayına təsadüf edir. Baxarıq, görək, nə olur?..

Bu Avrasiya adlı maskaradda bir məsələ də var. Ermənistan dilənçidir, daim nəsə istəyir. Avrasiya İttifaqının isə ona verməyə bir şeyi yoxdur...

Bu da məsələnin daha bir acı tərəfidir. Elə V.Putinin özünün də intellektual və mənəvi göstəriciləri az şübhə doğurmur...

Bu adam başa düşə bilmir ki, tarix iki dəfə təkrar olur. Bir dəfə komediya, bir dəfə də faciə kimi.

Onun buna əmin olmaq imkanı olacaq. Bu adamdan soruşmaq lazımdır; nə verdi sənə bu Avrasiya İttifaqı? Nə verdi sənə Krım? Ölkə azacıq dirçəlmişdi və insanlar mənəvi-sosial böhrandan çıxmaq ərəfəsində idilər. Amma nə oldu? Ən əsası isə bunların bir xeyri oldumu?

Bəlkə də B.Nemtsov elə həqiqətən də ekstremistlər tərəfindən qətlə yetirilib. Amma bunun səbəbi nə idi? Axı, o, dini ekstremistlərin hədəfinə çevrilmək üçün deyəsən ciddi bir şey etməmişdi?

O, həqiqətən də ekstremistlər tərəfindən öldürülə bilər - bircə anlığa bunu da qəbul edə bilərik...

Amma müxalifətin böyük mitinqi təxirə salındı. Bu da faktdır. İndi Rusiyada hamı qorxur. Bu da faktdır...

Nədən qorxurlar? B.Nemtsovun taleyini yaşamaqdan qorxurlar. Mənim ekstremistlərə həmişə şübhəm olub - bir çox hallarda bu adamlar təhlükəsizlik xidmətləri ilə əlaqədə olurlar...

Nemtsovu öldürmək qafqazlılara qalmışdımı? Bilmirik indi Netmtsovun qətli ilə bağlı deyilənlər həqiqətdir, ya yalan, amma onu bilirik ki, burada həm də bir qorxunc qafqazlı obrazı da yaradılır...

Ermənistandan Rusiyaya keçdik. Səbəb? Yadıma bir neçə il bundan əvvəl Ermənistan parlamentində törədilmiş terror aktı düşdü. Fikirləşirəm ki, bəlkə də Ermənistanda da az da olsa bu vəziyyətdən bezənlər var. Amma onlar bunu açıq ifadə edə bilmirlər. Qorxurlar...

Elə bu səbəbdən də baxıb görürsən ki, ssenari eyni ssenaridir. Ermənistanda çoxdan qorxurdular. Rusiyada qorxu hissi bir müddət idi ki, çəkilmişdi. Gəl, o insanların ürəklərinə yenidən hakim kəsildi...

Qərəz, Rusiya məchul bir istiqamətə üz tutub- "buksir"ində də hətta dövlət hesab etmədiyi Ermənistanı da dartır. Niyə? Bəlkə də ona görə ki, cəhənnəmə gedənlər özlərinə yoldaş axtarır...

# “Ağılsız adam gedib bankdan pul götürər, maşın alar...”

## Hacı Qalib Salahzadə: “Məkkədə hotel var ki, bir balaca otağında qalmaq 25 min dollaradır”

**Xəbər verildiyi kimi, bu il müqəddəs torpaqlara getmək istəyənlər 4700-5750 dollar civarında xərc çəkməli olacaqlar. Bu da qonşu ölkələrlə müqayisədə xeyli bahadır. Bildirildiyinə görə, manatın 33 faiz dəyərdən düşməsi Azərbaycandan Həcc ziyarətinə getmək istəyən 3 minə yaxın zəvvarı da çətin durumla üz-üzə qoyub.**

Belə ki, VİP xidmətlərlə Həcc ziyarəti 5750, adi xidmətlərlə isə 4700 dollar olacaq. Azərbaycanda ötən il zəvvarlar nisbətən şəraiti zəif və gündə iki dəfə yemək verilən hotellərdə qalmaq şərtilə 3250 manat (4 min dollardan bir qədər artıq-E.P.) nisbətən daha yaxşı şəraitli və yeməklər təklif olunan paket üçün isə 4100 manat (5200 dollar) ödəyirdilər. Müqayisə üçün xatırladaq ki, müqəddəs ünvana bizdən uzaq olan rusiyalı zəvvarlara Məkkədə Ramazanın 10 günü və + Mədinədə üç bayram günü qalmaq 3900 dollara başa gəlir. Rusiyada ekonom tipli ziyarət təklifləri var ki, bu da 3750 dollardır.

Mövzu ilə bağlı Milli Məclisin üzvü, deputat Hacı Qalib Salahzadə (Şeyxin qudası) ilə söhbətləşdik.

***- Hacı, Həcc ziyarətinin qiymətlərinin artmasını siz necə qarşıladınız?***

- Mən də qiymətlərə baxdım, 500-550 dollar arasında artıb. Bu da onunla əlaqədardır ki, Məkkədə hotellər bahalaşıb. Ancaq bu bahalaşma cüzidir, elə də ciddi problem deyil.

***- Məlumata görə, qiymət artımına manatın ucuzlaşması təkan verib...***

- Yox, ona görə deyil. Məkkədə böyük abadlıq işləri gedir axı. Bahalaşma da bununla əlaqədardır.

***- Amma bir qayda olaraq Azərbaycanda Həcc ziyarətinin qiymətinin yüksək olmasından narazılıq ifadə olunur. Digər ölkələrlə müqayisədə...***

- Yox, Azərbaycanda qiymətlər baha deyil. Ona görə ki, mən Həcc ziyarətində görmüşəm. Demək olar ki, Azərbaycan ən ucuz ölkələrdən biridir. Mən 26 dəfə Həcc ziyarətində olmuşam, bilirəm də nə var, nə yox.

***- Neçə yaşından başlamısınız ziyarətə?***



**“500-dən yuxarı adamı şəxsi pulumla Həccə göndərmişəm”**

- 90-cı ildən Həccə gedirəm. İndi sayın da , hər il Həcc ziyarətində olmuşam.

***- Deməli, bu il də gedəcəksiniz?***

- Allahın qisməti olsa, əlbəttə gedəcəyəm.

***- Həccə davamlı şəkildə getməyiniz nə ilə bağlıdır, hər il gedəcəyinizlə bağlı niyyətmi eləmisiniz?***

- Əslində Həccə bir dəfə getdinsə, qurtardı. Ancaq mən hətta Kəbə evinin içərisində də olmuşam, Kəbənin yuyulmasında iştirak etmişəm. Bu, 2010-cu ilin 21 dekabrında olub.

***- Allah qəbul eləsin. Amma hər halda, hər ziyarətə böyük pullar xərclənib. Üstəlik də 26 ziyarət...Yoxsa Şeyx bir quda kimi sizə hər dəfə güzəştlər edib?***

- Yox. Mən elə adam deyiləm ki, kimsə mənə güzəşt eləsin. Həmişə Həcc ziyarətinə gedəndə birinci Azərbaycan xalqı üçün dua edirəm, ikinci də Allahımdan istəyirəm ki, qismət elə, gələn Həcc ziyarətində yenə gəlim, Kəbə evində iki rükət namaz qılım. Allah da bunu qəbul edir. Yoxsa Həcc ziyarəti elədir ki, birinin xəstəsi olar, başqasının vacib işi olar, yaxud kiminsə yaxını rəhmətə gedər və ziyarətə gedə bilməz. Mən çox adam görmüşəm ki, pullarını da verib, hazırlaşıb ki, “Həccə gedirik”, ancaq gedən ərəfədə başına bir iş gəlib, yaxud ailəsində problem olub. Hətta onu da görmüşəm ki, avtobusdan enib ki, “evdə nəsə olub, ziyarətə getmirəm”. Bunu Allah belə istəyir. Allahdan başqa kim məni Allahın evinə buraxa bilər? Heç bir pulla Kəbə evinin içərisinə girmək olmaz. Hətta milyardları olan adamlar da Kəbə evinə girə bilməz.

***- Bəzən iddialar eşidilir ki, Həcc ziyarətindəki bahalaşma həm də Şeyxin iradəsi ilə baş verir. Bu, belədir?***

- Yox. Qohumum olduğuna görə tərifləmirəm, Şeyx elə adamdır ki, ömrü boyu xalqa yardım edib.

***- Şeyx müdaxilə edib qiymətləri endirə bilərmi?***

- Yox. Qiymətlərin qalxması Şeyxə aid deyil. Bu, heç respublikamıza, manat, dollar fərqinə də aid deyil. Hətta bizdəki qiymət digər dövlətlərdən aşağıdır. Məkkədə hotel var ki, bir balaca otağında qalmaq 25 min dollaradır.

***- Heç orada qalmısınız?***

- Yox. Mən o otağa getsəm, onda camaatdan ayrılmış olardım, heç vaxt elə yerlərə getmərəm. İmkanın olub-olmadığından danışmıram. Mən hər zaman gedən camaatla bir yerdə olmuşam, həmişə Allahdan istəmişəm ki, camaat necə, mən də elə. Onlar nə yeyib-içib, mən də onlarla bir yerdə olmuşam.

***- Siz Həccə gedəndə yəqin VİP xidmətlərindən istifadə edirsiniz.***

- Yox, camaat, el-oba necə gedir, mən də elə. Mən həmişə camaatın içərisində olmuşam. Əvvəllər 4-5 dəfə avtobusda getmişəm. Hər dəfə Ərəfatda olmuşam. Ərəfata getməsən Həcc sayılmır axı. Gedim mən Kəbəni fırlanım, gəlim, bu, sayılmır. Həcc bir dəfə olur, müsəlmanın boynundadır ki, getsin. Ancaq bundan sonra mən 100 dəfə getsəm, bu, müstəhəbdir.

***- Bildiyimə görə, Həccə getmək istəyən, amma imkanı olmayan insanların ziyarətə getməsinə yardım etməyin, yaxud imkansızlara əl tutmaq savabı daha çoxdur, nəinki davamlı şəkildə Həccə getmək. Elə deyilmi?***

- Mən 500-dən yuxarı adamı şəxsi pulumla Həccə göndərmişəm. Həcc ziyarəti elədir ki, həmin adamı Allah çağırır. Kiməsə yaxşılıq etmək, əl tutmaq insanın öz əməlidir. Mən əlimdən gələni, bacardığımı etmişəm. İmkanım daxilində çalışıram ki, ən azı heç kəsi narazı salmayım.

***- Məlumata görə, ölkənin 5 milyon vətəndaşının banklara üst-üstə 7 milyard borcu var. Üstəlik də Həcc qiymətlərinin yüksək olması əksər adamların arzusunu ürəyində qoymayacaq ki?***

- Birincisi, bankdan pul götürən adamların 99,99 faizi gedib iş görüblər, pul qazanıblar. Ağılsız adam gedib bankdan pul götürər, maşın alar. Get “Mercedes” alma, “KİA” al. Qaldı ki, bank faizlərinə, dövlət neyləsin, şərait yaradıb ki, gedin iş görün. Ancaq iş görmək əvəzinə gedib bankdan pul götürüb özü üçün xərcləyib. Şərait yaradılıb, get müəssisə yarat, şadlıq sarayı, xəstəxana, məktəb tik. Yoxsa götürüb xərcləyir, sonra da dövləti günahlandırır.

***- Yeri gəlmişkən, sizin banka borcunuz varmı?***

- Ömrüm boyu heç bankın qapısını da tanımamışam. Yalandan nə deyim, mənim kredit götürməyə ehtiyacım olmayıb. Ümumiyyətlə, mən öz gücümə dair işlə məşğul olmuşam, nə olsun adamın dost-tanışı var.

***- Bu gün 150-200 manat maaş alan müəllim və həkimlər var, yəqin ki, onların da ürəyindən Həcc ziyarətinə getmək keçir. Bu cür aztəminatlı insanlara məsləhətiniz nədir?***

- Mən vaxtilə müəllimləri də Həccə göndərmişəm. Atam müəllim olub, həmişə müəllimlərə hörmət bəsləmişəm. Müəllim kəlməsinə də hörmətim olub. Kimliyindən asılı olmayaraq, yəni imkanlı-imkansız, pullu-kasıb olmasından asılı olmayaraq Allahın razılığı olmasa, heç kəs Həccə gedə bilməz. Gərək Allah özü dəvət eləsin. Allahın qisməti varsa, yanıma gələn adama deyərəm, hə, gəl get Həccə.

***- Hacı, belə çıxır ki, Şeyxdən sonra Həccə daha çox getmiş azərbaycanlı sizsiniz?***

- Mən bilmirəm neçənci yerdəyəm. Ancaq bir onu bilirəm ki, istədiyin vaxt Həccə gedib-gəlmək olar. Lakin Həcc ziyarəti vaxtı əgər Ərəfatda olmasan, hacı sayılmırsan...

❑ **Elşad PAŞASOY**

# 38 milyon mənimsəyən məhbus bankirin oğlu niyə azadlığa buraxılıb?

## “Texnikabank” ASC-nin Bakı filialının sabiq müdirinin övladı İslam Yusifov məntəqə tipli cəzaçəkmə müəssisəsinə köçürülüb; Ali Məhkəmə rəsmisi bu qərardan danışdı

**“Texnikabank” ASC-nin Bakı filialının sabiq müdiri Zal Yusifovun oğlu azadlığa buraxılıb. İslam Yusifov vaxtından əvvəl azadlığa buraxılması ilə bağlı bir müddət əvvəl Xəzər Rayon Məhkəməsinə müraciət edib. Axar.az yazır ki, onun cəzasının çəkilməmiş qalan hissəsini çəkmək üçün məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsinə dair ərizəsinə Xəzər Rayon Məhkəməsində baxılıb və qərar qəbul edilib. Onun ərizəsi təmin edilməyib.**

Qərardan narazı qalan İ.Yusifov apelyasiya şikayəti verib. O, şikayətində göstərib ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2010-cu il tarixli hökmü ilə 8 il müddətinə azadlıqdan məhrum edilib. O, cəzasının 5 ilini çəkdiyini, qalan hissəsini isə məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkilməsi barədə qərar qəbul edilməsini istəyib.

İ.Yusifov atasının başçılıq etdiyi 15 nəfərlik dəstədə mühakimə olunub. İstintaq sənədlərinə görə, “Texnikabank”ın Bakı filialının sabiq rəhbəri Zal Yusifov digər şəxslərlə birlikdə cinayət əməli törədib. O, 81 müştərinin banka qoyduğu təxminən 38 milyon manat pulu mənimsəyib. Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin hökmü ilə Zal Yusifov əmlakı müsadirə olunmaqla, 15 il müddətinə azadlıqdan məhrum edilib.

Bu iş üzrə zərərçəkmişlərə dəymiş ziyan ödənilməyib. Baş




prokuror Zakir Qaralovun da göstərişi var ki, dələduzluq işlərində zərərçəkmişlərə dəymiş ziyan ödənilmədiyi halda təqsirləndirilən şəxs və ya məhkum vaxtından əvvəl azadlığa buraxıla bilməz.

Həmçinin baş prokuror qərarında qeyd edib ki, dələduzluq cinayətlərində təqsirli bilinənlərin amnistiyaya və əfv fərmanına düşməsi də mümkünsüzdür. Ali Məhkəmənin sədri Ramiz Rizayev də kollegiya iclaslarında bildirib ki, dələduzluq işlərində məhkum olunan şəxslərin şərti cəza ilə və ya vaxtından əvvəl azadlığa buraxılmasına qanun yol vermir.

**Ali Məhkəmənin mətbuat xidmətinin rəhbəri Allahverdi Məmmədli bildirib ki, dələduzluq cinayətləri ilə məhkum olunan şəxslərin zərərçəkmişlərə dəymiş ziyanın ödənilmədiyi halda azadlığa buraxılması qanunsuzdur:** “İslam Yusifovla bağlı qərar qəbul edilməsini necə əsaslandırıblar, bu mənə məlum deyil. Amma yenə də zərərçəkmişlərə dəymiş ziyan ödənilmədiyi halda onun azadlığa buraxılması üçün ərizəsinin təmin olunması üçün əsas yoxdur.

Həmin işlə tanış olmaq lazımdır. Bəlkə həmin şəxs öhdəlik götürüb ki, zərərçəkmişlərə dəymiş ziyanın ödənilməsi üçün mülklərini satacaq və zərərçəkmişlərin ziyanını ödəyəcək. O, bununla bağlı da öhdəlik götürə bilər “.

**Hüquqşünas Müzəffər Baxış “Yeni Müsavat”a bildirdi ki, Cəzaların İcrası Məcəlləsinin 70.2.2 maddəsinə görə, ilk dəfə ağır cinayət törətmiş məhkumun ümumi cəzaçəkmə müəssisəsindən məntəqə tipliyə köçürülməsi mümkündür:** “Əgər məhkum cəzasının 3/2 hissəsini çəkibsə, ona bunu tətbiq etmək olar. Bu maddədə kimlərin ümumi cəzaçəkmə müəssisəsindən məntəqə tipli müəssisəyə keçirilməsi olmaz, o da tövsif olunub. Belə ki, ömürlük məhkumlar, residivistlər, ciddi rejimli cəzaçəkmə müəssisəsindən ümumi cəzaçəkmə müəssisəsinə köçürülənlər məntəqə tipli həbsxanada saxlana bilməz. İslam Yusifov 8 il azadlıqdan məhrum edilib. Bu cəzanın 5 ilini çəkib və Bakı Apelyasiya Məhkəməsi də bu qərarı çıxarıb”.

❑ **E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015

# Rəsul Cəfərovun məhkəməsi Novruzdan sonraya qaldı

## Proses bir şahidin ifadəsinin alınmaması səbəbilə təxirə salındı; hüquq müdafiəçisi AŞ PA-nın nümayəndəsi ilə görüşüb



**Martın 12-də Bakı Ağır Cinayətlər Məhkəməsində İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun məhkəmə prosesi davam etdirildi. Eldar İsmayılovun sədrliyi ilə keçən prosesdə ittiham tərəfinin təqdim etdiyi şahidlər ifadə verdilər.**

Proses başlamamışdan öncə Rəsul Cəfərov martın 3-də AŞ PA-nın nümayəndəsi ilə görüşü barədə media nümayəndələrinə məlumat verdi: "Martın 3-də AŞ PA-nın nümayəndəsi təcridxanaya gəlmişdi. Mənimlə görüşdü. Səhhətim, saxlanma şəraitimlə maraqlandı. Heç bir problemin olmadığını bildirdim. Əsas söhbətimiz mənə qarşı irəli sürülən ittihamlarla bağlı oldu. İttihamların qanunsuz olduğunu bildirdim. Bu barədə ciddi araşdırma aparılmasının vacibliyindən danışdım. Onu da qeyd etdim ki, son dövrlərdə həbs edilən əksər insanlara ağır maddələr irəli sürülüb. AŞ PA-nın nümayəndəsi araşdırma aparılacağına söz verdi".

**Məhkəmədə ilk olaraq, "Caz" klubunun rəhbəri Ələsgərov Rüfət ifadə verdi:** "Rəsul Cəfərovu tanımıram. İstintaqda şahid kimi ifadə vermişəm. Bir tədbir barədə razılığımız olub. Mən olmayanda danışıqları administrator aparır. O, mənə dedi ki, bizdən tədbir keçirmək üçün yer istəyirlər. Xarici qonaqların olacağını da dedi. Mən razılaşdım. Çünki bu tipli tədbirlər bizdə çox keçirilib. Aramızda müqavilə bağlanmayıb. Amma yer haqqı olaraq, 2500 manat pul almışam. İstintaqda mənə qəbz təqdim olundu. Administratorun imzası var. Əminəm ki, bizə ödəniləcək məbləğ eyni olub. Artıq məbləğ olmayıb".



Şahidin ifadəsindən sonra ardıcıllıqla ona suallar verildi. Məhkəmədəki ifadəsi və suallara cavabları onun istintaqdakı ifadəsi ilə eynilik təşkil etdi.

**Ardınca növbəti şahid Cavid Qurbanov dindirildi:** "Rəsul bəyi yaxından tanıyıram. 5 ildən çoxdur dostluğumuz var. İstintaqda verdiyim ifadələri təsdiq edirəm. Onunla seçki ilə bağlı layihə çərçivəsində əməkdaşlığımız olub. 2013-cü ilin yay aylarında layihəni hazırlamışıq. 1720 manat almışam. Aramızda müqavilə imzalanıb. Aldığım pulun qəbzi var. Başqa heç bir layihəsində iştirak etməmişəm. Hansı təşkilatın adından layihənin hazırlandığını xatırlamıram".

**Şahidin ifadəsinin bu yerində ziddiyyətli məqam ortaya çıxdı. Onun istintaqdakı ifadəsi elan olundu. Məlum oldu ki, istintaqda C.Qurbanov işlədikləri layihənin hansı təşkilatın adına olduğunu açıqlayıb. Bu "Könüllülərin Beynəlxalq Əməkdaşlığı" İctimai Birliyidir. Şahid yaranan ziddiyyətə belə aydınlıq gətirdi:** "İfadəmin üstündən neçə ay keçib. Xatırlamaya bilərəm. İnsan Haqları Klubu qeydiyyatdan keçmədiyinə görə layihə "Könüllülərin Beynəlxalq Əməkdaşlığı" İctimai Birliyinin adına idi".

Digər şahid Əzizov Pərvizin ifadəsi dinlənildi: "Rəsul Cəfərovu iş yoldaşım İsmayılın vasitəsilə tanımışam. Bir layihədə tərcüməçi qismində 6 ay işləmişəm. Xidmət haqqı olaraq, iki dəfə- 734 və 732 manat məbləğində pul almışam. İngilis dilindən tərcüməçi idim. Müqavilə üzrə pulumu almışam".

Şahidə suallar verildi. İstintaqdakı ifadəsi ilə heç bir ziddiyyət ortaya çıxmadı.

Hakim yalnız bir şahidin-Rəşad Şirinovun ifadəsinin qaldığını bildirdi. Şahidin ölkədə olmadığını proses iştirakçılarının diqqətinə çatdırdı. R.Şirinovun yaşadığı ünvanın müəyyən olunub bildiriş göndəriləcəyini qeyd etdi. Eldar İsmayılov şahidin məhkəməyə gəlişinin mümkünsüz olacağı təqdirdə, istintaqdakı ifadəsinin elan olunacağını söylədi. Bunun əsasında dindirmə başa çatacaq.

Bir şahidin ifadəsinin alınmaması səbəbindən proses martın 30-na təyin edildi.

**Məhkəmədən sonra vəkil Fariz Namazlı jurnalistlərin suallarını cavablandırdı:** "İttiham tərəfinin təqdim etdiyi şahidlər təsdiq etdilər ki, verilən qəbzlər doğrudur. Göstərilən məbləğləri aldıqlarını təsdiqlədilər. Heç bir problemin olmadığını söylədilər. Yeganə bir şahid qalıb. O da Rəşad Şirinovdur. Hazırda o şahid ölkədə olmadığına görə və məhkəmə məlumatsız olduğundan proses təxirə salındı. Rəsul Cəfərovun hələlik heç bir şikayəti yoxdur. Ekspertlərin və əlavə şahidlərin dindirilməsi ilə bağlı hazırlıq iclasında vəsatətlərimiz olub. Hələ də baxılmamış saxlanılıb. Səhhəti, saxlanma şəraiti ilə bağlı heç bir şikayəti yoxdur".

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**

# Sabirabadda intihar edən şəhid qardaşının həyat hekayəsi...

## "Özünü öldürməsinə səbəb qüruru oldu"










**Cəbrayıl Həsənovun atası:** "Ölümündən bir gün qabaq dedim ki, oğlum, sabah saat 11-də gedib krediti verəcəm, darıxma. Amma yenə də özünə bunu dərd edib"

**Martın 6-da axşam saatlarında Sabirabadda dəhşətli intihar hadisəsi baş verib. 39 yaşlı Sabirabad sakini Cəbrayıl Həsənov rayonun Surra kəndində, Kür çayının üstündəki körpüdə özünü asıb. Hadisə haqqında ilkin məlumatlarda deyilirdi ki, intiharın səbəbi C.Həsənovun banklara ödəməli olduğu kredit borcları olub. Mərhumun üzərinə baxış zamanı ailə üzvlərinə ünvanladığı məktub tapılıb. C.Həsənov məktubunda maddi imkansızlıqdan atasına layiqli övlad ola bilmədiyi üçün əzab çəkdiyini, banklara olan borcunu ödəyə bilmədiyindən çıxış yolunu intihar etməkdə gördüyünü yazıb.**

Məsələni daha dəqiq araşdırmaq üçün Sabirabad rayonuna yollandıq. Mərhumun atası Sərəstan Həsənov, anası və digər ailə üzvləri ilə görüşdük.

Ailə təbii ki, çox ağrılı bir halda idi. Sərəstan Həsənovun 3 oğlu, 1 qızı olub. Bir oğlu 1997-ci ildə Füzuli rayonunda şəhid olub. İkinci oğlunun isə 39 yaşda intihar etməsi xəstə atanı daha da yıxmışdı.

**S.Həsənovla hadisə haqqında danışdıq. Mərhumun atasının sözlərinə görə, oğlunun banklara olan borcunun böyük hissəsi ödənilib:** "Qalan borc 475 manatdır. Onun da aylıq vaxtı çatanda ödənilir. Oğlumun bank borclarına görə intihar etməsi yalandır. Bu hadisə haqqında məndən icazəsiz xəbər yazıblar. Məndən soruşmamış yazı yazıblar. Məsələ tam başqadır. Oğlumun banklara çox da borcu olmayıb. Bu zamana kimi bir neçə bankdan mənim, yoldaşımın, özünün adına kiçik miqdarda kredit götürüb. Amma onların böyük hissəsini ödəmişik. Geridə qalan isə kiçik bir miqdardır. Cəmisi 475 manat. Onu da vaxtı çatanda ödəyəcəyik. Hətta özünə ölümündən bir gün qabaq dedim ki, oğlum, sabah saat 11-də gedib krediti verəcəm, darıxma. Amma yenə də özünə bunu dərd edib".

**"İndi övladları da atasız qaldı"**

**S.Həsənov deyir ki, oğlu son 1 ay ərzində özünə qapanmış halda olub:** "Məsələ burasındadır ki, son bir ay ərzində özünə qapanmışdı. Heç kimə sirrini, dərdini danışan deyildi. Ümumiyyətlə, istəməzdi ki, onun problemini kimsə bilsin. Hər sözünü özündə saxlayırdı. Taksi sürücüsü işləyirdi. Rayonda hamı onu tanıyır. Bir nəfər oğlumun haqqında pis söz deməz. Çünki mən yaxşı oğul böyütmüşəm. O da özü kimi tərbiyəli 3 övlad böyüdüb. Böyük oğlu 9 aydır ki, əsgərdir. Digər oğlu 11-ci sinifdə oxuyur. Qızının isə 12 yaşı var. Övladlarını hədsiz sevirdi. İndi övladları da atasız qaldı. Danışmadı... Dərdini desəydi, çarə olardım. O mənim oğlumdur. Borcları problem etdiyini desəydi, qoyunlardan satıb, borcunu verərdim. Maşını satardıq, verərdik. Nə böyük borcdur ki, ona görə canına qıyasan. Bəlkə də düşünüb ki, xəstə atam mənə maddi kömək edir. Amma mən ona yardım etməliyəm".

**İntihardan qabaq gedib ətrafdakı qohumlara baş çəkib...**

**Cəbrayıl Həsənovun anasının sözlərinə görə, mərhum uzun zamandır işsizmiş:** "Əsgərlikdə olan oğlu üçün çox darıxırdı. Tez-tez yanına gedirdi. Banklardan götürdüyü pulları oğluna, övladlarına, bizə xərcləyirdi. İçkiyə, sağa-sola xərcləməyib. Pul götürüb, gedirdi oğlunun yanına. Tez-tez deyirdi ki, ana, oğlum üçün darıxmışam, telefonda səsi pis gəldi, deyəsən, xəstələnib. Yanına getmək istəyirəm. Hər dəfə xərc çəkib, Goranboya oğlunun yanına gedirdi. Mən özüm şəkər xəstəsiyəm. Yoldaşım da ağır xəstədir. Bizim dava-dərmanımızı alırdı. İndi bildik ki, aptekə də borclu qalıbmış. Çalışırdı ki, ailəsi nədənsə korluq çəkməsin. Amma bacarmırdı. İşsizlikdən bezmişdi. Rayonda çox adam kimi, o da işsiz idi. Taksi sürməklə qazancı çox az olurdu. O da maşının təmirinə gedirdi. Hər yerə gedirdi ki, iş tapsın. Amma alınmırdı. İntihardan qabaq gedib ətrafdakı qohumlara baş çəkib. Hamısı ilə görüşüb. Kim haradan bilərdi ki, intihar etməyə gedir".

**"Heç kim mənim ölümümdə günahkar deyil"**

**Mərhumun qonşusu Həsənov haqqında deyir ki, ailəsini istədiyi kimi təmin edə bilməməsi ona pis təsir edirmiş:** "Övladlarını, valideynlərini çox sevən idi. Çox qürurlu idi. Qüruruna sığışdıra bilmirdi ki, kimsə onun problemi haqqında bilsin. Çətinliyindən xəbər tutsun. Kimsə ağız açıb pul istəməzdi. Ailəsini normal saxlamaq üçün əlindən gələni edirdi. Hər şey də ona görə olub. İmkansızlıq, işsizlik, qazancın az olması ona pis təsir edirdi. Xəcalət çəkirdi ki, götürdüyü kreditləri atası, anası ödəyir. İntihar etmədən öncə də balaca bir məktub yazıb. Məktubda yazıb: "Banka olan borcumu imkansızlıqdan ödəyə bilmirəm. Heç kim mənim ölümümdə günahkar deyil. Polisə deyin heç kəsi incitməsin. Atam və anam məni bağışlasın. Onlara layiq övlad ola bilmədim. Mənə yas saxlamayın". Bundan da əlavə halallıq olsun deyə sadəcə özünün bildiyi kiçik borclarını da yazıb. 100 manat aptekə, 50 manat da başqa birinə olan borcunu qeyd edib. Qardaşına da vəsiyyət edib ki, övladlarından muğayat olsun. Həmişə istəyirdi ki, o, kimsə köməklik eləsin. Kimsə ona yox. Gün-gündən borcu artırdı. Yəqin kreditləri atasının, anasının ödəməsi ona dərd olub. Əslində onun ölümünə səbəb borclar deyil, qürurudur. İş tapa bilmirdi. Maddi imkansızlıq ona imkan vermirdi ki, ailəsini istədiyi kimi saxlasın. Bu da ona pis təsir edirdi. Əgər dərdini kimləsə bölüşsəydi, bəlkə də belə olmayacaqdı. Çünki çıxılmaz bir problemi yox idi".

❑ **Məhəmməd TÜRKMƏN,**
**Sabirabad**



# Gizli bahalaşma təşkilatı - GBT

Zamin HACI
zaminhaci@gmail.com

**Fransanın ölkəmizdəki səfirliyi bir neçə fransız dili müəllimini seçib, uşaqlara yaxşı dərs keçdiklərinə görə onlara Fransanın Akademik Palma (Kavaler dərəcəsi) ordenini vermişdir.**

Mən yapistlərin yerinə olsam məzə üçün o müəllimləri tutub Kürdəxanıya salardım. Necə ki, bundan qabaq Fransanın yüksək orden verdiyi hüquq müdafiəçisi Leyla Yunusu həmin zindana salıblar. Nəticədə fransızlara, camaatımıza dərs olar. Bəs necə, bu xarabada orden-medal vermək hüququ ancaq hökumətimizdə olmalıdır. Sən dur qıraqdan gəl, hökumətin başı üstündən medal ver... Bunlar hamısı bizim daxili işlərimizə qarışmaqdır, təxribatdır, dövlətçiliyə ziddir, canım sənə desin, süni qiymət artımıdır.

Hələ sən medalın adına bax: Akademik Palma. Bununla firənglər işarət edirlər ki, sizin akademiklərinizi palma ağacında hoppanıb düşən meymun sayırıq. Verirsən çinar ordeni ver, qoz ağacı medalı düzəlt, cəhənnəmə, fındıq nişanı elə. Yoxsa palma... Bunlar da hamısı ekstremizm, fırıldaq, gizli qiymət artımı, Elman Rüstəmovun saçlarını yolmaq cəhdidir!

Elman demişkən, Elman Türkoğluna bir xoruz alıb verib təzədən Fransa səfirliyini hoydu-hoyduya götürməyin məqamıdır. Çoxdandır səfirlik yumurta sarısına bülənd olmur, hədlərini aşıblar. Yığışdırın özünüzü, Balıq Hafiz demişkən! *(Görün nə koloritli tipajlarımız var, hər abzasa minimum üçünü basmaq olur, Parisdə bunlar yoxdur)*.

Fransanın inqilab eləməkdən özgə yolu qalmır, biz isə qayıdaq "öz qoyunlarımızın yanına".

Yuxarıda işlətdiyim "süni qiymət artımı", "gizli bahalaşma" ifadələri son günlər hökumətin dilindən düşmür. Bir az gülməli səslənir, necə yəni gizli qiymət artımı, lap hər şey açıqdır, bahalaşma gözə girir. Ancaq bu süni qiymət məsələsində mən hökumətlə tam razıyam. Çünki bəzi zəhmətkeşlərimiz doğrudan da Çindən süni qiymətlər alıb gətirirlər, halbuki öz ölkəmizdə, həmçinin xaricdə təbii qiymət artımları yetişdirilir. Camaata genetik modifikasiya olunmuş (GMO) qiymətlər təklif edilir. Ən yaxşısı öz təbii qiymətlərimizdir, qurban olum vətənimin təbii qiymətlərinə! *(Bahalaşmadan sonra müəllifin başı bir az xarab olub, fikir verməyin - baş red.)*

Hökumətyosunlu "İrəli" gənclər hərəkatı hazırda İsmayıllı rayonunda gənc jurnalistlərə "Əkinçi" adlı proyekt çərçivəsində dərs keçir. Kursu uğurla bitirən yazarları Basqal yolunun qırağında əkəcəklər. Bundan başqa, hotel yandırmağın üsulları, nazirin qardaşı oğlunu söyməyin metodikası, əhaliyə bibər qazı və başqa qazlar buraxıb boğmağın pedaqogikası öyrədiləcəkdir. Dedim xəbəriniz olsun, yoxsa gizli bahalaşma kimi bu da gizli qalar.

Məncə, bu gizli bahalaşma ilə dövlət səviyyəsində mübarizə tədbirlərini təkcə İqtisadiyyat Nazirliyinin belinə şələmək olmaz. Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzi də prosesə cəlb edilməlidir. Yoxsa gedirsən bazara, görürsən dünən 1 manat 10 qəpiyə satılan kartof indi 1 manat 20 qəpikdir. Bunu mütləq gizli casuslar, mason təşkilatları, kosmosdan gələnlər edir.

Hələ sən "Banaqua"nı de! 20 qəpiklik su 25 qəpik olmuşdur! Amerikanın "Koka Kola" şirkəti gəlib Xırdalanda, Tağıyevin çəkdiyi su kəmərinin üstündə zavod qurur, öz suyumuzu bizə satır, üstəlik, əvvəlkindən 5 qəpik baha satır. Nə olub, "Bonaqua"nın bulağı quruyub? Ya suya vurulan qızıl-gümüş tərkibi bahalanıb? Bu gizli bahalaşmanı edən Obamadır. MTN problemi araşdırsa bəlkə son bahalaşmanı siyasi məhbus Əli İnsanovun törətdiyi aşkar ediləcəkdir.

Bu bahalaşmada, valyutamızın çezməsində yapistlərdən başqa hər kəs günahkardır. Gizli və süni şəkildə günahkarıq, ancaq hökumət bizi ifşa eləyir.

# Tərtərdə həbs edilənlərin ailələrindən şok açıqlamalar - təfərrüat

Akif Nağı və Fazil Mustafanın təşkilatlarının Suriyaya adam göndərməkdə ittiham olunan üzvlərinə və saxlanan digərlərinə 2 aylıq həbs-qətimkan tədbiri seçildi; Vüqar Əliyev və Zülfüqar İbrahimovun yaxınları "Yeni Müsavat"a danışdı, Sərdar Həmidovun oğlu ittihamlara cavab verdi...

**"Bir sıra kütləvi informasiya vasitələri tərəfindən Milli Təhlükəsizlik Nazirliyinin Tərtər rayonunda əməliyyat keçirməsi barədə yayılan məlumatlar səhvdir". Bunu APA-nın sorğusuna cavab olaraq, MTN-in İctimai Əlaqələr İdarəsinin rəhbəri Arif Babayev deyib. Onun sözlərinə görə, əməliyyat-axtarış tədbirləri ilə əlaqədar Daxili İşlər Nazirliyinə müraciət etmək lazımdır.**

Bildirək ki, Azərbaycan vətəndaşlarını Suriyada gedən döyüşlərə cəlb edən şəxslər tutulub. Dəstənin 4 üzvü - əvvəllər məhkum olunmuş Zülfüqar İbrahimov, Mübariz Mirzəliyev, Şəmsəddin Abdullazadə və Vüqar Əliyev saxlanılıblar.

### Akif Nağı: "Kimsə onlardan intiqam almaq istəyir"

Rəsmi məlumatda adı keçən Zülfüqar İbrahimov və Vüqar Əliyev Qarabağ Azadlıq Təşkilatının (QAT) üzvləridir. QAT sədri Akif Nağı həbslərin qanunsuzluğu ilə əlaqədar baş prokurora və daxili işlər nazirinə müraciət edib. A.Nağı müraciətində bildirib ki, təşkilat üzvlərinin təqsirinin olduğuna inanmır. Son gedişatla bağlı "Yeni Müsavat"a danışan A.Nağı qeyd etdi ki, onun müraciətinə hələ ki cavab verilməyib. Onu da bildirdi ki, saxlanılanlar Tərtərdən Bakıya gətirilib və Nərimanov Rayon Məhkəməsi onların barəsində 2 aylıq həbs-qətimkan tədbiri seçib.

**Təşkilat rəhbərinin sözlərinə görə, onlar Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində (BMCMİ) saxlanılır:** "İki vəkillə müqavilə bağlanıb. Vəkillərə onlarla görüşə şərait yaradılmayıb. İşgəncələr Əleyhinə Komitə sədri Elçin Behbudova da müraciət etmişik. Elçin müəllim onlarla görüşəcəyini söylədi".

**A.Nağı V.Əliyevin dinə bağlı olmadığını, Z.İbrahimovun isə namaz qılan olduğunu açıqladı:** "Vüqar Avropa dəyərlərinə yaxın idi, dünyəvi dəyərlərlə yaşayırdı, xarici layihələrdə işləmişdi. Əslən tərtərli idi və öz yurduna köçmüşdü. Zülfüqar isə namaz qılandı, amma heç bir sektaya, radikal təriqətə bağlı olmayıb. Əhli-sünnə idi, ticarətlə məşğul olurdu. Mən heç kəsi ittiham etmək istəmirəm. Ancaq onlar günahsızdı. Güman edirəm ki, bəlkə hansısa məmurun onlarla problemi olub, biznes maraqları toqquşub. Ona görə də şərləmək istəyiblər. Bu versiya hələ ki bizim üçün qüvvədə qalır. Kimsə onlardan intiqam almaq istəyir".

### Vüqarın qardaşı: "Nə baş verdiyi aydın deyil"

**Vüqar Əliyevin qardaşı Anar Əliyev də həbslə bağlı danışarkən irəli sürülən ittihamları böhtan adlandırdı. Onun sözlərinə görə, həbsdən üç gün keçməsinə baxmayaraq, nə baş verdiyi onlara aydın deyil:** "Biz müəyyən edə bilmirik ki, onun həbsində məqsəd nədir.

İrəli sürülən ittihamların hamısı şər-böhtandır. Vüqar, ümumiyyətlə, dini kontingentə yaxın olmayıb. Kiçik bir biznesi olub. Rayonda hər hansı məmurla ziddiyyəti, şəxsli konflikti də yox idi. Ümid edirik ki, qarşıdakı dövrdə bu həbsin mahiyyəti aydınlaşacaq".

**A.Əliyev bildirdi ki, Vüqar Milli Şurada olub, Ümid Partiyasında sədr müavini işləyib, müxtəlif qeyri-hökumət təşkilatlarında çalışıb:** "Akif Nağının təşkilatının üzvüdür. Son zamanlar Bakının sıxıntılı olması, şəhərin küyünə görə səhhətində problemlər var idi, rayona gəlmişdi. Vüqar günahsız yerə tutulub".



### Zülfüqarın bacısı: "Sərdar Həmidovun oğlu qardaşımı şərləyirdi, axırda..."

**Z.İbrahimovun bacısı Yeganə İbrahimova isə bildirdi ki, qardaşının həbsi üçün çoxdan hazırlıq gedib. Onun dediyinə görə, Tərtər Özünümüdafiə Taborunun komandiri olmuş Sərdar Həmidovun oğlu Şəhriyarın rəhbəri olduğu "Etatist" qəzetində və saytında (etatist.com) Zülfüqar əleyhinə yazılar dərc olunub:**

"Yazırdılar ki, qardaşın vəhhabiləri təşkilatlandırır, Suriyaya adam göndərir, axırda şərləyib həbs etdilər. Biz o yazılar çap olunanda əhəmiyyət vermədik. Fikirləşdik ki, məhkəməyə verməyə ehtiyac yoxdur. Amma indi görürəm ki, başısoyuqluq etmişik. Zülfüqar Sərdar həbsdə olanda yanına gedib. Oğlu o qədər şər-böhtan yazdı ki, həbs olundu. Evə bir avtomat, iki patron qoyublar, guya silahlı birləşmə ifşa edilib. Zülfüqar tikinti materialları satışı ilə məşğul olurdu. Onların da gözü götürmədi. Hətta bir qadın tapıblar, ona pul təklif olunub. Qadının oğlu hər yerdə yayır ki, mən İŞİD agentiyəm. O qadının oğluna ərizə yazdırıblar ki, Zülfüqar Suriyaya adam aparıb. İndi həmin qadın gizlədilir".

**Y.İbrahimova hesab edir ki, həmin saytda gedən yazılarda Suriya prezidenti Bəşər Əsədin, Tərtərin icra başçısı Müstəqim Məmmədovun və Zülfüqarın fotoları birgə çap olunub:** "Ola bilsin ki, bu da icra başçısının xoşuna gəlməyib. Zülfüqar Suriyaya gedənlərə nifrət edirdi. Rayonda heç bir məmurla konflikti yox idi. Vüqarın isə heç dinlə əlaqəsi yox idi. Qardaşım yenə namaz qılan idi. Vüqarın bacısı Zülfüqarla evlənib, sonra ayrılıblar.

Uşağa görə gediş-gəliş olub. Amma Zülfüqarla Vüqarın əlaqəsi yoxdur. Heç bir-birinin telefonunda nömrələri də çıxmayıb. O biri tutulanları heç tanımırlar. Zülfüqar Böyük Qurtuluş Partiyasının yerli təşkilat rəhbəri idi. Onun Suriya ilə nə əlaqəsi olacaq?"

### Sərdar Həmidovun oğlu: "Sual budur ki, Suriyaya Tərtərin gəncləri niyə gedirdi?"

"Etatist" qəzetinin baş redaktoru Şəhriyar Məcidzadə qəzetimizə açıqlamasında ona ünvanlanan ittihamları rədd etdi. Ş.Məcidzadə qeyd etdi ki, Tərtərdə radikal qruplaşmaların fəaliyyətinə dair araşdırma 2 ay bundan əvvəl yazılıb. Onun dediyinə görə, bu yazılarda heç kim konkret olaraq ittiham edilməyib, ad çəkilməyib.

**Baş redaktor bildirdi ki, istənilən problemin ictimailəşməsi hüquq-mühafizə orqanları tərəfindən araşdırılır:** "Kimisə həbs etmək, etdirmək səlahiyyətim yoxdur. Əgər böhtan olsa bunun məsuliyyətini mən daşımalı idim. Zülfüqar İbrahimovun evinə silahı yazı ilə mən atmışam? Hamı kimi mən də video ilə yayılan silahları televiziyadan öyrəndim. Kimsə hüquqdan kənar fəaliyyət göstərdiyi üçün həbs edilibsə, bunun günahı məndədir?"

**Ş.Məcidzadənin sözlərinə görə, 2 ay bundan əvvəl onu yalan yazmaqda ittiham ediblər, ailəsinə və özünə qarşı şantaja keçiblər:** "Nəticə göz qabağındadır. Bu gün Azərbaycan dövlətinin hüquq-mühafizə orqanları ortaya nəticə qoydu. Demək, 2 ay bundan əvvəl başlanan kampaniya əsassız idi. İki ay sonra da Zülfüqar İbrahimovun bacısının ittihamları əsassız çıxanda heç də təəccüblənmərəm. Sual budur ki, Suriyaya Tərtərin gəncləri niyə gedirdi? Kim şərait yaradırdı, kim göz yumurdu, kim heç nə olmamış kimi kənarda vəzifədə otururdu?"

***

Xatırladaq ki, DİN və Baş Prokurorluğun bu barədə birgə açıqlaması yayılıb. Açıqlamada deyilir ki, Zülfüqar İbrahimov, Mübariz Mirzəliyev, Şəmsəddin Abdullazadə və Vüqar Əliyev Tərtər ərazisində ayrı-ayrı vətəndaşların ölkə hüdudlarından kənarda qeyri-qanuni fəaliyyət göstərən silahlı birləşmələrin sıralarına qoşulmasını təşkil edən, dini dözümsüzlük və bölücülük təbliğatını aparan ekstremist yönümlü şəxslərdən ibarət mütəşəkkil cinayətkar dəstə yaratmaqda ittiham olunurlar.

Həbs olunanların yaşadıqları mənzillərə baxış zamanı ümumilikdə 2 ədəd sandıqçası ilə birlikdə 1 avtomat, 800 qram partlayıcı maddə, alışdırıcıları ilə birgə 9 əl qumbarası, 170 ədəd patron, yayılması qanunla qadağan olunmuş xeyli sayda dini ədəbiyyat, disklər və digər maddi sübutlar götürüldüyü bildirilir.

❑ **Emil SALAMOĞLU**

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015



# "Azərbaycanda yazısına görə təqib edilən jurnalist yoxdur"

**"Biz Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkil etdiyi tədbirlər vasitəsilə ildə bir neçə dəfə jurnalistlərlə görüş keçiririk".**

APA-nın verdiyi məlumata görə, bunu martın 12-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 2015-ci il Novruz Bayramı münasibətilə təşkil etdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin açıqlanması ilə bağlı keçirilən mərasimdə Azərbaycan prezidentinin köməkçisi, Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənov deyib.

**Əli Həsənov bildirib ki, ictimai müzakirələr məhz qanunların müzakirəsinə mətbuat, siyasi partiya və ictimai təşkilatların nümayəndələrini dəvət etməklə, icra qurumları yanında ictimai qurumlar yaratmaqla və belə tədbirlər təşkil etməklə mümkün olur:** "Biz belə tədbirlərdə medianın vəziyyəti, yaradıcılıq və digər sahələrdəki problemləri, medianın təşəbbüslərini müzakirə edirik. Azərbaycanda azad media mühiti, azad internet var. Hər bir jurnalist senzuraya məruz qalmadan materiallar, məlumatlar toplayır və ictimai müzakirəyə çıxarır. Yazısına görə təqib edilən jurnalist yoxdur. Təəssüf ki, müəyyən maraqlardan çıxış edən bəzi beynəlxalq təşkilatlar azad media mühitinin olmaması və digər bəhanələrlə müxtəlif beynəlxalq mətbuat orqanlarında çıxış edirlər. Bunlar hamısı uydurmadır. Azərbaycandakı plüralizm mühiti dünyanın heç bir ölkəsindən geri qalmır. Biz bu sahədə tək postsovet yox, aparıcı Qərb ölkələrinin media mühiti ilə yarışmağa hazırıq".

**Ə.Həsənov qeyd edib ki, dövlət başçısı İlham Əliyev dəfələrlə bəyan edib ki, hər kəs istənilən məmur haqqında yaza, fəaliyyətini təhlil edə bilər:** "Bizim istəyimiz bu informasiya fəaliyyətinin şəffaf olması ilə bağlıdır. Hər bir jurnalist həm də bir millətin, dövlətin nümayəndəsidir. Ona görə də prezident dəfələrlə bəyan edib ki, media təmsilçilərindən həm də vətənpərvərlik nümunəsi gözləyirik. Jurnalistlərdən gözlədiyimiz vətənpərvərlik, qərəzsizlik və şəffaf fəaliyyətdir".

**Bakı Şəhər İcra Hakimiyyəti Milli Şuranın bahalaşma əleyhinə martın 15-nə təyin etdiyi mitinqlə bağlı müraciətə müsbət cavab verib. BŞİH mitinqin 15 mart saat 15.00-17.00 arası "İnşaatçılar" metro stansiyasının yaxınlığındakı "Məhsul" stadionunda keçirilməsinə razılıq verildiyinə dair təşkilatçılara rəsmi məktub göndərib. Mitinqə razılıq verilməsi ilə bağlı AXCP sədri Əli Kərimli də facebook səhifəsində məlumat paylaşıb və xalqı aksiyada iştiraka çağırıb.**

# Milli Şuranın mitinqinə icazə verildi - müəmmanın sonu

## Aksiya ilə bağlı iki gün müəmmalı proses müşahidə olundu; BŞBPİ-nin rəis müavini təşkilatçılara xəbərdarlıq etdi

Qeyd edək ki, Milli Şuranın 15 mart mitinqi ilə bağlı son iki gündə ard-arda müəmmalı xəbərlər yayılıb. Martın 11-də facebookda mitinqə icazə verilmədiyi barədə məlumat və BŞİH-in şöbə müdiri Zaur Ramazanovun adından gəldiyi iddia edilən məktub yerləşdirilib. Mitinq komitəsi isə dərhal xəbəri təkzib edib və Zaur Ramazanovun belə bir məktubunun olmadığı ortaya çıxıb.

Martın 12-də isə günün birinci yarısı növbəti müəmma baş verib. Belə ki, Milli Şuranın sədri Cəmil Həsənlinin adından onun facebook səhifəsində belə bir məlumat yerləşdirilib ki, guya Bakı Şəhər İcra Hakimiyyəti 15 mart mitinqinə razılıq verməyib və aksiyanın 22 marta keçirilməsini tövsiyə edib, Milli Şura da aksiyanın vaxtını martın 22-nə dəyişib.

Cəmil Həsənli dərhal açıqlama verib ki, onun adından yayılan məlumat yalandır. Belə ki, onun facebook səhifəsinə müdaxilə olunub, bu saxta məlumat orada yerləşdirilib. Bundan başqa, onun səhifəsindən həm 15 mart mitinqinə, həm də bundan əvvəl yaradılan dəvətlərin hamısı silinib.

**Əli Kərimli qeyd edib ki, bu, hökumətin yeni təxribatıdır:** "15 mart mitinqinə çağırış eventinin əvvəlcə vaxtını dəyişdilər, sonra isə eventi ləğv etdilər".

**O, bu hərəkəti müxalifətə qarşı təxribat adlandırıb, deyib ki, 15 mart mitinqinin kütləvi alınmasından qorxuya düşüblər:** "Belə yalan məlumatlarla çaşqınlıq yaratmaq istəyirlər ki, mitinqə çox adam gəlməsin. İndi əmin oldunuzmu ki, hökumət xalqın hamılıqla hüquqlarını tələb etməsindən qorxur. Onları güclü edən bizim indiyə qədərki biganəliyimiz, özünə inamsızlığımız olub.15 mart hakimiyyəti məyus etmək, hüquqlarımızı uca səslə tələb etmək üçün bir fürsətdir".



**BŞİH-in rəsmi razılığının açıqlanmasından sonra Bakı Şəhər Baş Polis İdarəsi Milli Şuranın martın 15-də keçirəcəyi mitinqlə bağlı xəbərdarlıq edib. İdarənin rəis müavini, polis general-mayoru Səhlab Bağırov APA-ya açıqlamasında da bildirib ki, Milli Şuranın Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinqində hər hansı təxribatın baş verməsinə imkan verilməyəcək:** "Biz mitinqin təşkilatçılarını Bakı Şəhər Baş Polis İdarəsinə dəvət edəcəyik. Onlara bu barədə xəbərdarlıq ediləcək. Mitinqdə aksiyanın keçirilməsi üçün Bakı Şəhər İcra Hakimiyyətinə ünvanlanan müraciətdə qeyd olunan şüarlardan başqa şüarların səslənməsinə, həmçinin iğtişaşa və qarşıdurmaya səbəb ola biləcək hər hansı addımın atılmasına imkan verilməyəcək. Əks təqdirdə, mitinqin təşkilatçıları və günahkarlar qanun çərçivəsində cavab verəcəklər".

MŞ isə xalqı mitinqə çağırıb və çağırışda bəyan edilib ki, qurum aksiyanın qanunlara uyğun keçirilməsində maraqlıdır. Mitinqə Milli Şuranın üzvü olmayan partiyalardan heç biri partiya olaraq qatılmaq barədə qərar verməyib. Müsavat Partiyası bir neçə gün öncə məsələni müzakirə edib. MŞ-nin 15 marta təyin etdiyi mitinqdə müsavatçıların iştirakı məsələsinin sərbəst buraxılması haqda qərar qəbul edilib. Bir sıra müsavatçılar artıq elan ediblər ki, fərdi qaydada mitinqə qatılacaqlar. ADP və digər müxalif partiyalar da üzvlərinə mitinqdə iştirak məsələsində sərbəstlik verib.

❑ **Etibar SEYİDAĞA**

# Müdafiə Nazirliyi "Bakı-2015"-lə bağlı Ermənistana xəbərdarlıq etdi

**Bakıda keçiriləcək I Avropa Oyunları ərəfəsində cəbhə xəttində Ermənistan tərəfindən təxribat əməllərinə yol veriləcəyi, bölgədə vəziyyətin gərginləşməsinə cəhdlər göstəriləcəyi istisna edilmir.**

Belə bir bəyanatla "Trend"ə açıqlamasında Müdafiə Nazirliyi mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı çıxış edib.

Nazirliyin sözçüsü qeyd edib ki, bu təcrübə cəbhə xəttində dəfələrlə müşahidə edilib: "Ermənistan silahlı qüvvələrinin bölmələri istər özlərinin guya soyqırıma məruz qaldığı günlərin "ildönümləri"ndə, istər bizim üçün əlamətdar olan günlərdə həm işğal olunmuş ərazilərdə, həm də Azərbaycanla sərhəddə dəfələrlə cəbhə xəttində təxribat aktları törətməyə cəhd edib və hər dəfə də layiqli cavabını alaraq geri oturdulub. Müdafiə Nazirliyi bəyan edir ki, cəbhədə düşmənlə üz-üzə dayanan Azərbaycan Silahlı Qüvvələrinin bölmələri ətrafda cərəyan edən hadisələrdən asılı olmayaraq hər zaman ayıq-sayıqdır və onlara layiqli cavab verməyə hazırdır. Avropa Oyunları zamanı cəbhədə bütün təxribatlara görə Ermənistanın hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyacaq. Əgər belə bir hal olarsa, tərəfimizdən görüləcək cavab tədbirləri sərt və qətiyyətli olacaq!"




**Qeyd edək ki, Azərbaycanın paytaxtı Bakıda I Avropa Oyunları 12-28 iyun tarixlərində keçiriləcək.**

# Müxalifət birgə mitinqlərə niyə üstünlük vermir?



**Azər RƏŞİDOĞLU**

**Milli Şura 15 martda "talana son" şüarı ilə mitinq keçirəcək. Müsavat və bir sıra partiyalar bu aksiyaya qatılmayacaq. Göründüyü kimi, ölkədəki qiymət artımı da müxalifəti birgə aksiyalara vadar edə bilmədi. Əslində birgə aksiyanın da gözlənilən nəticə verə biləcəyinə araşdırmaçılar skeptik yanaşırdılar. Acı reallıq bundan ibarətdir ki, onsuz da müxalifətin birləşib-birləşməməsi Azərbaycanda şəraiti köklü şəkildə dəyişməyə qadir deyil. Çünki hakimiyyətin islahatlar həyata keçirmək iradəsi olmadığından öz opponentlərinə azad rəqabətə imkan vermək niyyətində deyil və aksiyalar yolu ilə iqtidarı buna vadar etmək də imkansız görünür.**

Araşdırmaçılar əmindirlər ki, yalnız fors-major bir hadisə ölkədə şəraiti dəyişə bilər.

Bunu yaxşı anlayan müxalifət də etiraz aksiyalarına hazırlaşmaqdan çox, fors-major şəraitinin yetişməsini gözləyir. Belə olan halda isə müxalifətə birləşməkdən çox, özlərini cəmiyyətə ayrı-ayrılıqda təqdim etmək daha münasib görünür.

Digər tərəfdən, müxalifət anlayır ki, xalqın aksiyalarda geniş iştirak etməsi imkansızdır. Bu ilk növbədə xalqın fəallığının aşağı olması ilə bağlıdır. İnsanlar gündəlik çörək savaşına aludə olublar və onları siyasət az maraqlandırır.

Ən əsası isə insanlar inanmırlar ki, müxalifətin birləşmiş aksiyası indiki mərhələdə hansısa effekt doğura bilər.

Bu baxımdan, indiki aksiyalar hakimiyyətin mövqeyinə təsir etmək gücündə olmayan aksiyalardır. Bunun həm obyektiv, həm də köməkçi subyektiv səbəbi var.

Vətəndaşlar aksiyaların real nəticə verəcəyinə inanmır. Ona görə də insanlar nəticəsi olmayacaq aksiyalarda iştirak etməyə meylli deyillər. İnsanları mövcud situasiyanı müxalifətin təşkil etdiyi kütləvi aksiyalarda iştirakla dəyişməyin mümkünlüyünə inandırmaq lazım gəlir. Onlar düşünürlər ki, aksiyalarda iştirak edib həyatını təhlükə altına qoymaqdansa kənarda müşahidəçi qalmaq və şəxsi problemləri ilə məşğul olmaq daha məqbuldur. Göründüyü kimi, cəmiyyət özünü hakimiyyətin zor aparatının qarşısında gücsüz hesab edir. Buna görə insanlar özlərini zərbə qarşısında qoymaq istəmir.

Daha bir səbəb aksiyaların təşkili və informasiya təminatının yetərincə olmamasıdır. Protest elektoratının aksiyalara cəlb olunması istiqamətində aparılan təşkilatçılıq işinin səviyyəsi çox aşağıdır. Bu həm də partiyaların təşkilatı strukturlarının vəziyyəti və informasiya mənbələrinə çıxışı ilə bağlıdır.

Azərbaycanda kütləvi aksiyaların keçirilməsi tarixinə nəzər salsaq, müxalifətin informasiya vasitələrinə çıxışının məhdudlaşdırıldığı illərdə razılaşdırılmamış kütləvi aksiyalar keçirmək mümkün olurdu.

Ən başlıcası isə ondan ibarətdir ki, aksiyalar mövsümi xarakter kəsb edir. Belə köhnə metodlarla yüz minləri meydanlara yığmaq imkansız görünür.

Digər tərəfdən, unutmaq olmaz ki, bu il ölkədə parlament seçkiləri keçiriləcək. Müxalifət seçkilərə hazırlaşmaq və protest elektoratını mobilizə edə bilmək üçün kütləvi aksiyalara önəm verməlidir. Odur ki, müxalifətin mitinq arzusunu iqtidarın təhqirlərlə qarşılaması absurddur.

Düzdür, burada daha incə bir məqam da mövcuddur. Ölkədə ciddi dəyişikliklərə nail olmaq üçün kütləvi aksiyalarla yanaşı digər tədbirlər də həyata keçirilməlidir. Əks təqdirdə, aksiyalar ciddi nəticə verməyə bilər.

Kənar baxışdan görünən odur ki, fors-major baş verməzsə, 2015-ci ilə qədər ölkədə ciddi dəyişikliklərin baş verəcəyinə, yaxud keyfiyyətcə yeni fəaliyyətin baş tutacağına inanmaq sadəlövhlük olardı. Bu baxımdan, müxalifətin taleyini daha çox dünyada cərəyan edən proseslər müəyyən edəcək.

Hakimiyyətin davranışları onu deməyə əsas verir ki, ənənəvi seçki saxtakarlığına bu dəfə də getmək niyyətindədir. Lakin iqtidar unudur ki, siyasi mübarizənin perspektiv vəd etməməsi, üfüqdə belə müsbət dəyişikliyin görünməməsi insanları aqressiv edir. Bu aqressiya toplum şəklində cəmiyyətə yönələndə isə faciələr baş verir.

Burada bir zəruri xatırlatmaya da ehtiyac yaranır. Yaxın Şərqdə cərəyan edən proseslər də sübut etdi ki, avtoritar rejimin təzyiqləri sonsuza qədər davam edə bilməz. Cəmiyyət əvvəl-axır təzyiqlərdən cana yığılır və qadağalara baxmayaraq, sözünü meydanlarda deyir.

Cəmiyyətdəki gərginliyi aradan qaldıra bilməkdən ötrü ilk növbədə demokratik seçkilərin keçirilməsi və sivil formada mübarizə aparan siyasi spektrin təqiblərinə son qoymaq lazım gəlir. İstənilən halda iki yoldan biri seçilə bilər. Ya islahatlar, ya da hamının hamıya qarşı savaşından biri prioritet ola bilər. Birinci yol ölkəni inkişafa, digər yol isə labüd məhvə sürükləyir.

Bu baxımdan, müxalifətin sərbəst toplaşmaq azadlığı təmin edilməlidir...

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015

# Yanmış "Admiral"ın azərbaycanlı sahibi danışdı

## "Məni təhdid edirdilər"



**Martın 11-də Kazanda yanmış "Admiral" ticarət mərkəzinin sahibinin azərbaycanlı Hüseyn Qəhrəmanov olduğu məlum olub. Hüseyn Qəhrəmanov deyib ki, onu obyektin yandırılacağı ilə bağlı təhdid edirmişlər. O da tamamilə real hesab edirmiş və buna görə də ticarət mərkəzinin mühafizəsini təşkil edib, hətta "Zarya" MMC-nin direktorunun qohumları da gecə və gündüz növbətçilik çəkirlərmiş.**


Hüseyn Qəhrəmanov

"Təhdid edirdilər, lakin bilmirəm kim. Mühafizədən başqa mənim qohumlarım və yaxın dostlarımın ailələri gecə və gündüz növbə çəkməli olurdular. Mühafizədən başqa 10 nəfərədək insan ətrafı gəzirdilər ki, belə şeylərdən qoruna bilək", - deyə, "Admiral" ticarət mərkəzinin sahibi olan "Zarya" MMC-nin direktoru Hüseyn Qəhrəmanov danışır.

H. Qəhrəmanovun sözlərinə görə, dəhşətli yanğın zamanı bütün sahibkarlar və ziyarətçilər əvvəlcə yanan binanı tərk etdilər və qurbanların olmasının qarşısını almaq mümkün idi. Lakin sonra bir çoxları öz mallarının arxasınca ticarət mərkəzinə daxil oldular.

"Sahibkarlar mühafizəni, polisi, yanğınsöndürənləri aşıb keçərək, ticarət mərkəzinə daxil oldular. Alovu görəndə az qala dava salıb mallarını çıxarmağa başladılar. Biz onların qarşısını ala bilməzdik. Mühafizə, polisə qarşı qaz balonundan istifadə etdilər ki, mallarının arxasınca getsinlər, - deyə, Qəhrəmanov bildirib. - Əvvəlcə oradan hamı çıxdı, bütün ticarət mərkəzi boşaldı, lakin alovu görən kimi hamı geriyə qayıtdı. Hamının krediti, hamının borcu var. Görün 600 nəfərin qabağını ala bilərsiz..."

Tatarıstan FHN-in Baş İdarəsindən bildiriblər ki, ilkin məlumatlara görə, yanğın ticarət mərkəzində yerləşən kafedə baş verib. Hadisə yerinə gələn yanğınsöndürənlər 200-ə yaxın kompleks işçisi və alıcını təxliyyə ediblər. Tezliklə "Admiral"ın dam örtüyü çöküb. Yanğın 4 min kvadratmetr ərazini əhatə edib.

Yanğın zamanı bir qadın, xəstəxanada isə üç kişi ölüb. Dəqiqləşdirilmiş məlumatlara görə, daha beş nəfərin vəziyyəti çox ağırdır.

# "AMAY Abdulla"nın obyekti yandı


Abdulla Abdullayev

**Martın 11-də axşam saatlarında Xətai rayonu, Babək prospektində yerləşən "Dədəmin" avtoservisində güclü yanğın baş verib. FHN-in rəsmi saytında verilən məlumatda deyilir ki, yanğın nəticəsində ümumi sahəsi 250 kv.m olan "Dədəmin" avtoservisinin yanar konstruksiyaları, orada təmirə dayanan və sahibi hələlik məlum olmayan "Nissan" markalı minik avtomobilinin yanar hissələri, "Range Rover" markalı minik avtomobilinin arxa hissəsi qismən və bitişik avtomobil ehtiyatları mağazasının yanar hissələri, həmçinin mağazada olan 2 ədəd "Suzuki" markalı və 3 ədəd "Harley Davidson" markalı motosikletlər yanıb.**




Təmirə dayanmış "Range Rover" markalı avtomobilin qalan hissəsi, 6 ədəd minik avtomobili, mağazada olan 1 ədəd motosiklet və yaxınlıqdakı tikililər yanğından mühafizə olunub. Yanğın saat 03:58-də yanğınsöndürənlər tərəfindən söndürülüb.

Virtualaz.org saytının əldə etdiyi məlumata görə, "Dədəmin" avtoservisi "AMAY Abdulla" kimi tanınan iş adamı, hazırda həbsdə olan Abdulla Abdullayevin qardaşına məxsusdur. Bunu avtoservisin qonşuluğundakı digər obyektlərin işçiləri də təsdiqləyiblər. Onlar bu obyekti ilk gündən Abdullayevlərin mülkü kimi tanıdıqlarını bildiriblər.

Yanğının səbəbinə gəlincə isə onlar deyir ki, səbəb qısaqapanmadır. Belə ki, yanğın obyektin mühafizəçisinin köşkündən başlayıb. O, öz otağını elektrik plitəsi ilə qızdırırmış.

"AMAY Abdulla" ötən ilin aprelində həbs olunub və Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham olunur. Hazırda naxçıvanlı keçmiş oliqarxın məhkəmə prosesi gedir və A.Abdullayev prosesdə səs-küylü bəyanatlarla çıxış edir.

# "Tupoy Qaqo"dan Sərkisyana Azərbaycanda "gözdağı"

# Erməni idmançıların Bakıya gəlməkdən imtinasının iki mühüm səbəbi

## EMOK-un rəhbəri maliyyələşdirdiyi federasiyaları Avropa Oyunlarına göndərməməklə onu aşağılayan prezident Sərkisyanı cəzalandırır; amma Azərbaycanda döyülməkdən qorxan ermənilərin başqa bir niyyəti də ola bilər; işğalçı mahiyyəti ilə dünyada izolyasiya olunan Ermənistan idmançılarının üzünə beynəlxalq arenalar da bağlanır...

**Avropa Oyunlarına dəvət alan Ermənistan idmançılarının bir-birinin ağzına tüpürübmüş kimi, Bakıya gəlməkdən imtina etmələri düşmən ölkənin Azərbaycana qarşı yeni məkrli niyyətlərindən xəbər verir. Ermənistanın yunan-roma güləşçilərindən sonra taekvandoçuları da Bakıda keçiriləcək Avropa Oyunlarına gəlməkdən imtina etmələri ilə bağlı bəyanat yayıblar. Bəyanatda deyilir ki, "Ermənistanla Azərbaycan arasında diplomatik əlaqələrin olmadığını, həmçinin Azərbaycanın Ermənistana qarşı düşmən münasibətini nəzərə alaraq Taekvando Federasiyası oyunlarda iştirakı məqsədəuyğun hesab etmir".**



Boks üzrə Ermənistan yığmasının baş məşqçisi David Torosyan da deyib ki, "yetirmələrini Bakıya aparmağı fikirləşmir". "Qoy ora Bakıya getmək qərarını verənlər getsinlər. Ancaq bu o demək deyil ki, Bakıya erməni boksçuları getməyəcək. Boks Federasiyasında Bakıda doğulan və Azərbaycana getmək arzusu ilə alışıb-yanan çoxlu şəxslər var. Qoy elə onlar da ora getsin. Mənim boksçularımın orda heç bir işi yoxdur. Əminəm ki, erməni boksçuları ilk döyüşdəcə yarışdan kənarda qalacaqlar. Onları ilk döyüşdə döyəcəklər", - deyə, David Torosyan bildirib. Xatırladaq ki, bugünlərdə bənzər açıqlama ilə Ermənistanın yunan-roma güləşi üzrə yığmasının baş məşqçisi də çıxış etmişdi.

***

**Ötən ilin noyabrında Avropa Olimpiya Komitəsinin (AOK) Bakıda keçirilən 43-cü Baş Assambleyasının toplantısında Ermənistan MOK-un İdarə Heyətinin rəhbəri Vaqinak Qalstyan da iştirak etmişdi. O zaman Qalstyan erməni idmançıların təhlükəsizliyi ilə bağlı tam təminat verildiyini məmnunluqla ifadə etmişdi.** "Azərbaycana yollanana qədər Bakıda təhlükəsizliklə bağlı bəzi suallar qalmaqda idi. Burada söhbət həm də idmanın növündən asılı olaraq, zəruri şərtlərdən gedirdi. Məsələn, atıcılıq yarışlarında tam sakitlik təmin olunmalıdır. İdmançılarımızın məskunlaşacağı yer və başqa məsələlərə də tam aydınlıq gəlməli idi. Biz bütün suallarımıza cavab aldıq. AOK Avropa Oyunlarının Təşkilat Komitəsi ilə birgə öhdəçilikləri üzərinə götürdü. Mən də əminəm ki, bunlara əməl ediləcək".

Bəs nə dəyişdi ki, Ermənistan idman federasiyaları bir-birinin ardınca Bakıya gəlməkdə imtina etdilər?

Zənnimizcə, bu, iki mühüm amillə bağlı ola bilər. Birinci səbəb Ermənistan Milli Olimpiya Komitəsinin prezidenti Qaqik Tsarukyanın Serj Sərkisyanla münasibətlərinin son dərəcə pisləşməsidir.



Belə ki, Sərkisyan ötən ay həm də Çiçəklənən Ermənistan Partiyasının sədri olan Qaqik Tsarukyanı Milli Təhlükəsizlik Şurasının iclasından qovub və dərhal da onun bu quruma üzvlüyünün ləğv olunması haqqında fərman imzalayıb. "Milli Təhlükəsizlik Şurası kinoteatr deyil ki, kim nə vaxt istəsə gəlsin", deyə, Sərkisyan həmin iclasda bildirmişdi. Hakim Respublika Partiyasının iclasında isə xalqın ona "Tupoy Qaqo" ləqəbini təsadüfən vermədiyini demiş və MOK prezidentini aşağılamışdı.

Qaqik Tsarukyan isə Sərkisyana cavab olaraq bildirmişdi ki, Ermənistanda hakimiyyət dəyişikliyinin vaxtı çatıb və bu hədəf uğrunda ölkənin bütün əsas siyasi qüvvələri birləşib.

**Tsarukyan demişdi ki, Sərkisyanın hakimiyyəti dövründə Ermənistanda iqtisadiyyat biabırçı səviyyədə geriləyib, investisiyalar kəskin azalıb, yoxsulluq artıb, ancaq əvəzində prezidentin öz biznesi sürətlə inkişaf edib:** "Ölkəni dəhşətli miqrasiya bürüyüb, maliyyə vəziyyəti laxlayıb. Bütöv kəndlər, insanların evləri və əmlakı banklarda girov qoyulub. Qarabağda və Ermənistan-Azərbaycan sərhədində gərginlik artıb və hər gün itki xəbərləri gəlir. Türkiyə və Azərbaycan o qədər arxayınlaşıblar ki, Ermənistan haqda saymazyana danışırlar. AŞ PA sessiyasında Sərkisyanın kazinoda uduzduğu milyonlardan söz açılır".

**Tsarukyan prezidenti Ermənistanı talamaqda ittiham edərək onu hədələməkdən belə çəkinməmişdi:** "Hakimiyyət dəyişəndən sonra indiki hakimiyyətdəki bir-iki adam xalqdan oğurladıqları milyardları geri qaytarmağa məcbur olacaq".

Amma mart ayının əvvəlində Tsarukyan Sərkisyanın terror hədələri qarşısında geri çəkilərək siyasətdən və partiya sədrliyindən getdiyini bəyan etdi. Qeyd edək ki, Sərkisyan istəsə belə indilikdə Tsarukyanı MOK prezidenti vəzifəsindən çıxara bilməz. Çünki bu, müstəqil beynəlxalq quruma bağlıdır. Ehtimal etmək olar ki, Tsarukyan Ermənistanın və onun düşmənçilik etdiyi prezidentinin dünyada onsuz da bərbad olan imicini nəzarətində olduğu və onun maliyyəsi ilə yarışlara gedən idmançıları Bakıya göndərməkdən imtina etməklə daha da batırmaq istəyir.

Ermənistan idmançılarının Bakıya gəlməkdən imtina etməsinin ikinci səbəbi Ermənistandakı hazırkı böhranla da bağlı ola bilər. Ermənistanın öz daxilində vəziyyət kifayət qədər mürəkkəbdir. Belə vəziyyətdə hakim qüvvələrin köməyinə adətən diqqəti yayındırmağa yönəlik xarici amillər gəlir. Bakıda keçiriləcək Avropa Yay Oyunlarına Qarabağ kartından yararlanıb hansısa formada əngəl yaratmaq bu xüsusda rəsmi İrəvanın karına gələ bilərdi.

Bakıdakı beynəlxalq yarışı pozmaq, yaxud onun effektini azaltmaq və ya ölkəmizə təşrif buyuracaq əcnəbilərdə təhlükəsizliklə ilgili tərəddüdlər yaratmaq üçün düşmən tərəfinin iyuna kimi cəbhə xətti boyu artan intensivliklə təxribatlar törədəcəkləri mümkün görünür. Son günlər təkcə Qarabağ bölgəsində yox, Ermənistan-Azərbaycan sərhədində erməni diversiya qruplarının fəallaşması rəsmi İrəvanın məkrli niyyətlərindən xəbər verir. Aydındır ki, yaxın müddətdə müharibə risklərinin artması Bakı üçün arzuolunmazdır. Məhz bu səbəbdən də Azərbaycan və Türkiyənin son aylar intensivləşən birgə hərbi təlimləri Ermənistanın belə bir xain niyyətini önləmək baxımından mühüm dəyərləndirilir.

Ermənistan idmançılarının yarışlarda iştirak etməməsi ilk Avropa Oyunlarının təşkilinə xələl gətirməyəcək. Əksinə, özünün işğalçı mahiyyəti ilə dünyada izolyasiya edən Ermənistan idmançılarının üzünə də beynəlxalq arenaları bağladacaq...

❑ **"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015



# Qarabağ məsələsində söz sahibliyi bütünlüklə Rusiyaya keçir

## Ermənistan bu il olan-qalan müstəqilliyini də itirəcək; sentyabradək işğalçı ölkənin rubl zonasına keçəcəyi gözlənilir; Avrasiya İqtisadi Birliyinə üzvlüklə bağlı düşmən ordusu da ixtisara düşə bilər...

**Ötən ilin sentyabrında işğalçı Ermənistan Avrasiya layihələrinə qoşulmaq qərarı verməklə özünü daha güclü şəkildə Putin Rusiyasından asılı vəziyyətə salmış oldu. Onsuz da Dağlıq Qarabağ probleminə görə Moskvanın ağzına baxan, Kremlin "bir sözünü iki edə" bilməyən, Azərbaycan və Türkiyənin qorxusundan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) "5-ci təkəri" rolunda olan, 50 illiyə özünü könüllü olaraq Rusiya girovluğuna təslim edən düşmən ölkə bununla daha geridönməz şəkildə Kremlin hərbi-siyasi təsiri altına düşdü.**

Bundan əlavə, Qazaxıstan və Belarusdan fərqli olaraq heç bir ciddi iqtisadi potensialı olmayan və Avrasiya Birliyi dövlətləri üçün iqtisadi dəyər daşımayan Ermənistanı indi saya salan da yoxdu. Ən isti nümunə kimi quruma üzv ölkələrin liderlərinin Astana sammitinə Ermənistan prezidenti Serj Sərkisyanın dəvət edilməməsini göstərmək olar. Halbuki bu ilin yanvarından işğalçı ölkə birliyin rəsmi üzvüdür. Məlum olduğu kimi, martın 13-nə təyin edilmiş sammit yalnız üç prezident - Vladimir Putin, Nursultan Nazarbayev və Aleksandr Lukaşenko arasında olacaq.




Sərkisyanın formal ölkə başçısı, nominal prezident olduğu indi heç vaxt olmadığı qədər qabarıq görünür. Maraqlıdır ki, bunu Ermənistanın özündə də gizlətmir, aşkar şəkildə dilə gətirirlər. Hətta belə getsə, ölkənin müstəqilliyindən əsər-əlamət qalmayacağı haqda xəbərdarlıqlar səslənir.

***

**"Putin "yox" desə, Sərkisyan ən əhəmiyyətsiz sənədi də imzalamayacaq". Belə bir acı qənaət iki gün öncə erməni nəşrlərinin birindəki məqalədə yer alıb. Sitat:** "Rusiya Ukraynadan Krımı qopardan və Donbasda müharibə başlayandan sonra Avropada anlamağa başladılar ki, əgər Rusiya nəhəng Ukrayna ilə belə davrandısa, Ermənistanın Avropa Birliyi ilə assosiativ üzvlük sazişini imzalaması ona qat-qat fəlakətli nəticələr gətirə bilərdi".

**"Aykakan Jamanak" qəzetindəki məqalədən götürülən bu fikrin müəllifinə görə, Ukrayna böhranının dərinləşməsi avropalı məmurları Ermənistanla əlaqələrin yeni yollarını axtarıb tapmaq zorunda qoyur.** "Ancaq Avropa Birliyi ilə yeni sənədin imzalanması Ermənistandan daha çox, Rusiyadan asılıdır. Əgər Moskva "yox" desə, Sərkisyan hətta ən ziyansız sənədi də imzalamayacaq. Bütün problem də ondadır ki, Ermənistanda çoxlu sayda diplomat var ki, əmindirlər: Rusiya içində nə yazılmasına rəğmən, belə sənədlərin hamısına həmişə "yox" deyəcək" - yazıb qəzet. "O zaman təzədən danışıqlara aparmağa və növbəti dəfə bütün dünyada biabır olmağa dəyərmi" - deyə nəşr sual edir.



Yaxşı sualdı, deyilmi? Məsələ də ondadır ki, təcavüzkar qonşumuz xarici siyasətlə bağlı Kremlin icazəsi olmadan nə taktiki, nə də ələlxüsus, strateji planda heç bir sərbəst qərar vermək gücündə deyil.

***

Hələ harasıdır, belə görünür tezliklə Ermənistan olan-qalan müstəqilliyini də çox qısa zamanda itirəcək və şimal qonşumuzun yüz faizlik vassalına, lap dəqiqi Rusiyanın Krım kimi bir quberniyasına, coğrafi əlavəsinə çevriləcək. Bunu Rusiya prezidenti Vladimir Putinin Avrasiya İttifaqı üçün vahid valyuta yaradılması barədə sərəncamının İrəvanda yaratdığı ciddi narahatlığa əsasən də söyləmək mümkündür.

**Bəllidir ki, Rusiya prezidenti bu barədə Rusiya Mərkəzi Bankına və hökumətinə tapşırıq verib (anspress). İrəvanda dərc olunan "Joxovurd" qəzeti isə rublun vahid valyutaya çevrilməsinin Ermənistan Konstitusiyasına zidd olduğunu bildirir:** "Konstitusiya dəyişməyənə qədər Ermənistan başqa valyutaya keçə bilməz, çünki konstitusiyaya görə Ermənistanın valyutası dramdır".

**Məsələnin 2015-ci ilin 1 sentyabr tarixinə qədər həll olunacağını vurğulayan qəzet bu məsələdə Ermənistanın fikrinin öyrənilməməsi məsələsini qabardır:** "Ermənistan hökuməti və Mərkəzi Bankı bu barədə susur və izah etmir ki, nə vaxtdan Putin onlara əmr verməyə başlayıb".

Əslində isə qəribə heç nə yoxdur. Hər şey 1922-ci il dekabrın 22-də SSRİ-nin yaradılmasında olduğu kimi başlayıb. Bir neçə aya Ermənistan valyutasını itirəcək, daha sonra yəqin ki, növbə orduya çatacaq - vassal ölkəyə nə ordu? Artıq erməni ordusu Moskvadakı əlaqələndirmə mərkəzindən idarə olunur, amma bir neçə ildən sonra böyük ehtimalla, Ermənistan ordusunun yerini Avrasiya İttifaqının hərbi birləşmələri tutacaq. Bu isə artıq erməni xalqının müstəqilliklə vidalaşması deməkdir...

***

Müstəqilliyin itirilməsi isə söz sahibliyinin itirilməsi deməkdir. Deməli, bu il işğalçı ölkənin onun olan-qalan müstəqilliyinin və suverenliyinin də əldən getməsi ilə Dağlıq Qarabağ məsələsində söz sahibliyi bütünlüklə Rusiyaya keçəcək. Azərbaycanın Ermənistanla danışıq aparmasının heç bir anlamı qalmayacaq.

Bu, bir yandan yaxşıdır. Onsuz da hamı, o sırada Qərb yaxşı bilir ki, Azərbaycan ərazilərinin işğalının arxasında Rusiya dayanır. İşğalçı da əslində Rusiyadır. Bu mənada Qarabağ məsələsində birbaşa səbəbkarla danışıb anlaşmaq daha məqbul görünür. Həm də o səbəbə ki, o zaman istənilən razılığa Moskva özü qarantiya verəcək, İrəvana asanca təsir göstərə biləcək, daha pərdəarxasından, Ermənistanın əli ilə hansısa kövrək Qarabağ anlaşmasını pozmağa cəhd etməyəcək.

Pis isə odur ki, Rusiya razılığa gəlməsə, onu buna məcbur eləmək Ermənistandan qat-qat çətin olacaq, çünki supergücdür, Ermənistan kimi cırtdan ölkə deyil.



# "İrəvan çirkin təbliğatda azyaşlı uşaqlardan istifadə edir"

**Azərbaycan XİN:** "Ermənistandakı diktatura rejimi öz vətəndaşlarına qarşı da amansız davranır..."

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistandan könüllü surətdə Azərbaycana keçmiş, daha sonra bu ölkəyə təhvil verilmiş Yegişe Gevorkyanın ailə üzvlərinə qarşı Ermənistan Milli Təhlükəsizlik Xidməti tərəfindən cinayət işinin açılmasına münasibət bildirib.**

XİN mətbuat xidmətindən verilən xəbərə görə, Hacıyev öncə Yeqişe Gevorkyanın ailəsi ilə birlikdə Ermənistanda üzləşdiyi acınacaqlı vəziyyət və ifrat yoxsulluqdan xilas olmaq üçün bir neçə il bundan əvvəl könüllü olaraq Azərbaycan tərəfə keçdiyini xatırladıb: "Humanizm prinsiplərindən çıxış edərək Azərbaycan tərəfindən Yeqişe Gevorkyan və onun ailəsinin saxlanması üçün normal şərait yaradılıb. Mütəmadi əsasda Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən də bu ailəyə baş çəkilib".

**XİN sözçüsü deyib ki, kriminal keçmişi olduğuna görə üçüncü dövlətə miqrasiya etmək niyyətində olan Y.Gevorkyan digər dövlətlər tərəfindən qəbul edilməyib. Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə o, 12 dekabr 2014-cü il tarixində Ermənistana təhvil verilib:** "Ermənistan isə öz doğma torpağında ata-analarının qəbirlərini ziyarət edən soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevi girov götürdü, digər soydaşımız Həsən Həsənovu isə vəhşicəsinə qətlə yetirdi. Dilqəm Əsgərov və Şahbaz Quliyevin üzərində qurama məhkəmə təşkil etdi. Beynəlxalq humanitar hüquqa əsasən mülki şəxslərə münasibətdə bu cür davranış qəbuledilməzdir. Ermənistanın hərbi diktatura rejimi tərəfindən öz vətəndaşlarına münasibətdə də bu cür humanizm və insan hüquqlarından tamamilə kənar davranış nümayiş etdirilir. Ermənistana təhvil verildikdən dərhal sonra Yegişe Gevorkyan və onun ailə üzvləri Ermənistanın xüsusi xidmət orqanlarının hədə-qorxusu və insan ləyaqətini alçaldan fiziki və psixoloji işgəncələri nəticəsində ictimai ifadələr verməyə vadar edildilər. Ən dəhşətlisi ondan ibarətdir ki, Ermənistan bu çirkin təbliğat məqsədilə ailənin azyaşlı uşaqlarından istifadə etməkdən belə çəkinmədi".

**Bəyanatda daha sonra deyilir:** "Hələ 15 dekabr 2014-cü il tarixində XİN tərəfindən bu məsələyə münasibət bildirilən zaman əvvəllər Ermənistana təhvil verilmiş bu ölkənin digər vətəndaşları kimi Gevorkyan ailəsinin də işgəncələrə məruz qoyulacağı, uzun müddət zorla Ermənistan xüsusi xidmət orqanlarının həbsxanalarında saxlanmağa məcbur ediləcəyi və həbs ediləcəyi qeyd olunmuşdu. Ona görə də Ermənistandakı hərbi diktatura rejiminin mahiyyətini nəzərə alaraq, bu ölkənin xüsusi xidmət orqanları tərəfindən Yegişe Gevorkyanın cinayət məsuliyyətinə cəlb ediləcəyi gözlənilən idi".

Xatırladaq ki, Ermənistan vətəndaşları Yegişe və Ruzanna Gevorkyanlar 3 uşaqları ilə birlikdə 2010-cu ilin yanvarında Azərbaycana keçiblər. Onlar barəsində cinayət işi Ermənistan Cinayət Məcəlləsinin 329-cu maddəsi ("Müvafiq sənədlər və icazə olmadan sərhədi keçmə") əsasında açılıb. Bu maddə maksimum 3 il azadlıqdan məhrumetmə cəzasını nəzərdə tutur. Cinayət işinə əsasən Yegişe və Ruzanna Gevorkyan əsas təqsirləndirilən şəxslər qismində dindiriləcəklər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015

# Qubad İbadoğlu hökumətə nazirliklərin ixtisarı təklifini verib

## "Ölkədə 12 nazirliyin saxlanılması optimal hesab oluna bilər"



Qubad İbadoğlu

**İqtisadçı ekspert Qubad İbadoğlu hökumətə nazirliklərin sayının azaldılması barədə təklif verib. "Neftin qiymətinin ucuzlaşmasının müsbət təsirləri də müşahidə olunmaqdadır. Yəqin ki, dünya bazarındakı qiymətlər əvvəlki kimi baha qalardısa, nə hakimiyyət, nə biznes və nə də ki, ailələr mövcud iqtisadi durumdan indiki qədər qayğılanmazdılar. Hazırda sıravi vətəndaş da demək olar ki, hər gün bir neçə dəfə manatın məzənnəsi və neftin qiyməti ilə bağlı faktiki və proqnoz məlumatları axtarır. Axtarışlar da onu göstərir ki, yaxın zamanlarda neftin qiymətində ucuzlaşma, manatın dəyərində isə bahalaşma gözlənilmir. Belə olan halda ev təsərrüfatlarında və biznesdə olduğu kimi, hökumətdə də rasional xərcləmələr mövzusu getdikcə aktuallaşır. Deməli, büdcə xərcləmələrinin optimallaşdırılması, iş yerlərinin bağlanması və əmək haqqı gəlirlərinin azalmasına yol vermədən dövlətin izafi məsrəflərinin ixtisarı yolu ilə səmərəliliyin artırılması hazırda həlli vacib olan əsas məsələlərdən hesab olunur",- deyə ekspert bildirib.**

Onun sözlərinə görə, Nazirlər Kabinetinin strukturuna 20 nazirlik, 10 dövlət komitəsi, 2 dövlət administrasiyası, 4 dövlət xidməti və 1 dövlət fondu daxildir və onların hamısı dövlət büdcəsindən maliyyələşdirilir: "Beləliklə də Kabinetin tərkibində müxtəlif adlarla yer alan mərkəzi icra strukturlarının sayı 37-yə çatır. Müqayisələr göstərir ki, Azərbaycanda dövlət nazirliklərinin sayı hətta Avropa ölkələri ilə müqayisədə belə çoxdur. Məsələn, dövlət nazirliklərinin sayı İtaliyada 14, Almaniyada və Belçikada 11, İspaniyada 9-dur. ABŞ-da da nazirlik səviyyəsində olan 11 federal hökumət qurumu fəaliyyət göstərir. Həqiqətən də Azərbaycanda 20 nazirliyin olması dövlət idarəetmə xərclərinin optimallaşdırılmasının və idarəetmədə struktur islahatlarının aparılmasının potensialının yüksək olmasının göstəricisidir".

**Q.İbadoğlu vurğulayıb ki, əslində Nazirlər Kabineti Rusiya Federal hökumətini təkrarladığından, ölkədə şişman dövlət idarəetmə aparatı yaranıb:** "Neft gəlirlərinin azalması səbəbindən formalaşan yeni iqtisadi situasiyada dövlət aparatının saxlanması ciddi maliyyə tələb edəcəyində bu sistemdə mərhələli islahatlara start verilməlidir. Fikrimizcə, bu istiqamətdə aparılmalı olan islahatların 1-ci mərhələsində Azərbaycanda 12 nazirliyin saxlanılması optimal hesab oluna bilər". Ekspert bunları Müdafiə, Daxili İşlər, Milli Təhlükəsizlik, Ədliyyə, Xarici İşlər, Maliyyə, Kənd təsərrüfatı və ərzaq, Səhiyyə, Təhsil və Rifah, Sənaye, Elm və Texnologiyalar, Nəqliyyat və infrastruktura, Vergi və rüsumların tənzimlənməsi, Əmək Nazirliyi kimi qruplaşdırıb. "Hesab edirəm ki, hökumətin parlamentdə hesabat verdiyi zaman bu məsələlər üzrə də ciddi müzakirələr aparılmalıdır",- deyə o vurğulayıb.

❑ RÖYA

# Müsavatda indi də Adil Qeybulla problemi ortaya çıxdı

## Səxavət Soltanlı: "Adil Qeybulla da Müsavata qarşı danışmaqla şəxsi rifahını düşünmək yolu tutubsa, buyursun..."

**Azərbaycan Demokratiya və Rifah (ADR) hərəkatının İdarə Heyətinin üzvü Adil Qeybulla üzvü olduğu Müsavat Partiyasına qarşı açıqlamalar verib. Publika.az-a açıqlamasında A.Qeybulla deyib ki, Vurğun Əyyubun deputatlığa namizədliyini irəli sürən Suraxanı rayon təşkilatı Müsavat Partiyası rəhbərliyinə bununla bağlı müraciət edibsə, bu yetərlidir.**

"Prosedur həmişə belə olub. Sadəcə olaraq, hazırkı rəhbərlik süni surətdə bürokratiya yaradır. Müsavat rəhbərliyi legitimliyini qəbul etdirmək üçün bütün yollara əl atır" - deyib A. Qeybulla.

**ADR təmsilçisi Qubad İbadoğlunun Müsavatdan çıxarılması haqda müraciətlərinə hələ də cavab ala bilmədiklərini qeyd edib:** "Neytral insanların, xalq hərəkatında tanınmış şəxslərin, hüquqşünasların olduğu 11 nəfərdən ibarət qrup tərəfindən bununla bağlı müraciət olundu. Lakin hələ də cavab verilməyib. Müsavat rəhbərliyi müraciətin rəsmi şəkildə partiya strukturlarına daxil olmadığını bəhanə edir. Partiyaya üzv olmaq, yaxud istefa vermək mətbuatda ictimailəşdirildə bu, yetərli sayılır. Bu müraciətin mətbuatda yayımlanması da yetərli olmalıdır. Hesab edirəm ki, bu addım da partiya rəhbərliyinin icra mexanizmlərindən istifadə edərək öz legitimliyini qəbul etdirmək cəhdidir".

**Uzun illər Müsavatın rəhbər orqanı sayılan Divanın üzvü olmuş A. Qeybulla hazırda ADR elektoratının Müsavat Partiyası üzvlərindən ikiqat çox olduğunu deyib:** "ADR-in gücünü hər şeydən əvvəl təsis konfransı göstərdi. Buna əsasən əminliklə demək olar ki, bu gün ADR sıralarında olan şəxslərin sayı Müsavatın rəsmi struktur üzvlərinin sayından iki dəfə çoxdur. Çünki partiyanın



**Adil Qeybulla: "ADR sıralarında olan şəxslərin sayı Müsavatın rəsmi üzvlərinin sayından iki dəfə çoxdur"**

əksər rayon təşkilatları iflic vəziyyətindədir. Çoxlarının da yalnız adı qeydiyyatdadır, özləri yoxdur. Hazırda 35 rayonda təsis toplantısı olub. Hərəkatın bütün strukturları formalaşandan sonra ortaya yeni, güclü bir təşkilat çıxacaq. Hazırda ADR-in imici Müsavatın imicindən xeyli yaxşıdır. Hərəkatın qarşıya qoyduğu hədəf yeni dövrdə Azərbaycan reallıqlarını nəzərə alaraq, tam demokratik keçidə optimal resept hazırlamaqdır. Biz bunu Müsavatda həyata keçirmək istəyirdik, lakin imkan vermədilər. Köhnə qaydaların, mitinq və aksiya üslubunun daha məqbul olduğunu hesab etdilər. Halbuki bu xəttin heç bir perspektivi yoxdur. Son dövrlər aksiya iştirakçılarının sayı da azalan tendensiya ilə gedir".

**Müsavat başqanının müavini Səxavət Soltanlı isə "Yeni Müsavat"a açıqlamasında Adil Qeybullanın üzvü olduğu partiyanın haqqında yalan yaydığını və belə hərəkətə yol verənlərin cəmiyyətdə heç də yaxşı adla çağırılmadığını bildirdi:** "Adil müəllim özü haqqında cəmiyyətdə heç də yaxşı olmayan rəy formalaşdırmaq qərarındadırsa, ona uğurlar. Mən belə müsahibə verən adamın siyasi savadına, dünya, görüşünə, adi hesablama qabiliyyətinin olmasına şübhə ilə yanaşıram. Bu adam açıq-aşkar yalan və Müsavata qarşı əks-təbliğatla məşğuldur. Müsavatın tək Binəqədi təşkilatı onların yaratdığı təşkilatdan bütün göstəricilərinə görə üstün durumdadır. Qaldı təfəkkür məsələsinə, burda da doğru olmayan, gülməli ifadə işlədib. Müsavat Partiyasında dəyişikliklərdən sonra yeni düşüncəli şəxslərin seçkiləri qazanmasını həzm edə bilməyən köhnə kafalı insanlar partiyaya qarşı siyasi xətt tutdular. Müsavat Partiyasının Divanı dəyişib, rəhbərlik dəyişib, müasir təfəkkür sahibi olan insanlar demokratiyanın və seçkinin nə olduğunu bilən, Müsavatın güclü olmasını istəyən insanlar buna sevinməli idi. Adil Qeybulla və onunla birgə olan bəziləri uzun illər Müsavatda rəhbərlikdə olublar, bir yenilik, bir fərqli fikir ortaya qoymayıblar. Onların varlıqları belə hiss olunmayıb. Müsavat Partiyası qurultaydan əvvəlki dövrlə müqayisədə daha da güclənir, üzvlərimizin sayı hər gün artır. Adil Qeybulla da Müsavata qarşı danışmaqla şəxsi rifahını düşünmək yolu tutubsa buyursun, davam etsin. Bütün hakimiyyət mediası həsrətlə gözləyir".

❑ Etibar SEYİDAĞA

# Deputatdan xarici mətbuatdakı tənqidlərlə bağlı ilginc açıqlamalar

## Zahid Oruc: "Azərbaycan əleyhinə yazmaq böyük biznes layihəsidir və təkcə Avropa Oyunlarına indekslənməyib"

**İlk dəfə ölkəmizdə keçiriləcək Avropa Oyunlarına sayılı günlər qaldıqca, bu idman tədbiri ətrafında müzakirələr daha da artır. Oyunların ölkəmiz və dünya idman tarixi üçün böyük əhəmiyyəti olduğunu deyənlərlə yanaşı, tənqidi fikirlər səsləndirənlər də olur. Xüsusilə Avropanın bir sıra tanınmış media orqanlarında Azərbaycanda insan haqlarının durumunun ağır olduğu, siyasi məhbusların çoxluğu qeyd olunan yazılar intensivləşir. Həmin nəşrlərdə Avropa ölkələrinə oyunların boykot edilməsi ilə bağlı çağırışlar edilir. Azərbaycanın daxilində bir sıra müxalif siyasətçilər isə bildirir ki, bu cür çağırışların zərərsizləşdirilməsi, həmin çağırışları edənləri arqumentsiz qoymaq üçün iqtidar ilk növbədə siyasi məhbus sayılan şəxsləri azad etməlidir.**

Bəs siyasi məhbuslar azad edilərsə, həqiqətənmi tənqidlər, boykot çağırışları dayanacaq?

**Deputat Zahid Oruc** bildirdi ki, ən böyük münsif zamandır. Həmin maraq qruplarının nə istədiklərini, kimlər tərəfindən təşkilatlandıqlarını və anti-Azərbaycan şəbəkəsi kimi formalaşdıqlarını real nəzərlərlə bir müddət keçdikdən sonra görmək mümkün olur. Lakin indinin özündə də beynəlxalq siyasi atmosferdə nə qədər duman olsa da, Azərbaycan əleyhinə formalaşmış qüvvələrin yerini, miqyasını, yürütdükləri siyasəti, onların dövriyyəsinə çıxarılmış arqument bazalarının mənbələrini təyin eləmək o qədər də çətin deyil: "Yəni bir sıra nüfuzlu nəşrlər Azərbaycanda konkret istiqamətləri vururlar. Onların baza arqumentləri müxtəlif təhlükəsizlik orqanlarının mətbəxlərində hazırlanır və Azərbaycan əleyhinə yazmaq mükafatlandırılır. Bu, böyük bir biznes layihəsidir və təkcə olimpiya oyunlarına da indekslənməyib. Mahiyyətcə bu gün onunla pərdələnib ki, guya bizim xalqın qayğısına



Zahid Oruc

qalıb hansısa xarici idmançıya Azərbaycan büdcəsindən vəsaitin getməsindən çox narahatdırlar. O cümlədən hansısa konkret məhbusa yönəlik belə bir savaş aparılır. Belə demək mümkündürsə, Avropa Oyunlarının kənarında böyük bir oyunlar düzənlənib və orada münsif də yoxdur. Ona görə də o oyunun qalibi olmaq da elə asan deyil. Avropa mediasında haqqında söhbət gedən yazılarla biz də tanışıq və onlar Avropa Oyunlarının kontekstində bütün siyasi sistemi, iqtisadi siyasətimizi, ölkənin ümumi daxili həyatında vətəndaş-dövlət münasibətlərini geniş bir çeşiddə təhlil edirlər və qiymətləndirmələrlə məşğuldurlar. Bəzilərinin dediyi kimi, həqiqətən də bütün beynəlxalq dairələri, Azərbaycana qarşı olanları arqumentsiz qoymaq üçün ən azı, məsələn, indi həbsdə olan şəxslərlə bağlı müəyyən qərarlar verilə bilər. Mən obrazlı olaraq bunu parlamentdə də söylədim, yenə də sizinlə bölüşürəm ki, əgər bütün həbsxanalarımızın hamısı bir qərarla boş da qalsa, siyasi qüvvələrlə arasında çox yaxşı siyasi polemikalar da düzənlənsə, vətəndaş-dövlət münasibətləri indikindən daha fərqli bir səviyyədə qurulsa belə, Azərbaycana qarşı təzyiq üçün yeni-yeni məsələlər tapılacaq. Müxtəlif adlarla yenə də anti-Azərbaycan qara lövhələri, sanksiya çağırışları, boykot iddiaları ortaya atılacaq".

**Deputat xatırlatdı ki, 1980-ci ildə SSRİ-də keçirilən olimpiadaya da eyni münasibət bəslənmişdi. Səbəb də çox sadədir:** "Axı bunu hesablayırlar ki, bir ölkə müəyyən məna da özünü dünyaya daha geniş şəkildə çıxara bilir, Azərbaycanın dünya teleməkanında təqdimatları gedir. Düşünürlər oyunlar bir ölkənin təqdimatı üçün çox yaxşı bir layihədir. O yazıları yazdıranlar Azərbaycanın Avropa oyunlarından qazanmasına qarşı olan qüvvələrdir. Ona görə də bizim müxalifət, daxili qüvvələr də fərqində olmalıdırlar ki, bu, hakimiyyətlə aparılan savaş deyil, bütövlükdə hədəf Azərbaycandır. Təyin eləmək çox çətindir ki, bu gün hansı paytaxtlardan "Azərbaycanı vurun" əmri verilib. Ancaq bu mübarizədən əminəm ki, Azərbaycan uğurla çıxacaq".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015

# Şəhid ailələri və Qarabağ əlilləri "qan pulu"nu ala bilmir

**Şəhid ailələri və Qarabağ qaziləri onlara ödənilməli olan sığorta pulunun ödənilməsində yaranan problemlərə etiraz edirlər. Bir müddətdir bu məsələ həm Milli Məclisdə, həm də mediada müzakirə olunur. Belə ki, 2006-cı ilə qədər sığorta haqqını ala bilməyən şəhid ailələri və müharibə əlilləri indi onlara qanundakı son dəyişiklikdə qeyd edilən məbləğin ödənilməsini tələb edirlər.**



**Rey Kərimoğlu:** "Şəhid ailəsi gedib qapıları döyüb sığorta istəməməlidir, dövlət özü onların haqqını verməlidir"



**Musa Quliyev:** "Əsasən 2006-cı ildən əvvəl sığorta almalı olan şəxslərlə bağlı problem yaranır"

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **Qarabağ Qaziləri Birliyinin mətbuat xidmətinin rəhbəri, Qarabağ qazisi Rey Kərimoğlu** problemə aydınlıq gətirib: "1997-ci ilin may ayının 20-də, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanun qəbul edilib. Orada göstərilib ki, Azərbaycan ordusunun əsgər və zabitləri yaralananda və ya şəhid olanda ona sığorta haqqı verilməlidir. Şəhid olanların ailəsinə, əlil olanların isə özünə sığorta pulu verilir. Biz buna "qan pulu" deyirik. Həmin qanunda yazılmışdı ki, qanun qüvvəyə minənədək sığorta pulu hadisə baş verdiyi andan 3 il müddətinə qədər ödənilməlidir. Əgər əsgər 1994-cü ildə şəhid olubsa belə heç bir halda qanunun əhatə etdiyi dövrə düşmür. 2013-cü ildə Milli Məclisdə qanuna dəyişiklik edildi və həmin 3 il müddət məsələsi götürüldü. 2013-cü ildən sonra bütün şəhid ailələri müraciət etməyə başladı. 1990-1993-cü illərdə şəhid olanların heç biri o pulu almamışdı, çünki qanun imkan vermirdi. Ancaq təbii ki, bu onların haqqıdır. 2006-cı ildə verilən qərara əsasən şəhid olan şəxsin ailəsinə sığorta pulu 11 min manat məbləğinə qaldırıldı. Birinci qrup əlil olanlara həmin məbləğin 80 faizi- 8800 manat, ikinci qrup əlil olanlara 60 faizi-6600 manat, üçüncü qrup Qarabağ əlillərinə 40 faizi-4400 manat ödənilməlidir. Ancaq hazırda bu pullar həmin şəxslərə ödənilmir. Bu işi həmin dövrdə hərbi komissarlıqlar və sığorta idarəsi etməli idi. Bu gün Qarabağ əlillərinin əlində sığorta pulunun ödənilməsi ilə bağlı 500-dən çox məhkəmə qərarı var, ancaq ödəmə həyata keçirilmir. Konstitusiya Məhkəməsinin də qərarı var ki, bu pul ödənilsin. Ödəmə qaydaları isə Milli Məclis tərəfindən qəbul edilməlidir. Bir ildən çoxdur ki, Milli Məclis bu qanunun qəbulunu gecikdirir. Şəhid ailələri dəfələrlə gedib Milli Məclisin qarşısında etirazlarını bildirəndən sonra sosial siyasət komitəsindən söz verdilər ki, məsələ ilə maraqlanacaqlar. Bir məsələ də odur ki, 2006-cı ilə qədər şəhid olanlara 1100 manat verilməsi nəzərdə tutulur, ancaq bunun üzərinə devalvasiya haqqı da gəlməlidir. Yoxsa bu haqsızlıq olar. 1993-cü ildə şəhid olan bir kişinin oğlu da bu il şəhid oldu. Atasının "qan pulu" ailəsinə çatmamış oğlu da şəhid oldu. Bu biabırçılıqdır. Şəhid ailəsi gedib qapıları döyüb sığorta istəməməlidir, dövlət özü onların haqqını verməlidir".

**R. Kərimoğlu qeyd etdi ki, son bir ildə şəhid, əlil olanların sığorta pulu normal verilirdi, ancaq hazırda gecikdirilir:** "Ötən ilin avqustunda yaralanmış Lənkəran rayon sakini əsgər Sərxan Tahirzadə iki ayağını itirsə də, sığorta haqqını ala bilmir. Əvvəllər son zamanlar şəhid olanlara sığorta pulu verirdilər, indi onu da dayandırıblar".

**Millət vəkili, MM-in İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bu artıq Milli Məclisə aid olan bir məsələ deyil:** "Bütün sənədlər tərtib olunub və Nazirlər Kabinetinə göndərilib. Milli Məclisin iclaslarında bu məsələ müzakirə olunub. Deputatların əksəriyyəti onlara verilən bir neçə dəqiqəlik vaxtın bir qismini də bu məsələyə ayırır. Hazırda isə məsələ Nazirlər Kabinetinə tapşırılıb".

**Parlamentin Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev** isə APA-ya açıqlamasında bildirib ki, problemin səbəbi sosial sığorta almalı olan hərbi qulluqçularının özlərinin və ya yaxınlarının vaxtında müraciət etməməsidir.

**M.Quliyev qeyd edib ki, sığorta qanunvericiliyinə görə, hərbi qulluqçunun özü və ya hüquqi varisi 2 il müddətinə Dövlət Sığorta Şirkətinə müraciət edərək, sığortanı almalıdır:** "Amma onların əksəriyyəti müxtəlif səbəblərdən vaxtında müraciət etməyiblər, buna görə də sığorta pulunu almayıblar. 2013-cü ildə sığorta haqqının ödənilməsi müddətinin limitsiz olması ilə bağlı qanunvericilikdə dəyişiklik edilib. Yeni sığorta haqqının 2 il müddətə alınması ilə bağlı məhdudiyyət qaldırılıb. Bundan sonra isə kütləvi şəkildə sığorta haqlarının alınması ilə bağlı müraciətlər başlanılıb. Amma burda da başqa bir problem ortaya çıxıb. Məsələ ondadır ki, 2006-cı ilə qədər sığorta 1100 manat dəyərində, 2006-cı ildən sonra isə 11000 manat dəyərində olub. Hazırda 2006-cı ildən sonra şəhid olmuş şəxslərin ailələri, əlillik statusu alanların isə özləri ilə bağlı heç bir problem yoxdur. Əsasən 2006-cı ildən əvvəl sığorta almalı olan şəxslərlə problem yaranır. Onlar da 11 min manat məbləğində sığorta tələb edirlər. Lakin qanunvericiliyə görə, həmin vaxt sığorta məbləği 1100 manat olub. Məsələnin mahiyyəti bundan ibarətdir. Həmin vaxt ayrılmış vəsait 1100 manat olduğu üçün Dövlət Sığorta Şirkəti bu vəsaiti onların istədiyi 11000 manat miqdarında ödəyə bilmir".

**M. Quliyev qeyd edib ki, artıq bu məsələ ilə bağlı Ali Məhkəmə və Konstitusiya Məhkəməsi də qərar verib:** "Lakin hökumət bunun üzərində işləyir. Yəqin ki bu problem həllini tapacaq".

**Məsələ ilə bağlı "Azərsığorta" Dövlət Sığorta Şirkəti ilə əlaqə saxlamağa çalışsaq da zənglərimizə cavab verilmədi.**

❑ **Nərgiz LİFTİYEVA**




# Əsgərimiz ad günündə şəhid oldu

## Anar Atayev torpağa tapşırıldı

Martın 11-i axşam saatlarında düşmənin kəşfiyyat-təxribat qrupu Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin mövqelərinə basqın etməyə cəhd göstərib. Müdafiə Nazirliyindən verilən məlumata görə, şəxsi heyətin sayıqlığı nəticəsində düşmənin mövqelərimizə yaxınlaşması əvvəlcədən aşkar olunub. Şiddətli atışmada erməni tərəfi itkilər verərək geri çəkilməyə məcbur edilib. Düşmənlə döyüşdə Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu, əsgər Atayev Anar Mamed oğlu şəhid olub. Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbir diləyir.

Nazirliyin mətbuat xidmətindən bildirdilər ki, 1991-ci il təvəllüdlü Anar Atayev Ağcabədi rayonu Minəxorlu kənd qəbiristanlığında torpağa tapşırılıb. Ən təsirli məqam isə əsgərin elə doğulduğu gün düşmən güllesinə tuş gəlməsidir. Düşmən gülləsinə tuş gəldiyi gün Anarın 24 yaşı tamam olub. Onun ad günü hədiyyəsi isə şəhidlik məqamına yüksəlməsi olub. Şəhidin atası Mamed Atayev ANS-ə bildirib ki, oğlu şəhidlik zirvəsinə yüksəldiyi üçün qürur hissi duyur. "Düzdür, oğul itkisi çox ağırdır. Sanki canından bir parça gedib. Lakin onun şəhidlik zirvəsinə yüksəlməsi daha qürurverici hissdir"deyə, Mamed Atayev bildirib.

Müdafiə Nazirliyi bildirir ki, son sutka ərzində erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 60 dəfə pozub. Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Çaylı, Çiləbürt, Ağdam rayonunun Şuraabad, Cəvahirli, Novruzlu, Kəngərli, Sarıcalı, Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb. Düşmən cavab atəşi ilə susdurulub.

**Yeri gəlmişkən, düşmənin azğınlaşdığı bu günlərdə Azərbaycanın Ermənistana yatırım qoya biləcəyi ilə bağlı da müzakirələr gedir. ABŞ-dakı Azərbaycan diplomatının dedikləri keçmiş hərbçilər tərəfindən də həssaslıqla izlənilir. Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a bu barədə belə dedi:** "Mən bizim Amerikadakı səfirimizi o vaxt dəstəkləyərəm ki, əvvəl Ermənistan işğal atında saxladığı torpaqlarımızı azad edər. Ondan sonra Azərbaycan Ermənistana yatırım da qoya, gələcəkdə qonşu və region dövləti kimi müəyyən dəstək də göstərə bilər".

❑ **E.PAŞASOY**

# bp-nin Xəzərə dağıtdığı kimyəvi maye ilə bağlı araşdırma başlanıb

## Neft şirkətindən isə "müvafiq tədbirlər görülüb" deyilir

**Bp şirkətinin Xəzər dənizinə kimyəvi maddə dağıtması ilə bağlı artıq araşdırmalara başlanıb. Bu barədə musavat.com-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova məlumat verib. O bildirib ki, həmin əraziyə artıq araşdırma qrupu göndərilib. O, həmçinin bildirib ki, bununla bağlı bp onlara heç bir məlumat verməyib. İ.İbrahimova qeyd edib ki, qısa zamanda araşdırmaların nəticələri məlum olacaq və əgər sözügedən ərazidə ətraf mühitə ziyan dəyməsi faktı müəyyən olunarsa, ziyanın həcmi hesablanacaq, qanunamüvafiq tədbirlər görüləcək: "Bununla bağlı ictimaiyyətə məlumat veriləcək".**



Qeyd edək ki, bir neçə gün əvvəl musavat.com-a daxil olan məlumata görə, bp Xəzər dənizinə qazma zamanı 100 tona yaxın kimyəvi maye (mud) dağıdıb. bp-dən isə cavab olaraq bildirilib ki, martın 5-də suyun 537 metr dərinliyində dənizin dibinə qazma məhlulu sızıb. "Su əsaslı məhlul zərərsiz hesab olunur, əsasını su təşkil edir. Normal halda da bu cür su əsaslı qazma məhlulu durulaşdırılaraq dənizə tökülə bilir. Çünki su əsaslı qazma məhlulu tam zərərsiz hesab olunur. Toksiklik səviyyəsi çox aşağıdır. Təbii şəkildə tez bir zamanda bioloji parçalanmaya məruz qalır" deyə, bp-nin mətbuat xidmətindən qeyd edilib. Həmçinin bildirilib ki, belə sızma olarkən dərhal müvafiq orqanlara, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və Dövlət Neft Şirkətinə məlumat verilir. "Müvafiq tədbirlər də görülüb",- deyə, bp-nin təmsilçisi Tamam Bayatlı bildirib.

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatından isə bildirilib ki, bp-nin məhlulla bağlı münasibəti kökündən yanlışdır:** "Qazma məhlulu əsasən aşağıdakı kimi təsnif olunur: su əsaslı qazma məhlulları, polimer (sintetik), neft əsaslı qazma məhlulları və sairə. Su əsaslı qazma məhlulları da kimyəvi işlənildiyindən, ətraf mühit və onunla təmasda olan insanlar üçün çox təhlükəlidir. Buna görə də həmin məhlulla işləyən zaman xüsusi mühafizə vasitələri (PPE) tələb olunur. Su əsaslı qazma məhlulu neytrallaşdırıldıqdan və başqa sözlə, durulaşdırıldıqdan *(xloridin miqdarı aşağı salındıqdan)* və laboratoriyada yoxlandıqdan sonra əgər nəticələrin ətraf mühit üçün zərərli olmadığı təsdiqini taparsa, o halda müvafiq qurumlarla razılaşdırıldıqdan sonra dənizə axıdıla bilər. bp təmsilçisi Tamam Bayatlı qeyd etdiyi kimi, əgər su əsaslı qazma məhlulu ətraf mühit üçün zərərli deyilsə, bəs nə üçün ACG-də yerləşən bp-nin platformalarında həmin məhlul dənizə deyil, CRİ (injection quyusuna) quyusuna vurulur? Təəccüblüdür, 537 metr dənizin dərinliyində hansı səbəbdən sızma olub və nə üçün 100 ton məhlul dağılana qədər hər hansı bir tədbir görülməyib və ya hansı tədbirlər görülüb? Və ya həmin sızma hansı işlər gedən zaman baş verib?"

Qeyd edək ki, bp-nin açıqladığı kimi, hadisə martın 5-də baş versə də, ictimaiyyətdən gizlədilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyi musavat.com bu barədə informasiya yaydıqdan sonra araşdırmaya başlayıb. Dövlət Neft Şirkəti isə hələ də faktla bağlı açıqlama verməyib.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015




Cümə söhbətləri

# Əməlin "niyə edirik?" paradiqması ilə uzlaşdırılması

Hacı Ilqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Bismillahir-Rahmənir-Rahim! Biz davamlı olaraq iki seçim, iki yol ayrıcındayıq. Müxtəlif formalarda, mövzularda bu xətlərin mahiyyəti eyni olaraq qalır. Bunu xülasələşdirsək, belə deyə bilərik ki, bir istiqamət vardır ki, o istiqamətə yönələndə Allahın dediyi ilə gedirik, Allahın istədiyi kimi yaşayırıq.**

Amma digər bir yol, istiqamət də vardır ki, o yolda gedən insan Allahı unudur. Allah onun həyatında unudulur. Bu istiqamətlə getsək, Allahı xatırlamırıq. Nəticədə qəlbimiz ölür, qəlbimiz qaranlıqlaşır və daxilimizdə bəndəliyə tərəf heç bir ruhiyyə, hal olmur. Bu, ikinci istiqamətdir. Bu istiqamət - qəflət, necə gəldi yaşama, günü necə gəldi keçirtmək istiqamətidir. Bu yolla gedən insan nəticədə məhvə gedir.

## Seçim hər zaman insanındır

Dünya məşğuliyyətləri rəngarəngdir, növbənövdür, şeytanın (lən) təcrübəsi çoxdur, hərtərəflidir. İblis (lən) minillərdir insanı yoldan çıxartmaqla təcrübə yığır. İblis (lən) eyni vaxtlarda milyardlarla insanı görüb və görür. Biz nə ilk məşğul adamlarıq, nə də sonuncu məşğul insanlarıq. Biz nə qəflətdə olan ilk insanlarıq, nə də sonuncusuyuq. İnsan yaranandan bu cür olub və bu cür də davam edir.

Bəli, bu yol - düşünməyən, ibrət götürməyən insanların yoludur. Bu yolda maddiyyatpərəstlikdən qurtula bilməyən insanlar qərar tuturlar.

Digər bir yol da vardır ki, o yol - ayıqlıq, diqqət, təvəccö, fərqində olmaq yoludur. Misal üçün, Məhərrəm-Səfər əyyamı daxil olanda tövsiyə olunur ki, insan ilk ongünlükdə iradəvi kədərli olsun. Əgər adam gülümsəyəndə, lazımından çox zarafat edəndə fərqində olursa, diqqət edirsə, özünü tez yığışdırırsa - deməli ayıqdır. Deməli, vəziyyət sağlam istiqamətdədir. Bir də var ki, insan hətta Tasuanın, Aşuranın belə fərqində olmur, onları diqqətə almır.

Yaxud digər əlamətdar günlərin özünəməxsus əməlləri vardır. İnsan onlara diqqət də edə bilər, tamamilə laqeyd də qala bilər. Seçim hər zaman insanındır.

## Qəflət pərdəsini necə kənara çəkək?

Həzrət Əmirəlmöminin İmam Əli (ə) buyurur: **"Daima Allahı xatırlamaqla qəflət pərdəsi kənara çəkilər"**. Qəflət öz-özünə kənara çəkilə bilməz. Bəs Allahı necə xatırlaya bilərik? Öncə bu barədə ən azından düşünməliyik. Ziyarətə getmək nəyə görə tövsiyə olunur? Çünki, insan bir müddət yol gedərkən, sonra ziyarət zamanı, daha sonra ziyarətdən qayıtdığı müddət ərzində Allahla rabitədə olur.



İbadətləri camaatla birgə yerinə yetirmək niyə görə tövsiyə olunur? Çünki, birgə ibadət edilən yerə gedənə qədər, burada olduğu müddətdə, ibadətlər bitəndən sonra insan Allahı zikr edir, xatırlayır. Bütün tövsiyə olunan müstəhəb əməllər insanı Allahın zikrinə yaxınlaşdırdığı üçün tövsiyə olunur.

Xüsusilə Allahı xatırlamaq bizim adi halda istəmədiyimiz meydançalardadır, istəmədiyimiz işlərdə, mövzulardır. Bizə rahatlıq yaratmayan, əksinə - bizi bir qədər zahiri mənada çətinliyə sala biləcək məsələlərdədir. İnsan təbii ki, çox yatmaq istəyir. Amma, yatmaqla insan yuxudan doyurmu? Çox yatan insan daha da çox yatmaq istəyir. İnsan rahatlığını artırdıqca, məgər daha rahatlıq istəmirmi? Əksinə, bu artdıqca, insan daha çox rahatlıq istəyir. Nə qədər rahatlığa çatırıqsa, bir qədər də daha artıq rahat olmaq istəyirik. Belə isə, biz yatmağımızdan, nisbi rahatlığımızdan Allaha bəndə olmaq üçün gərək istifadə edək.

## Allaha aşiq olmağın yolu

Əziz İslam Peyğəmbərindən (s) nəql edirlər: **"Allah buyurur: "Mənimlə olan məşğuliyyət bəndənin canına qalib gəlsə, onun istək və ləzzətlərini Məni xatırlamaqda qərar verərəm. İstək və ləzzətini məni xatırlamaqda qərar verdikdə, Mənə aşiq olar, Mən də ona aşiq olaram"**. İnsan səy etsə, çalışsa, ardıcıl fəaliyyət göstərsə ki, Allah bəndəliyinə çatsın, Allah da onun istək və ləzzətlərini Onu xatırlamaqda qərar verər. İnsanın istəkləri adətən mənfi şeylərdə olur, ləzzətləri mənfi şeylərdə axtarır. Amma Allahı həyatında özü üçün dominant qərar verən insanın, həyatının mərkəzi, məğzi Allah olan insanın istək və ləzzətləri Allahı xatırlamaqda müəyyən edilər. Beləliklə, hər ləzzətində insan Allahı xatırlayacaq. İstək və ləzzəti Allahı xatırlamaq olan insan isə Rəbbinin aşiq olar və Rəbbi də belə insanın aşiqi olar.

Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Qəlbin islah olmasının və təmizlənməsinin kökü - onun Allahı yad etməsidir"**. Qəlb müəyyən bir yolla islah olunar və onun kökü - Allahı yad etməkdədir. Moizələr, xütbələr, gündəlik ibadətlər, Məsumların (ə) mövludlarının, şəhadətlərinin keçirildiyi yerlər - bunların hamısı Allahı yad etmək üçündür. Bəzilərindən niyə ibadətə başlamadığını soruşanda deyirlər ki, "əsas odur ki, qəlbin təmiz olsun". Elə məhz ibadətlə insanın qəlbi təmizlənər. Təmizliyin, paklığın mənbəyi olan yeganə Allahla rabitədə olmayan qəlb öz-özünə necə təmizlənə bilər? Əziz Məsumlarımız (ə) bizlərə qəlbi necə təmiz etməyi öyrədir. Əgər insan həqiqətən qəlbini təmiz, pak etmək istəyirsə, gərək Allahı yad etsin və Allahı yad etmək də günahlarla, boş-boş işlərlə, Allahın vacib etdiyi əməlləri kənara qoymaqla mümkün deyil.

## Əməlin keyfiyyəti niyyətdədir

Beləliklə, biz qarşımızda duran iki seçimdən doğrusunu etmək üçün öz ruhiyyələrimizi, qəlbimizin durumunu islah etməliyik. Ümumiyyətlə seçimli, iradəli olmaq bacarıq tələb edir. Seçərkən hədəfimiz olur. O hədəfə görə doğru və ya yalnış seçim edə bilərik. Əməlin niyyəti deyiləndə, əslində bu nəzərdə tutulur. Əməlin öz-özlüyündə insanın inkişafına aparıb çıxarmaq qüdrəti yoxdur. İstənilən zahirdə gözəl görsənən əməl, müvafiq niyyətlə bu və ya digər hala aparıb çıxara bilər. Əməl niyyət olmasa, əməl öz-özlüyündə heç bir dəyərə malik deyil. Ona görə də biz davamlı olaraq etmələrimizi və o cümlədən, etdiklərimizi "niyə edirik?" paradiqması ilə uzlaşdırmalıyıq. Kiçik görünə bilən əməl gözəl niyyətlə edilibsə, bu zaman bizi təkamülə aparacaq. Zahirən ən gözəl görünən böyük əməl pis niyyətlə edilibsə, bu zaman uçuruma aparacaq. Misal üçün, təvazökarlıq kimi özlüyündə proqressiv və qurucu olan bir durumu götürək. Əgər biri təvazökarlığı Allahı razı salmaq üçün edirsə, digəri bunu özünü göstərmək üçün edə bilər. Zahirən hər ikisi təvazökarlıqdır. Amma, biri insanı təkamülə, digəri isə uçuruma aparır. Ona görə də əməlin dəyəri insanın niyyəti ilə ölçülür.

## Niyyətlər yalnız Allahın razılığına bağlı olanda inkişafa aparar

Niyyət bəhsinin özü - olduqca geniş mövzulardandır. Niyyətlərimiz üzərində düşünməliyik. Məsumlardan (ə) olan dualarda buyurulur: **"Allahım, danışmaq qüdrətini vermisən. Bu neməti Sənin razılığın olan yerdə istifadə etmək tofiqini də bizə ver"**. Dil kimi böyük nemətimizi biz iki yolda istifadə edə bilərik - həm öz mənafeyimiz üçün, həm də Allah bəndəliyi üçün. Əgər biz dil nemətindən Allahın razılığı olan yerdə istifadə etsək, bu nemətin əməli şükrünü etmiş olacağıq. Allahın razılığını düşünmək və Onun razılığı üçün bir işi görmək - insanı inkişafa, təkamülə, gözəl aqibətə aparan ən gözəl niyyətdir. Biz dualarımızda, müxtəlif zikrlərdə Allahın razılığını istəyirik. Əgər niyyətimiz Allahın razılığı olarsa, dilin halı xeyli dəyişər.

Həzrət Əli (ə) buyurur: **"Möminlər o kəslərdir ki, söhbətləri Haqqın rizasının əleyhinə deyildir"**. Möminlərin danışdıqlarının heç birinin niyyətində Allahın razılığından kənar məsələ yoxdur. Möminlər Allahın razılığını düşünərək danışırlar. Danışarkən, söhbət edərkən Allahın razılığını düşünmək - çox ciddi məsələdir. Ümumilikdə dil - böyük nemətdir. Bu nemətin qədrini bilmək üçün onu doğru yolda istifadə etmək lazımdır.

İmam Baqir (ə) buyurur: **"Sənin dilin hər bir xeyrin və hər bir şərin açarıdır. Onu həbs et, ancaq o yerdə ki, işinə yarayır və sənə nicat verə bilər - o zaman onu aç. Əks halda, onu zindanda saxla"**. Bizim əksər problemlərimizin kökü dilimizdən gəlir. Biz adətən öncə danışırıq, sonra düşünürük. Az insan var ki, səmimi olaraq özü üçün etiraf edir ki, düşünmədən danışıb. Halbuki insana ən böyük zərbəni düşünmədən danışdıqları vurur. Çünki sonradan onların heç birini artıq geri qaytarmaq mümkün olmur. Adətən insanları proses aparır, söhbət edir, müzakirə edirlər, danışırlar, sonradan isə peşman olurlar. Ona görə də, danışmaqdan öncə danışmamızın niyyətini, hədəfini müəyyən etməliyik. Əgər dilin danışması Allahın razılığı üçün olacaqsa, xeyirlərin müqəddiməsi olacaq. Əgər Uca Allahın razılığı üçün olmayacaqsa, bizi bəlalara salacaq. Bütün bəlalar dildən gəlir. Ona görə də, əziz İmam (ə) dili zindanda saxlamağı tövsiyə edir. Böhtan, qeybət, sui-zənn, yalan - böyük rəzil sifətlər məhz dilin nəticəsidir. Dili hərəkətə gətirmək fövqəl dərəcədə rahatdır. Dili hərəkətə gətirmək və onu düşünüb hərəkətə gətirmək arasında böyük fərq var. Adətən insanlar dili düşünüb hərəkətə gətirənə qədər artıq danışırlar.

## Qəlbi öldürən amillər

Əsas məsələ odur ki, bizlər davranışlarımızda və əməllərimizdə niyyətimizə diqqət edək. Niyyətlərin də doğru olması sözsüz ki, imanın öz üzərində işləməsinə bağlı olan məsələdir. İmanın dərəcəsi, keyfiyyəti necədirsə, əməl və davranışlar da o cürdür. Biz Allahın varlığına, Rəbb olmasına, Qiyamət gününə həqiqi imanımız olsa və bu imanın nəticəsində etdiklərimizin, davranışlarımızın məsuliyyətini hiss etsək, o zaman bütün rəftarları Allahın razılığını düşünərək edəcəyik. Bütün əməlləri edərkən, Qiyamətdə bunun nəticəsinin necə olacağını nəzərə alacağıq. Bütün rəftarlarımızı, Qiyamətdə bunun mükafatını və ya cəzasını alacağımızı düşünərək edəcəyik. Əgər bu olmasa, bizim davranışlarımızda heç bir irəliləyiş olmayacaqdır.

Niyyətlərimizin pak olması isə qəlbimizin pak olmasından keçir. Biz davamlı olaraq qəlbimizin durumunu nəzarətdən keçirməliyik. Bir sıra amillər var ki, bizə çox xırda gəlir, adət üzrə onlara diqqət də etmirik, amma qəlbimizi ləkələyir. Onlardan bəzilərinə vurğu edək. Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Boş yerə mübahisədən və çəkişmədən çəkinin. Çünki bu iki iş qəlblərdə qardaşlara qarşı xəstəlik yaradar və bunlardan nifaq cücərər"**. İnsanlar mübahisəni, bir-birinə nəyisə sübut etməyi adətən xoşlayır. Həzrət Əli (ə) bizi boş, mənasız, hədəfsiz yerə mübahisə aparmaqdan, buna vaxt itirməkdən çəkindirir. Bunun səbəbini də izah edir.

Zahirən adi görsənən məsələdir və bəzən toplum bu kimi şeylərə vərdiş etmiş olur. Amma, nəticəsi olduqca dəhşətli və faciəlidir. Biz bəzən görürük ki, hansısa boş zarafatda, mübahisə, çəkişmə, ünsiyyətdə o qədər də diqqət vermədiyimiz məsələlər sonradan böyük-böyük fitnələrə, nifaqlara səbəb olur. İnsanların qəlbində bir-birinə qarşı kin-küdurət yaranır. İnsan belə bir vəziyyətdə artıq başqa bir qardaşına məhəbbətlə baxa bilmir. Artıq insan digər qardaşlarına xəstə qəlblə yanaşır, kin bəsləyir. Fitnəli vəziyyətin şəraiti məhz belə yaranar. Bir var ki, möminlər bir-birinə qarşı səhvə, yalnışlığa yol verir, sonradan səhvini başa düşür və digəri də bunun üstündən keçir. Bu, normal haldır. Bir də var ki, insanın qəlbi artıq xəstələnib. O elə digərində səhv tapmaq üçün fürsət gözləyəcək. Deməli, belə anlaşır ki, boş-boşuna görülən işlər qəlbin xəstəliyini əmələ gətirər.

## O, bizlərin qəlbinə baxar

Əziz İslam Peyğəmbəri (s) buyurur: **"Allah Təala sizlərin üzlərinizə və var-dövlətlərinizə deyil, qəlblərinizə və əməllərinizə baxar"**. Bizim vəziyyətimiz zahiri görsəntilərimizlə ölçülmür. Bizim vəziyyətimiz maddi imkanlarımızla müəyyən edilmir. Allahın nəzərində önəmli olan - bizim qəlblərimizin durumudur. Önəmli olan - bizim əməllərimizin keyfiyyətidir. İnsanları zahirimizlə, maddi durumumuzla razı sala bilərik. Amma, Allahı razı salan - bizim qəlbimizin durumu və bundan irəli gələn pak niyyətlə yoğrulmuş əməllərimizdir.

**Allahım, bizlərə qəflətdən oyanmağı, ayıqlığı nəsib et!**

**Allahım, bizə xalis niyyətlər və bundan irəli gələn pak əməllər nəsib et!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

YENİ MÜSAVAT
N 56 (6084) 13 mart 2015

# “Qul bazarı”ndakı müəllimlər danışdı

Günəmuzdçular Hadi Rəcəblini bir günlük fəhlə işləməyə dəvət etdilər; **ali təhsilli müəllim:** “Müəllimlərə tövsiyə verməkdənsə, özü gəlib burada dayansın...”

**Deputat Hadı Rəcəbli müsahibəsində “müəllimlər işdən sonra gedib fəhlə işləsin” təklifi cəmiyyət, xüsusən də müəllimlər tərəfindən etirazla qarşılanıb. Biz də deputatın bu təklifinə işsiz, min bir əziyyət çəkərək fəhləlik edən insanların fikrini öyrənmək üçün “Xalqlar dostluğu” metrosu yaxınlığında “qul bazarı”na baş çəkdik.**

“Qul bazarı”na Bakı kəndlərindən gələn fəhlələrlə yanaşı, rayonlardan da kifayət qədər üz tutan var. Bu insanlar 5-10 manat pul qazanmaq ümidi ilə şaxta-isti demədən körpünün altında səhər tezdən, axşam saat 8-9-a qədər müştəri gözləyirlər. Bəzən bütöv bir günü boşuna gözləmiş olurlar. Vay o gündən ki, bir maşın onların yanında saxlayıb fəhlə lazım olduğunu deyə. Bir çaxnaşma düşür ki, gəl görəsən.









Ora yaxınlaşanda da bunun şahidi olduq. Bir maşın iki fəhlə lazım olduğunu dedi və hər kəs məni apar “hər işi bacarıram” deyərək maşının qarşısına atıldı. Nəhayət, müştəri iki fəhləni seçdi. Ortam bir az sakitləşdikdən sonra fəhlələrə yaxınlaşıb deputatın müəllimləri fəhlə işləməyə dəvət etməsi ilə bağlı təklifini onlara çatdırıb münasibətlərini öyrəndik.

Fəhlələrin bəziləri Hadı Rəcəblinin bu fikrinə çox sərt cavab versələr də, bəziləri gülərək “o adamı çox da ciddiyə almayın” - dedilər.

**Lənkəran rayonundan olduğunu deyən fəhlə Sabir Qasımov “Hadı Rəcəbli gəlib bir gün burada dayansın görək necə dayanır”, - deyə sərt münasibət bildirdi:** “Mən o Hadı Rəcəblini çox yaxşı tanıyıram. O həmin Hadı Rəcəblidir ki, Lənkəranda 4 saylı rus məktəbinə öz anasının heykəlini qoydurmuşdu. Sonradan qınaqları, hamının onu elə saldığını görüb həmin heykəli götürdü.

Halbuki müəllimlər həmin vaxt ondan normal əmək haqqı gözləyirdi, anasının heykəlini məktəbin qarşısına qoymağını yox. O vaxt o, Lənkəranda komsomol katibi işləyirdi. Elə onda da indiki kimi idi. Yəni bu insanın boş-boş danışmaqdan başqa işi yoxdur. O, deputatlığa layiq adam deyil. Onun hər sözünə biz “anekdot” kimi baxırıq".

**Söhbətə qatılan digər fəhlə Zaur Məmmədov Hadı Rəcəblini bir gün onlarla gəlib fəhləlik etməyə dəvət etdi:** “Müəllimlərə tövsiyə verməkdənsə, bir gün özü gəlib burada dayansın. Elə bilir asandı qışın soyuğunda, yayın qızmar Günəşi altında burada 3-5 manat ümidi ilə dayanmaq. Oturub isti kabinetində tox halda, acın, işsizin halını necə başa düşsün? Mən özüm ali təhsilli müəlliməm. İş tapa bilmədiyim üçün, ailəm ac qalmasın deyə fəhləlik edirəm. Hadı Rəcəbli müəllimlərə fəhləlik edin deyə tövsiyə verməməlidir, əksinə, onun müəllimi fəhləlik edir, deyə utanmalıdır. Hansı ölkənin ali təhsilli insanları, müəllimi araba sürür, fəhləlik edir?! Utanın, utanın ki, bizim kimi insanları siz məhv etmisiniz”.

Söhbətimizin bu yerində müştəri gəlir və fəhlələr həmin müştərinin başına yığışır, sanki onları aparmaları üçün yalvarırlar. Bu məqamda yaşlı bir kişinin müştərinin sanki ayaqlarına qapanaraq “nə iş istəsəniz görə bilərəm, lazım gələrsə bağı süpürüb təmizləyə də bilərəm, pula ehtiyacım var, nə verərsinizsə razıyam” deməsi insanın içini parçalayırdı. Sanki bu insan onun son ümidi idi. Ancaq onun bu yalvarışları boşa çıxdı. Müştəri öz bağında müəyyən işləri görmək üçün onun yaşlı olduğunu deyərək daha gənc bir fəhləni seçdi. Üzündən qəm-kədər yağan yaşlı fəhlə ümidsiz halda kənara çəkilərək betonun üzərində oturdu. Həyatda gördüyü çətinliklər sanki bu yaşlı insanın üzünə qəm-kədər cizgiləri salmışdı. Bəlkə də o düşündüyümüz qədər yaşlı da deyildi.

**Düşüncələrimizdə yanılmamışdıq. Ona yaxınlaşıb “bu yaşda fəhləlik etmək çətin deyilmi”,** - deyə sual edirik. 53 yaşı olduğunu deyən Rasim Qafarov “bu həyat bizi qul olmağa məcbur etdi” deyir: “Hara getdimsə, iş yoxdu dedilər. Özüm uzun illər çörək zavodunda işləmişəm. Mən çörək bişirməyi yaxşı bacarıram. Deputatlar çıxıb boş-boş danışmaqdansa, iş yeri açsınlar. Məcbur olub bura gəldim. Burada da çox vaxt harınlamış varlılar bizi aparır, işlədib pulumuzu vermirlər. Ya da dediklərindən az məbləğ verirlər. Nə edim, dözməliyəm. Əlbəttə, bu yaşda işləmək çox çətindir. Mənim yaşıdlarım isti evlərində oturub nəvələri ilə oynayır. Mən işləməsəm ailəm ac qalar. Prezidentə, deputatlara səslənirəm: iş yerləri, zavod, fabrik açın”.

**“Qul bazarı”nda jurnalist olduğumuzu bilərək kənarda qısılıb dayanan, sanki şəkillərə düşməkdən çəkinən gənc oğlan diqqətimizi çəkdi. “Şəklimi çəkməyin” deyərək uzaqlaşmaq və bizimlə söhbət etmək istəmədiyini bildirsə də, sonradan fikrindən daşındı. 19 yaşlı Vüqar Əhmədov Hadı Rəcəblinin “müəllimlər fəhləlik etsin” fikrinə çox sərt münasibət bildirdi. Atasının müəllim olduğunu deyən gənc fəhlə müəllim maaşı ilə yaşamağın çətin olduğunu dedi:** “Müəllim oğluyam, amma fəhlə işləyirəm. Atam da arada usta kimi evlərə gedib işləyir. Çünki aldığı məvacib ailəni dolandırmağa yetmir. Azərbaycanda müəllimə sanki dilənçi pulu verirlər. Amma mən heç vaxt razı olmaram ki, müəllim gəlib qul bazarında dayansın. Hadı Rəcəblinin bu sözü müəllimlərə təhqirdir. Əlbəttə ki, Hadı Rəcəbli kimi adamlar deputat postunda olanda müəllim fəhlə də işləməlidir, hambal da. Fəhlə işləmək elə yaxşıdırsa, boş-boş Milli Məclisdə oturmaqdansa o da gəlib burada bizimlə işləsin. O nəinki burada fəhlə işləyə bilər, heç bir dəqiqədə bu mühitdə qala bilməz. Qıraqdan danışmaq asandı. Utanın ki, hələ də Azərbaycanda ”qul bazarı" və qullar var..."

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**






# “Nar Mobile” kitab həvəskarları üçün onlayn müsabiqə elan etdi

“Ali & Nino” kitab mağazaları şəbəkəsi ilə birgə keçirilən “Ürəklə al, çox oxu” kampaniyası çərçivəsində “Twitter” müsabiqəsi elan edildi

**“Nar Mobile” cəmiyyətimizdə kitaba olan marağı artırmaq, kitabsevərləri dəstəkləmək üçün “Ali & Nino” kitab mağazaları şəbəkəsi ilə birlikdə “Ürəklə al, çox oxu” kampaniyası keçirir. Kampaniya çərçivəsində “Ali & Nino” şəbəkəsinə daxil olan mağazalardan istənilən kitabı 25%, 30% və ya 40% endirimlə əldə etmək mümkündür. Bunun üçün “S”, “M” və ya “L” Nar Turbo İnternet paketlərindən birini əldə etmək kifayətdir. Lakin hər zaman yenilik və kreativliyə can atan “Nar Mobile” bununla kifayətlənməyərək, “Twitter” sosial şəbəkəsində də müsabiqə keçirmək qərarına gəldi.**

**İndi azərbaycanlı “Twitter” istifadəçiləri oxumaq istədikləri və ya “Nar Mobile”-ın “Ürəklə al, çox oxu” kampaniyası çərçivəsində aldıqları kitablar haqqında tvitlər yazaraq müsabiqədə iştirak edə bilərlər. Tvit yazarkən, #NarlaOxu haşteqindan istifadə edilməlidir, eyni zamanda, kitab haqqında tvitlə bərabər kitabın fotosunu da yükləmək olar. Müsabiqədə bütün mobil operatorların istifadəçiləri iştirak edə bilər.**

**Qaliblər tvitləri ən çox retvit toplamış istifadəçilər arasından seçiləcək. Müsabiqənin qalibinə “Amazon Kindle Voyage”, 2-ci yeri tutan iştirakçıya “Amazon Kindle Fire HD 7", üçüncü yerin sahibinə isə ”Amazon Paperwhite" təqdim olunacaq. “Nar Mobile” kitaba olan həvəsi artırmaq üçün daha iki nəfərə hədiyyə verməyi planlaşdırır. Belə ki, retvitlərə əsasən, 4-cü və 5-ci yerləri tutan şəxslərin hər birinə “Ali & Nino” dükanlar şəbəkəsində keçərli olan 100 AZN dəyərində hədiyyə kuponu təqdim ediləcək.**

**Qeyd edək ki, müsabiqə martın 11-dən aprelin 1-dək davam edəcək. Müsabiqədə iştirak edənlər @Nar_Mobile və @Aztwi hesabını izləməlidirlər. Tvitdə #NarlaOxu açar sözü yazılmalı və @Nar_Mobile hesabı qeyd edilməlidir. Bir iştirakçı müsabiqədə iştirak üçün istədiyi sayda tvit yaza bilər. Müsabiqə iştirakçısının müsabiqəyə həsr etdiyi tviti retvit edənlərin arasında botlar aşkar olunarsa, həmin iştirakçının retvitləri həqiqi sayılmayacaq. Müsabiqə iştirakçısı ən azı müsabiqə müddətində Azərbaycanda yaşamalıdır.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan “Nar Mobile”, 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində “Nar Mobile” daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. “Nar Mobile” Bakı 2015 Avropa Oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



# Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04



**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT

Son səhifə

N 56 (6084) 13 mart 2015

# Az yatmağın zərərləri

Kilo problemi, ümumiyyətlə çox yeməyə və az hərəkət etməyə bağlı olsa da, az yatmağın köklük yaradan gizli bir düşmən olduğu üzə çıxıb. Son 40 ildəki araşdırmalar, indiki vaxtda yuxu müddətinin doqquz saatdan yeddi saata düşdüyünü və insanların daha az yatıb daha çox kilo aldıqlarını göstərir. Mütəxəssislər az yatmanın insan sağlamlığı üzərində bir çox mənfi təsiri olduğunu və kilo probleminin də bu mənfiliklərdən biri olduğunu ifadə edir.

Yuxusuzluğun sinirlər üzərində də mənfi təsirləri var, yuxusuzluğun sinirləri xəbərdar edərək rahatlamasına maneə törətdiyini, karbohidrat və şəkərli yeməklərə meylin daha çox artdığını və kortizol deyilən stress hormonunun da yuxusuzluq müddəti tərəfindən artaraq yağlanmaya səbəb olduğunu bilirik.



Bu səbəblə yuxunun son dərəcə əhəmiyyətli olduğunu unutmamaq və mütləq kafi müddətlərdə yatmaq lazımdır.



## Yataraq pul qazanmaq belə olur

NASA keçirəcəyi yeni təcrübədə iştirak edən könüllülərə həftədə 1200 dollar verəcək. Məlumatlara görə, təcrübə zamanı ayağa qalxmadan dayanmağın insanların psixologiyasına necə təsir etdiyi araşdırılacaq. Təcrübə müddətində xüsusi seçilmiş şəxslər istisna hallar olmadıqca ayağa qalxa bilməyəcəklər. Lakin uzandıqları yerdə yemək yeyə, kitab oxuya, telefonla danışa, oyun oynaya və kompüterlərindən istifadə edə biləcəklər. Yəni uzanmış şəkildə hər şeyi etmələrinə icazə veriləcək. Təcrübənin sonunda yataraq vaxt keçirməyin uzun müddətli kosmos səyahətinə çıxacaq adamların əhval-ruhiyyəsinə necə təsir edəcəyi öyrəniləcək. Mütəxəssislər 91 gün yataraq vaxt keçirməyin insan psixologiyasına necə təsir etdiyini, zehni gücü azaldıb-azaltmayacağını və xəstəliklərə necə təsir edəcəyini öyrənmək üçün belə bir addım atdıqlarını açıqlayıblar.



## Baş nazirə hirsləndi

Avstraliyanın baş naziri Tani Abbotun son zamanlarda etdiyi səhvlərdən narahat olan bir qrup gəncin sosial mediada paylaşdıqları şəkil orta məktəbdə oxuyan şagirdin gündəmdən düşməməsinə səbəb olub. Şəkildə görünür ki, baş nazir Sidney ziyarəti zamanı Seaforth adlı bir ibtidai təhsil məktəbində çıxış edir. Nazirin söhbətindən bezən bir uşaq əsəbiləşdiyi üçün başını stola vurmağa başlayır. "Başını stola vuran uşaq" ləqəbi ilə məşhurlaşan oğlan son günlərdə ölkənin ən məşhur uşaqlarından birinə çevrilib.

# 10 yaşda ölüm təhdidi

Amerikada yayımlanan "Dr.Phill Show" proqramında iştirak edən bir qadın uşağının pis davranışlarına görə yardım istəyib. Kim və Ryan adlı cütlüyü narkotik aludəçisi olan atadan övladlığa götürdükləri oğullarının hərəkətlərindən qorxuya düşdüklərini deyirlər. Onlar böyütdükləri uşağın gələcəkdə cinayətkara çevriləcəyindən narahat olduqlarını bildirirlər. 18 aylıq olarkən övladlığa götürülən uşaq 3 yaşında bıçaq oynatmağa başlayıb. 6 yaşında isə evdəki bıçaqları öz otağında gizlətməyə başlayıb. Uşağın anasının sözlərinə görə, onun xəyalında yaratdığı bir dostu var və ona pis hərəkətlər etməsi üçün göstərişlər verir. Adı açıqlanmayan uşaq 6 yaşında ikən hamama girərək qapını bağlayıb. Ailəsinin bütün israrlarına baxmayaraq, uzun müddət oradan çıxmayıb. Uşaq hamamdan çıxdıqdan sonra əllərini kəsdiyi məlum olub. 6 yaşlı uşaq qan görmək istədiyi üçün əlini kəsdiyini deyib. Hazırda 10 yaşı olan oğlan ailəsini ölümlə təhdid edir.





## Görmə qüsurluların işi asanlaşdı

Artıq Brayl şriftini öyrənməyə ehtiyac yoxdur. Massaçusets Texnologiya İnstitutunda hazırlanmış qurğu prototipi gözdən əlil və zəif görən insanlara istənilən, həmçinin elektron kitabları oxumağa imkan verir. Bu halda, hətta Brayl şriftini öyrənməyə ehtiyac yoxdur.

"FingerReader" adlı cihaz oxucunun barmağına bərkidilir. Bu həll bir sıra müxtəlif ötürücü və sensorlarla təchiz edilib və mətni "tanıya" və musiqi formatında səsləndirə bilir. Bu barədə "ICTnews" elektron xəbər xidməti bildirir.

"FingerReader" cihazından istifadə prosesi kifayət qədər asandır: qurğu barmağa bərkidilir və göstərici kimi istifadə olunur. Mətnin hansısa bir hissəsini oxumaq üçün istifadəçi yalnız barmağını (göstəricini) lazımi sətrin alt hissəsinə yaxınlaşdırmalıdır. Əgər mətni oxuduqda göstərici sətri buraxarsa və ya əl titrəyərsə, o zaman istifadəçi səsli xəbərdarlıq eşidir.




**QOÇ** - Passiv gündür. Hansısa qeyri-adi hadisəni gözləməyə dəyməz. Yaxşı olar ki, üzərinizə düşən adi işlərin həlli ilə məşğul olasınız. Məxfi görüşləri və səfərləri təxirə salın.

**BUĞA** - Təxminən saat 14-ə qədər ümumi əhvalınız süst olduğundan bütün ciddi işlərinizi təxirə salın. Sonrakı müddətdə isə maliyyə uğurlarınız gözlənilir. Uzaq yola çıxmayın.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvimdə işgüzarlığınız kifayət qədər artacaq. Bu səbəbdən də şəxsi büdcənizi qorumalı, fəaliyyət istiqamətlərini dəqiqləşdirməlisiniz. Yeni təkliflərə razı olmayın.

**XƏRÇƏNG** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu kimi sövdələşmə və müzakirələrdə iştirakınız yaxın gələcəyin planlarını həyata keçirməyə kömək edəcək. Şübhəli adamlardan uzaq olun.

**ŞİR** - Kifayət qədər mübahisəli gündür. İfadə etdiyiniz hər bir sözə ciddi yanaşın. Əks təqdirdə münaqişəli situasiyalara cəlb olunacaqsınız. Falçı və cadugərlərdən uzaq olun.

**QIZ** - Qarşılıqlı münasibətlərdə, eləcə də işgüzar sövdələşmələrdə ulduzlar sizə dəstək verəcək. Böyük uğurlarınızın ilkin qığılcımları məhz bu təvimdən etibarən start götürəcək.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu maraqlı gündə savab işlərinizin sayını artırmağa çalışın. Bu, sonrakı proseslərin həllində sizə kömək edəcək. Mövcud problemlərə görə narahat olmağa isə dəyməz.

**ƏQRƏB** - Əksər məsələlərdə gün sizin xeyrinizə işləyəcək. Şəxsi işlərinizdə müsbət rol oynaya biləcək insanlarla da rastlaşacaqsınız. Unutmayın ki, hazırda uğurlarınıza gedən yolun astanasındasınız.

**OXATAN** - Sevgi məsələlərinə mülayim yanaşın. Bu, həm mövcud olan əsəbiliyinizi azaldar, həm də işlərinizin yaxşılaşmasına təkan verə bilər. Qohumluq münasibətlərinə xüsusi fikir verin.

**OĞLAQ** - Hər mənada uğurlu təqvimdir. Öz gücünüzə etibar edin. Çünki Göy qübbəsi sizə elə bir enerji verəcək ki, bütün maneələri dəf edə biləcəksiniz. Axşamsa sürprizlər gözlənilir.

**SUTÖKƏN** - Günün birinci yarısında nəzərdə tutduğunuz perspektivlərin müəyyən hissəsini həll edə biləcəksiniz. Nahardan sonra isə yalnız neytral mövqe tutmalı, riskdən uzaq olmalısınız.

**BALIQLAR** - Elektrik və digər avadanlıqlarla ehtiyatlı davranın ki, xəsarət almayasınız. Digər sahələrdə elə bir çətinliyiniz olmayacaq. Axşam saatlarını ürəyinizə yaxın dostlarla gəzintiyə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qarğıdalı qutusundan piton çıxdı

Avstraliyanın Sidney şəhərində yaşayan Jared Smit günorta yeməyi planlaşdırdığı qarğıdalı qutusunu açdığı zaman şoka düşüb. Gənc qadın qutunu açar-açmaz içindəki piton ilanının başını qaldırdığını görüb. İlanı qutu ilə birlikdə yerə atıb evdən qaçan J.Smit atasına zəng edib. Hadisə yerinə gələn polislər qutunun içində qıvrılmış vəziyyətdə olan ilanı çətinliklə də olsa çıxarıblar. Uzunluğu 2 metrdən çox olan pitonun qutuya necə girdiyi isə heç kəsə məlum deyil. Mütəxəssislər ilanın özünü qorumaq məqsədi ilə qutunun içinə girdiyini deyirlər.




Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300